QƏŞƏM ÇIRAQLI

# ƏSƏRLƏRİ

# I

«ÇİNAR-ÇAP»
Bakı – 2005

**Az.2**
**L61**

# QƏŞƏM ÇIRAQLI

**QƏŞƏM ÇIRAQLI**
Q42 «ƏSƏRLƏRİ - I», «ÇİNAR-ÇAP» nəşriyyatı,
Bakı, 2005, 406 səh.

**Q42 4702060200**
**122**

**© «ÇİNAR-ÇAP», 2005**

**Demə mən kiməm, nəçiyəm.**
**Şer dünyasına elçiyəm.**
**Yer şairiyəm, Göy şairiyəm,**
**Doğma şerimizin ögey şairiyəm.**

# NARAHAT DÜNYANIN GƏRİLMİŞ MİSRALARI

Əsəbi yorulmuş dünyamızın nə yaşı bilinir, nə də çəkdiyi müsibətlərin sayı. Bu dünyanın qədəmlərində ağır bir yorğunluq görünür. Dünyamızın insanları qayğılı, övladlarına qarşı məsuliyyəti isə azdır. İstək və arzu ilə yaşayanlar, xalqımızın tarixində yeni bir səhifə yaradan şəhidlər, top-tüfəng səsindən hələ də diksinməyənlər, vətən nisgilli yurddaşlarımız…

Budur dünyamızın görünən tərəfləri. Yalan dünya, "gəlimli-gedimli, son ucu ölümlü dünya…" Budur ulularımızın dünya haqda fikirləri.

Dünyamız mürəkkəb xarakterli insanlarla üz-üzədir. Onlar gah aldanır, gah aldadır, gah da vəzifə, kürsü üstündə milyonların taleyinə narahatlıq gətirirlər.

Dünyanın narahat günləri düşmənin düşmənə atdığı daşdan başlandı. Nizə, qılınc, qalxan, tüfəng, atom dünyanın fəlakətli günlərini yaratdı. Elə bu hisslər içərisində Qəşəm Çıraqlının elə bu günlərdə işıq üzü görmüş "Dünya həmin dünyadır" şerlər kitabını vərəqlədik, misraların işığında bir rahatlıq tapdıq. Kitabda şairin müxtəlif mövzuda yazdığı şerlər toplanmışdır. Qəhrəmanlıq, vətən, əmək, məhəbbət, təbiət, insanpərvərlik mövzuları Qəşəm Çıraqlının şerlərinin ana xəttini təşkil edir. Onun şerlərində xəbis, ikiüzlü və simasızlara qarşı bir etiraz alovu püskürür. Xalqı aldadanlar, yalançı vədi və sözü ilə milyon-milyon adamlara tor quranlar ifşa olunur. "Dünya həmin dünyadır" şer kitabında Vətənə layiq şəhid-igidlər fəxrlə yad edilir. Vətənin müqəddəsliyi, yurdumuzun təbiəti misralarda yaşayır. Ulu Torpaq - Azərbaycan xalqının hər cür bəlasına sinə gərmiş və dünyanın hər cür əzabına tab gətirmiş İlahi vergili ulus kimi saf, bəxtiyar görkəmini könül-

lərə köçürür. Azərbaycanın təbiəti, laylaların, holavarların ruhu, ulularımızın xeyir-duası misralara hopur. Şair yazır:

Azərbaycan yazılmış,
oxunmamış kitabdır,
Oxusan hər arzuya-kama
yetirəcəkdir.
Azərbaycan dövləti elə
yeni mehrabdır
Özüylə bu dünyaya
işıq gətirəcəkdir.

Qəşəm Çıraqlı şerlərində dünyəvi mövzular əsas yer tutur. Sirli dünyanın "lirik mən"i məhz şair özüdür. Onun narahat və kövrək hissləri gərilmiş misralarla ipə-sapa düzülür. Yaşadıqları və gördükləri bəxtinə düşən pay kimi sətir-sətir yazılır. Min bir möcüzəsi olan dünyanın narahatlağı şer misralarına ləpir-ləpir iz salır. Şair bəzhən fikirlər içində qəhərlənsə də, Dünya adlı bir ünvana belə deyir:

Fərq qoymaz insanın ağına,
qarasına
Fərq qoymaz cavanına,
qocasına, bu dünya,
Ömürləri tələsidər,
çapar atla yollayar,
Özü qayıdar, dünyasına
bu dünya.

"Dünya həmin dünyadır" şer kitabında Qəşəm Çıraqlının alnına yazılanların, bəxtinə düşənlərin və arzusunda olduqlarının bir hissəsi öz əksini tapır. Onun narahat dünyamızın odu, havası, suyu ilə yoğrulan gərilmiş misraları gələcək yaradıcılığına da işıqlı bir yol salacaqdır.

***Buludxan XƏLİLOV,***
*filologiya elmləri doktoru,*
*professor*

***Müşfiq ÇOBANLI,***
*yazıçı, jurnalist*
*"Azad Azərbaycan" qəzeti, 1995*

## SÖZDƏ TANRI HÖKMÜ VARDI

Bu gün də sözdə Tanrı hikməti, Tanrı hökmü arayan Qəşəm Çıraqlının "Yollar sabaha gedir" adlı kitabı 1999-cu ildə "Gənclik" nəşriyyatında çapdan buraxılmışdır.

Qəhrəmanlıq, vətənpərvərlik, insanpərvərlik ruhunda yazılmış müxtəlif səpgili şerlərlə tanış olduqca, şairin ürək yaşantılarını, qəlb çırpıntılarını duyursan. Hiss edirsən ki, Qəşəm Çıraqlı günümüzün ağrılarını, acılarını yaşayır, insanların, bəşəriyyətin gələcəyi üçün dərin narahatçılıq hissləri keçirdir.

*İlahi verib iştaha…*
*Hələ ki, tıxhatıxdayıq*
*"Xoşdur bizə" bu ab-hava*
*Gedirik üzü sabaha…*

Sabaha gedən yollarda Tanrı dərgahına sığınır şair:

*İlahi.*
*Yönüm sənə doğrudu*
*Yolum sənə doğrudu*
*Sənə doğru gəlirəm*

Q.Çıraqlının ən ali duyğularından süzülüb gələn onlarca poetik nümunə ilə oxucularımız da bu kitabda tanış ola biləcəklər.

***Bahar MAŞIYEVA,***
*şair, "Azərbaycan" qəzeti.*

# VAXT SABAHA DOĞRUDUR …

*"Şerdən-şerə ucalıram mən,*
*Kitabdan-kitaba qocalıram mən.*
*Ömrü uzatmağa ulu Tanrıdan*
*Ayları, illəri borc alıram mən".*

Şair Qəşəm Çıraqlının yenicə çapdan çıxan "Yollar sabaha gedir" (Bakı, "Gənclik", 1999) kitabı bu şerlə açılır. Tanış arzular, istəklər səni də özünə ortaq edir.

Bundan doğur yaradıcı adamların yenidən doğulmaq və bu dünyaya bir də gəlmək inamı; son mənzildə də ağ kağız-qələm istəkləri… Dünya boyda həvəs… aləmə, öz qurduğun həyata dəli vurğunluq, məhəbbət… O kəs yalnız şair ola bilər ki, bu dünyada yığdıqlarını xərcləməyə imkan, Allahdan möhnət belə istəmir, fürsət aramır. Bu eyşə-işrətə susayan adamın həyata bir əlverişli fürsət deyə də ləlöyün sevgisi deyil.

O şairdir ki, dünyanı - həyatı sadəcə ona verilən pay-ərməğan kimi minnətdarlıqla sevmək, onun qəhrini çəkmək istəyir.

Qəşəm Çıraqlı əslində başqa peşə sahibidir, mühəndisdir. Amma görünür sənət eşqi bu insanın bütün fəaliyyətini çulğalamışdır.

Belə adamlar sadəcə şair olaraq qalmırlar. Şair-həkim, şair-mühəndis və s.

Bu gün bir günlük
Dəlilik etmək istəyirəm
… Gördüklərimi yazmaq,
Gördüklərimi demək istəyirəm.

Belə… Çıraqlı şair ömrü yaşayır, şair yükünü, qismətini daşıya-daşıya:

*"Evimizi dostlardan gizlədirəm*
*Üzüqaralıqdan qorxuram", - deyir.*

İllər keçəcək, hər birimiz "Mən Qanlı Yanvarın şahidiyəm", - deyib şahidə çevriləcəyik.

Qəşəm müəllim nəinki 20 Yanvar ağrılarını unutmur, onun ağrılarını yaşayır, həm də qanlı tarixin dərslərini də unutmamağa səsləyir:

*Döyüş bayrağı tək əyilək,*
*Şəhidlərə baş əyək!*
*... Şəhid məzarlarına and içək.*

"Xocalıda faciə günü" şerindəki:

*Faciədən doğulan ruhlar*
*Bizi qisas çağırır -*

misraları da həmin çağırış, haray ruhundadır.

Çıraqlı ziyalı şairdir. Türk ziyalısıdır. "İki qanadlı vahid millətik", "Türkün qapısı - qardaş qapısıdır" - dediyinə görə. "Qərblə Şərq arası elə türkük" kimi sadə, amma açıq həqiqət, sakit, amma ildırım gücündə misra çox mükəmməl elmi fikir və mühakimələr qədər dəqiq, həqiqidir.

Bu sadə və aşkar fikir qoy nadanlara - yurdu, milləti zərrəciklərə bölənlərə, eləcə də millətin tarixini, kökünü bilərəkdən müəmma dumanlarına, xaos yarğanlarına təpənlərə dərs olsun.

Qəşəm müəllimin ziyalılığı özünü bir də millətin digər güclü ağrıları olan yerlipərəstlik və rüşvətxorluğa susamaq xəstəliklərinə ikrahlı münasibətlərində tapır.

*Yerlibazlıq dərdimizi artırıb,*
*Tamahgirlər pul-paraya satılıb.*

Bu acı misraların daş ağırlığını dərdli şair sinəsi saxlayır. Şair üçün bu dərdlər erməni məkri qədər qorxuludur.

Ana dilimizin sadəlik və gözəllik keyfiyyətləri şerlərin dilində də hiss olunur.

Şairin dilində yaddaşlara həkk ediləcək qədər dəyərli olan "Toysuz payızlara heyif", "Fürsətin əlinə fürsət düşübdü", "Kirpiklərimlə od götürürəm", "Mənim öz dilimdə deyilsin Arsaq", "Süvari talelər düşdü qabağa" kimi misraların sirrini-sehrini bir kəşf kimi duymaq və tapıntılara sevinmək gərəkdir.

***Minaxanım,***
*Azərbaycan Dövlət Pedaqoji*
*Universitetinin dosenti.*

*"Savalan" qəzeti, 13 yanvar 2000-ci il.*

## QƏŞƏM ÇIRAQLININ FİKİR BURULĞANI

Son illər Azərbaycan ədəbiyyatı və tarixinə şəhidlərimizin rəşadəti, Vətən, torpaq uğrunda həlak olan Milli Qəhrəmanlarımızın göstərdiyi şücaət və müxtəlif səpgili psixoloji əsərlər daxil edilmişdir. Bu mövzuda yazılan kitablardan biri də bu yaxınlarda "Gənclik" nəşriyyatı tərəfindən çapdan çıxmış Qəşəm Çıraqlının "Fikir burulğanı" adlı kitabıdır. Bu, şairin "Dünya həmin dünyadır" kitabından sonra işıq üzü görən ikinci kitabıdır. Kitab "Yuxular rahat olmur", "Özümə qayıdıram", "Səbr elə", "Darıxma gülüm" başlıqlı bölmələrdən ibarətdir. Tarixin bütün dövrlərində şair zamanla üz-üzə dayanır. Şair adını çiyinlərində daşıyan ziyalı dilimizi, dinimizi, adət-ənənələrimizi, soy-kökümüzü dərindən bilməlidir. Qəşəm ÇIraqlı da məhz belə ziyalılardandır. Millət, vətən dərdi ilə yaşayan şair "Torpağında qaçqın olub millətin" devizi altında qəlbinin əzablı səsi ilə vətən oğullarından imdad diləyib torpaqlarımızı yağı düşməndən qorumağa çağırır. Bu torpağın paklığını qoruyan şir ürəkli oğulları zəfər bayrağı ilə geri dönməyə səsləyir. Kitaba daxil edilmiş "Ordu marşı", "İrəli, Azərbaycan Ordusu" - bu qəbildən olan şerlərdəndir.

Vətən ağrı çəkəndə ziyalı sözünə həmişə kəskin ehtiyac duyulur. Şair qələmi gecə-gündüz bilmədən ağ vərəq üzərində naxışlar salır. Səpələnmiş sətirlər zaman axarından keçərək xalqın keçirdiyi günləri nəsildən-nəsilə olduğu kimi çatdırır. Vaxtında yazılmış əsərlər saxta tariximizi saf-çürük etməkdə xalqa kömək edir. Millət öz qəhrəmanını, dost-düşmənini yazılmış bu tarixi əsərlərdə tanıyır, tapır. Şair 20 Yanvar, Xocalı, Şuşa, metro faciələrində dəhşətli şəkildə şəhid olan vətən övladlarının ağrılı günlərindən, acı talelərindən yazır. Torpağı ələ verməyəcəyinə söz verənlər, içdiyi anda xilaf çıxıb qaçanlar şairin nəzərindən yayınmamışdır. Xalqın ümidi sönə bilər. Lakin şair ümidsizliyə qapılmamalı, milləti, xalqı arxasınca apara bilmək qüdrətinə malik olmalıdır. Qəşəm

Çıraqlının şerlərində nikbin ruhlu çağırış hakimdir. O eyni zamanda respublikamızda baş verən ictimai-siyasi prosesləri ətraflı saf-çürük etmək qabiliyyətinə malik bir sənətkardır. Lissabon sammitində prezidentin uğurlu addımlarını alqışlayan şair həqiqəti unudub Heydər Əliyevə qarşı iftiralar söyləyənləri ən azı insafsız adlandırır. Gecə-gündüz xalq üçün can yandıran prezidentimizin gördüyü işləri yüksək qiymətləndirir. Şair əmindir ki, qara qüvvələr nə qədər təşəbbüs göstərsələr də, aydın səma üzərinə kölgə sala bilməyəcəklər.

Həqiqət ləkə götürməz,
Düşən işıq geri dönməz.
Üfürməklə günəş sönməz,
Həqiqəti unudanlar!

Qəşəm Çıraqlı yaradıcılığı mövzu baxımından geniş və rəngarəngdir.O təkcə ictimai-siyasi hadisələrə deyil, eyni zamanda insani hissləri, bəşəri duyğuları əks etdirən humanizm poeziyasına da geniş meydan verir. İnsanı yaşadan, ona ruh verən məhəbbət anlayışını dar çərçivədə deyil, geniş mənada - insanın Allaha, Vətənə, Topağa, Anaya olan məhəbbətini təcəssüm etdirir. Vəsf olunan saf, təmiz məhəbbətin əsasında isə gözəllik durur.

***Zümrüd BAYRAMOVA,***
*Jurnalist, "Səs" qəzetində şöbə müdiri.*

# DÜNYA HƏMİN DÜNYADI

## ŞƏHİDLƏR - VƏTƏN PAYIDIR

Vətən, Şəhidlər sənin yolunda,
Əl-ələ tutub vahid oldular.
Yarpaq, yarpaq töküldülər qədəmlərinə,
Şəhid oldular.
Şəhidlər dirək-dirək sancıldı
torpağına,
Nizə, qalxan oldular.
Yaraq oldular.
İgidlər - şəhid igidlər
Sənə layiq oldular
Qəddini dikəlt Vətən
Fəxrlə bax igidlərinə,
Qələbə sənindir, ancaq.
Yarpaq-yarpaq
Qədəmlərinə tökülmüş şəhidlər
Yamyaşıl dirəklərində
Təzə-tər yarpaq olacaq…
Şəhidlər Vətənin eşqi, amalı,
Şəhidlər Vətənin oğul payı, qız payı.
Artır, artır Vətənin müqəddəsliyi
Artdıqca igidlərin şəhidlik sayı.

## HEYKƏL - VƏTƏN

Kəndimizin igidləri,
Şəhid olsa döyüşlərdə,
Lazımdımı heykəllər
Lazımdımı başdaşı?!

Kəndimizin igidləri,
Şəhid olsa döyüşlərdə,
Lazımdımı gül-çiçək
Lazımdımı göz yaşı?!
Dağlarımız mərmər heykəl
Başdaşıdır igidlərə.
Yağışları, leysanları
Göz yaşıdır igidlərə.

Bəzəyəndə çöl-çəməni
Yurdumuzun çiçəkləri
Tər-təzəsi, göyçəkləri
Gözəl Vətən çələngdir,
Əklildir igidlərə,
Vətən elə Vətən boyda
Bir heykəldir igidlərə.

## SUMQAYITLILARA

Papaq altda igid yatır,
Yarpaq altı tumurcuq tək.
Papaq altda igid yatır,
İldırımla yüklənərək.

Papaq altda yatanların
Qəzəbi də yuxuludur.
Vətəninə toxunmayın,
İldırımdan qorxuludur.

Papaq altda yatanların
Qəzəbinə od atdılar.
Sükuta dalmış dağların
Vulkanını oyatdılar.

Sakit, körpə balalarda,
Qəzəb deylən şey yoxudu.
Vətən qalırdı darda,
Vətən də fərman oxudu.

Sakit, körpə bu igidlər,
Sakitliyin birdən boğdu.
Bəlkə Vətən istəyiydi,
Bəlkə Vətən özü doğdu,

Papaq altda yatan igid,
Bircə çağrışdan ayıldı.
Günəşi bayraq elədi,
Odu hər yana yayıldı.

Papaq altda yatan igid,
Bir od oldu, oda düşdü.

Düymə-düymə boy atırdı
Qəflət bir tufana düşdü.

Gurşad oldu, tez ötüşdü.
Papaq altda igid yatır,
Yarpaq altı tumurcuq tək.
Papaq altda igid yatır,
İldırımla yüklənərək.

**ŞUŞA**

Bu yerlərin dağı, daşı,
Musiqidən yaranmışdır.
Nəğmələrlə xumarlanıb,
Mahnılarla oyanmışdır.

Meşələri yaşıl yarpaq,
Körpələri şirin-şıltaq.
Qayaları papaq-paqaq
Zirvələrdə dayanmışdır.

Laylalıdır, holaylıdır,
Yamacları dolaylıdır,
Qayaları qalaylıdır
Gül-çiçəklə boyanmışdır.

Gözəlliyin gözü bura,
Şairlərin sözü bura,
Gələn gəlir məclis qura
Gedən kefsiz dayanmışdır.

## QƏDƏRİNDƏDİR

Yer qədərindədir, Göy qədərində,
Kainat saxlayır müvazinətin.
Qədəri, qədərdən çıxardan insan
Onu qüdrətinə qaytarar çətin.

Kainat xəlq olub öz qədərində,
Onu qədərində xəlq edib Allah,
Qış gecəsi də, yaz səhəri də
Böyük möcüzədir, möcüzə vallah

Bir uşaq doğulur, bir bürc altında -
Tanrı taleyini o gündən yazır.
Bu uşaq böyüyür, uşaq boy atır,
Tale yazısı da alnında hazır.

Bəlkə elə budur alın yazısı -
İnsan bu yazıya doğru yol gəlir.
Qırır addım-addım bütün sədləri
İnsan pillə-pillə qalxır, yüksəlir.

Olsun dərd qədərində, qəm qədərində
İlahi xoşbəxtlik  qədərsiz olsun!
Ölçüsüz-biçimsiz olsun sevinclər,
Ömürlər xətərsiz, kədərsiz olsun!

Sevinc qədərində, qəm qədərində!
İlahi, səadət qədərsiz olsun.
Kədərə bərabər vermə sevinci,
Vermisən bir ömür, -  kədərsiz olsun.

İlahi, demirəm yolun düzün ver.
Qoyma şər qüvvələr meydan oxuya.
Hər şeyi insafla, qədərində ver,

Qoyma bu dünyamız zəhər qoxuya.

Ölüm qədərsizdir, dərd qədərsizdir,
Doğum qədərinə çatmayır ancaq.
Tutulur fitvaya İslam dünyası,
Dünya, belə getsə, tamam yanacaq.

## GEC DEYİL HƏLƏ

De hansı mənsəbə, əqidəyə sən
Vicdanla, namusla, qulluq edirsən?!
Bir vətəndaş kimi, bir övlad kimi,
Vətənin borcunu ödəyirmisən?

Vəzifən, şöhrətin böyükdür yetər
Cibin - əqidənin ölçü vahidi,
Bir əlin alandır, biri ötürən
Haçansa utanmaq ölçün var idi.

Başın çox qarışıb kefə-damağa,
Kef-damaq əlbəttə səninçün xoşdur
Özünü tutmusan bala-qaymağa
Özün tək fikrin də elə sərxoşdur.

Bu günün, sabahın keşiyində dur,
Yaddaşlarda heykəl olub qalasan.
Bədxahı həyatın özü unudur,
Qorx ki, bədxah kimi damğalanasan.

Ayılmaq vaxtıdır, gec deyil hələ,
Vətən əllərindən zərər çəkməsin
Beşikkəsməsənmi vəzifə ilə?
Çıx ki, el qəlbinə qanqal əkməsin.

***1985.***

## ULU TORPAQ

Ana torpaq, ulu torpaq
Həm insanın Allahı,
Həm insanın qulu torpaq.
Sənsən anaların anası da,
Sənsən ataların atası da,
Sənsən dünyanın dünyası da,
Dahisi də, dühası da,
Əcdadı da, ulusu da:
Bu dünyası, "o dünyası" da…

Ana torpaq, ulu torpaq,
Ey insanın Allahı,
Ey insanın qulu torpaq!
İnsan - sənin nadinc balan,
Ən şıltaq və ən dinc balan.
Söküb daş-qaya dişlərini,
İmarətlər tikən də o,
Hamarlayıb, tumarlayıb,
Ürəyini çəkən də o,
Üz-gözünü şırımlayıb,
Əkən də o, biçən də o,
Atom yüklü fəlakətlə
Daxilini sökən də o.
Həm insanın Allahı,
Həm insanın qulu torpaq!
Dözürsən bəşərin hər bəlasına,
Dözürsən insanın çox ədasına,
Təhqir eşitmisən çox vaxt səsində,
Lakin son nəfəsində
Yol vermisən ürəyinin başında,
Dinclik tapır torpağında, daşında.
Qalır ulu yaddaşında?

## TÜRK ELİM, TÜRK ADIM

Ey üzü nurlu kişi, üzü işıqlı qadın,
Ömrünüz uzun olsun, dünya ömrü tək uzun.
Oddan, nurdan yaranıb türk soyadın, türk adın.
Kökü işığa, nura bağlıdır yurdumuzun.

İşıqlara tapınıb tarix boyu el, obam,
Mayamız da od-alov üstdə tutulub bəlkə.
Od əkib, alov biçib bu torpaqda türk babam,
"Azərbaycan" adlanan bu yurd, türk dilli ölkə.

Ey üzü nurlu kişi, üzü işıqlı qadın,
Çöhrənizdə ilahi varlıq, saflıq duyuram.
İndi ürəkdən deyək, "Azərbaycan, gün aydın".
"Azərbaycan" deyəndə bəxtiyarlıq duyuram.

Azərbaycan yazılmış, oxunmamış kitabdır,
Oxusan hər arzuya-kama yetirəcəkdir.
Azərbaycan dövləti elə yeni mehrabdır.
Özüylə bu dünyaya işıq gətirəcəkdir.

***1993.***

## EL TÖHFƏSİ

Məhəbbət gəzməklə keçməyir ələ,
Nə də külək deyil qapıdan girə.
İstəklə də dönməz aya, günəşə,
Şəfəqi sənin də üstünə düşə.
Elə işləməli, yaşamalıyıq,
Onu eldən töhfə biz almalıyıq.

## BAHAR

Bahar, ay bahar!
Gurultulu gülüşünə
Qarışmaq istərəm.
Od alıb şimşəklərindən,
Alışmaq istərəm.
Nikbin, leysan bir yağış
Bu gün necə də könlümə düşüb!
Könlünü könlümə köçürmək üçün,
Könlümü dilə gitirmək üçün
Elə bu gecə,
Elə bu gün
Tapıb ünvanıma göndərin barı.
Mənim ruhuma, duyğularıma
Bir ağ leysan yağışı
Əndərin barı.
Qoy ruhum, duyğularım
Bir nikbin,
Bahar yağışında
Təmizlənsin, təzələnsin.
Nura dönsün.
Səpələnsin
Günəşli yağışlarla
Dünyanın gündüzünə
Bir də cücərmək üçün,
Bir də göyərmək üçün
Hopum ulu torpağa
Bir ulu uşaqda
Ulu bir təbəssüm olub,
Ulu bir baxış olub,
Qayıdım dünyanın dincliyinə

□

## SIRASINDAN KEÇİRƏM

Ömrümü yedəkləyib,
İmkanı kötəkləyib,
Bir-birini hey döyən.
Kəllə-kəlləyə dəyən,
Ağ qoçla, qara qoçun
Arasından keçirəm!

Nəğmə-nəğmə sellənən,
Nəğmələrlə dillənən,
Gözlərimə zillənən,
Gah ağlayan, gah gülən
Neçə-neçə gözlərin
Qarasından keçirəm!

- Can üyüdən daşların,
Odsuz yanan yaşların,
Çatma-çatıq  qaşların,
Tənəli baxışların, -
Odların, yağışların
Davasından keçirəm!

Həyat çırpır yun kimi,
Üyünürəm un kimi,
Əriyrəm mum kimi -
Uduram, uduzuram.
Ömür-sıravi əsgər -
Sırasından keçirəm!

## KÜRSÜ DAVASI

Gedir gecə-gündüz kürsü davası,
Artır "xalq" adından alver edənlər.
Xəlvətdə Vətəni güdaza verib
Aşkarda Vətənə "qurban" gedənlər.

Ən vacib işlərə yönəlsə diqqət,
Hər insan arzusu həqiqət olar.
Yox olar insanın dərdi, kədəri,
Vətən başdan-başa bir cənnət olar,

Kənarda dayanıb sərəncam vermək
Böyüyə, kiçiyə bir adət olub.
O qədər çoxalıb "xırda" alverlər.
Alverdə aldatmaq "səadət" olub.

Vəd verən, söz verən həddini aşıb,
Ali parlamentə seçki qabağı.
Deputat mandatı alınan kimi
Vədlər qovluqda - üstündə bağı.

Gedir gecə-gündüz kürsü davası.
Artır, "xalq" adından alver edənlər
Xəlvətdə Vətəni güdaza verib
Aşkarda Vətənə "qurban" gedənlər.

## UŞAQ QAÇIRDI

Oynaya-oynaya qaçırdı uşaq,
Qaçırdı həvəsinin dalınca.
Oynaya-oynaya qaçırdı uşaq,
Qaçırdı nənəsinin dalınca.
Oynaya-oynaya qaçırdı uşaq,
Qaçırdı həvəsinin dalınca
Həvəsi dünyaydı uşağın,
Qaçırdı uşaq, qaçırdı
Uşaq dünyasının dalıncan.
Oynaya-oynaya qaçacaq uşaq.
Uşaq dünyasından qopana kimi,
Qaçacaq, qaçacaq
Gənclik dünyasına hopana kimi.

## ARZU

Çəmənində bülbül olam,
Qonam güldən-gülə, dağlar
Öpəm şehli qönçələri,
Uçam ildən-ilə, dağlar.

Qayaların düzüm-düzüm,
Dırmaşaram dizin-dizin.
Zirvələrə düşə izim,
Gəzəm dildən-dilə, dağlar.

Vüqarından payım ola,
Yaşın ilim-ayım ola.
Saflığından çayım ola -
İçəm gilə-gilə, dağlar.

## BAHAR LÖVHƏLƏRİ

Torpağa baharın nəfəsi dəycək,
Daşları çiynində qaldırdı çiçək.
Topraq, bəslədiyi  göbələklərin,
Sürüşdü çiynindən bir yapıncı tək.

Puçurlar çadranı atdı istidən,
Tumlar da sıyrılıb çıxdı zirehdən,
Həyat - suallarla əyildi yerə,
Həyat - nidalarla yüksəldi yerdən!

Günəş məst elədi çölü, çəməni,
Çöllərə həsədlə baxdı səməni.
Çiçəkdən-çiçəyə qonan arılar,
Çiçəkdən-çiçəyə uçurdu məni.

Ağ sellər yol salıb, dağdan daşlandı,
Güllər fənərlənib, bağlarda yandı.
Büsatı baharın elə başlandı,
Çəmənlər bəzəndi, yer xınalandı.

## İSTƏK

Açılır pəncərə baxışlarından,
İstəyim quş olub uçar yanına!
Qəlbim sıyrılaraq ixtiyarımdan.
Körpə uşaq kimi qaçar yanına.

Yoluna zillənər sətir kirpiklər,
Uçar pilləkəndə nəzər-diqqətim.
Nəfəsim yel olub səni yelpiklər.
Üzündə-gözündə gəzər diqqətim.

Arzuna, arzuma gülüş qataram.
İncə duyğuları yetirrəm sənə.
Həkim nüsxəsini cırıb ataram,
Sevgimi nüsxətək gətirrəm sənə.

Qəlbimdə arzular qatar-qatardır,
Sevincim səpilər qədəmlərinə.
Könlümdə cücərən istəklər vardır.
Bitər ikimizin alın tərinə.

A güllər, çiçəklər  keçin yolumdan,
Öz gülüm açılıb, ətirlənibdir.
Elə məhəbbətlə tutub qolumdan,
Eşqi ürəyimdə çətirlənibdir.

Mən onun önündə sevgi məşəli, -
Yolunda, izində şəfəqlənərəm.
Gündüzüm nəşəli, gecəm nəşəli,
Nəşəli günləri ona verərəm.

## KÜT GEDƏN GÜNLƏRİM
***1941-1945-ci illər***

Getdi,
        küt getdi
Şirin yuxulu,
Ağzu süd qoxulu,
        gündüz qayğılı,
        gecə qorxulu
Oyuncaqsız, oyunsuz
Körpə günlərim:
Yaralandı, parçalandı
Top səsindən.
Keçdi tanklar.
Sinəsindən…
Qana bulandı getdi,
Odlarda yandı getdi
Vaxtsız, adsız
Körpə günlərim!
Getdi,
        küt getdi
Anamın təndirdə
İtirdiyi kündələr tək,
41-dən 45-dək
Tüstülərdə,
barıt qoxusundan
boğulan günlərim,
41-də doğulan günlərim!
Keçib illəri çaparaq,
Gəzsəm onu soraq-soraq,
Gördüm, bildim deyən olmaz,
Boyun sevdim deyən olmaz…

Yerli-dibli tapılmaz
Küt gedən günlərim

Düşüb itən günlərim.
Qaldı tək-tək günlərim
Küt getməmiş,
Qaldı tək-tək günlərim.
İtməmiş:
        qaldı. O da
        ayaq-yalın,
baş-açıq
Əli-ayağı palçıq,
Yarıçılpaq, yarıac
        çörəyə möhtac,
        xörəyə möhtac…
Oyuncağı -
naxırlar, kotanlar, vəllər olan,
Bağçası -
Xırmanlar, zəmilər, çöllər olan,
Qızdırmaya, qızılcaya qalib gələn,
        Dəmir əsəbli,
        Tufan qəzəbli
        Hərbsiz
        Hədəsiz
Günlərim qaldı.
İtməmiş.
Bir də, bir də
Daha davamlı,
Məğrur, inamlı
Zəfər nəğməli,
Qələbə səsli
Şer həvəsli
günlərim qaldı
küt getməmiş.

## HƏDƏLƏDİ

Сюзлц бцлбцл,
Эялди диля.
Кцляк дяйди.
Ипяк теля.
Гызлар эетди,
Эцля-эцля: -
Эцлцш мяни,
Щядяляди!
Хумрланыб,
Ахды булаг,
Соналара
Чатды сораг.
Цряйимдя
Ъошду мараг, -
Эюрцш мяни
Щядяляди!

Йарашамайыр
Бащара гям.
Чичякляря сяпиляр нам.
Щирсли дюндц,
Евя щямдям,
Дюнцш мяни
Щядяляди!

## PAYIM VAR

Dünya, səndə payım var; -
Hava payı, günəş payı, su payı.
Dünya, səndə payım var; -
Həyat payı, sevgi payı, nur payı,
Dünya, səndə payım var; -
Bahar payı, payız payı, qış payı
Dünya səndə payım var; -
Arzu payı, ümid payı, iş payı…
Ayları, illəri ötüb bu sayaq,
Sənə ömür borcluyam dünya
Vətənə,
Vətənə bir ovuc torpaq.

## ANA LAYLASI

Əsmə külək, dayan dur,
Qanadını asta vur,
Axı indi uyuyur,
Yatağında dəcəlim,
Otağında dəcəlim.

Əsmə külək, dayan dur,
Qanadını asta vur,
Dinlə, layla oxuyur,
Yatağında Xəzərim,
Otağında Xəzərim.
Mənim balam uyuyur.
Mənim körpəm uyuyur.

## OĞLUMA

Bax, yan-yörənə.
Dönə-dönə, öyrənə-öyrənə.
Bax, gör, dərk et
Haqqı-haqq kimi.
Dərk etmə, görmə,
Haqqı-nahaq kimi.
Keçir hər şeyi baxışlarından,
Qızılda, Günəşdə ləkələr gəzmə.
Seç ləkəsizi - ləkəlidən,
Seç ağıllını - dəlidən,
De, danış gördüklərini,
Gördüyün kimi.
Ağızdan-ağıza,
Ağızdan-qulağa,
Dildən-dodağa deyilənlər,
Deyilə-deyilə gələnlər,
Neçə dona girərsə,
Neçə köynək yırtaraq,
Məğlub olmuş ordu kimi,
Qədim insan yurdu kimi
Gəlib sənə çatarsa,
İnanma, oğlum!
İnanma!

## VƏTƏN

Vətən, məni də dinlə, -
Mən də "Vətəndaşı"yam.
Yollarında daşam, Vətən.
Qollarında yaşayan
Qüvvəyə, inama yoldaşam.

Əlim - qüdrətli əlində,
Elin qüvvəsi - əlində, səndə.
Dağlarını qocaldan,
Arzularını ucaldan
Torpağında, suyunda
Gələcəyə yolam, Vətən.

Sənin üçün bir əbədi
Səadətə
        yolam, Vətən.
Yolam, fəqət,
Qoymaram ki, sənə gələn
Qada mənədən gəlib keçə.
Keçsə, keçsə, son anımda
Ürəyimi dəlib keçər.

## ÇOBAN

Səhərin şehində yuyular üzü,
Səhərin mehindən nurlanar gözü
Yerişi bəzəyər yamacı, düzü,
Haylayar sürünü otlağa çoban.

Qəlbində səslənər qaynar bulaqlar,
Aran sovqatını bağlayar bağlar.
Baharda yolunu gözləyər dağlar -
"Görən gecikmir ki, yaylağa çoban".

Gədiklər - önündə düzən yeri tək,
Zirvələr önündə sallayar ətək.
Qayadan sərt olar, çiçəkdən kövrək,
Qaynayar çay kimi çağlayar çoban.

Yönəl uca dağda yüksəlişinə,
Bircə gün mehman ol, dağlar eşqinə!
Ürəyi açılıb dost gəlişinə,
Qonağı tutacaq qaymağa çoban.

## GAH NUR OLUR, GAH DA SU

Getdim neçə zavoda,
Gördüm, Kür dönüb oda,
Motorlara səs verir.
İşçiyə həvəs verir.
Gah nur olur, gah da su
Gah da insan arzusu!

Ayaq basdım hər düzə
Kürlə gəldim üz-üzə.
Axır Muğana, Milə,
Axır hər susuz çölə,
Gah nur olur, gah da su,
Gah da insan arzusu!

Kürün gücü, sürəti,
Verir yerə zinəti.
Gah nur olur, gah da su
Gah da insan arzusu!

## XƏZƏR

Necə də şıltaqsan, oynaqsan Xəzər;
Təzəcə dil açmış körpələr kimi.
Gündüz günəş gəzər, gecə ay gəzər,
Ayna sinən üstə ləpələr kimi.
Neçə qəbilələr, neçə nəsillər.
Qumlu sahilini dolandı getdi.
İnsanın ömrünü  azaldan illər
Səninsə ömrünə calandı getdi.
Abşeron torpağı zərli bir yaylıq,
Nurlanır sübhəcən boynunda sənin.
O, Neft daşları  da almaz yaxalıq,
Parlayır hər gecə qoynunda sənin.

## POLAD GƏMİM SİNƏNDƏDİR

Gör, nə hirsli oyanmışdır bu gün dəniz,
Nərə çəkib, hücum edir gür dalğalar.
Səsləndikcə çatır mənə ünün, dəniz, -
Göy Xəzərin yoxsa mənə sözümü var,
Nərə çəkib, hücum edir gur dalğalar.

Mən də bu dəm göyərtədə dayanaraq,
Göz qoyuram qalxıb-enən dalğalara.
Dalğa böyük, dalğa lay-lay, ləpələr ağ,
Hər tərəfdən hücum çəkir, vermir ara.
Göz qoyuram qalxıb-enən dağlara.

Xəyalımdan çıxmamışdır onun adı,
Hər dərdinə, əzabına dözdü babam.
Sinən üstdən yollar saldı heç qorxmadı.
Çürük ağac qayıqlarda üzdü babam,
Hər dərdinə, əzabına dözdü babam.

Qayıqlarda üzmürəm mən babam kimi,
Od nəfəsli polad gəmim sinəndədir.
Fırtınada mənim elim, obam kimi
Bilmirəm ki, təlaş nədir, qorxu nədir?
Od nəfəsli polad gəmim sinəndədir.

Gör nə hirsli oyanmışdır bu gün dəniz,
Nərə çəkib, hücum edir gür dalğalar.
Səsləndikcə çatır mənə ünün dəniz -
Göy Xəzərin yoxsa mənə sözümü var,
Nərə çəkib hücum edir kür dalğalar.

## BƏNZƏYİŞİN VAR

Sən necə füsünkar dənizsən, Xəzər
Qoynunda dan yeri sökülür yenə.
Elə ağarır ki, uzaq üfüqlər
Göy də maviləşib  bənzəyir sənə.

Yığıb karvanını çəkilir gecə
Sən də qaranlıqdan uzaqlaşırsan.
Həsrətlilər kimi yenə gizlicə,
Üfüqdə, göy ilə qucaqlaşırsan.

Dilində nəğməsi coşar, rəqs edər
Gümüşü örpəkli mavi dalğalar,
Sən yaşlı olsan da, bu dünya qədər
Körpə uşaqlara bənzəyişin var.

## SƏNİN DASTANIN

Dəniz kimi bir dalğalan, ey könül,
Yaşa dolmuş  bir şəhərdən danışaq.
Min möcüzə məskənidir bizim yer, -
Əməllərdən düşən yerdən danışaq.

Neft daşları şöhrətli bir qaladır,
Dalğalar da eyvanını qucur, hey,
Xəzər sanki uçan mavi xalıdır,
Neft daşları qanadında uçur hey.

Ləpələri çiçək kimi sahilə
Dəstə-dəstə səpir şıltaq dalğalar.
İnci kimi yer üzünə səpilən
Xəzərimdən yüz-yüz dastan yazılar.

## SƏRİN SU, ŞİRİN SU, NEMƏT SU

Sərinlik paylayıb tarlaya, düzə,
Döndün şəhərlərdə nur çələnginə,
Quru səhralarla gəldin üz-üzə,
Gül-çiçək səpildi qədəmlərindən,
Sərin su, şirin su, nemət susan sən,
Torpağın arzusu, duyğususan sən!

O ipək görkəmin, qaya sərtliyin
Dönür möcüzəyə saf varlıığında.
Quzudan sakitsən, şimşəkdən yeyin,
Ana laylasısan bağça-bağın da.
Sərin su, şirin su, nemət susan sən
Ellərin arzusu, ruzususan sən!

Cilovun xalqımın qadir əlində…
Şıltaq dalğaların indi uyuyur:
Buğda, nar dənində, pambıq telində.
Paksan, paklığını Vətən qoruyur,
Sərin su, şirin su, nemət susan sən
Həyatsan, həyatın arzususan sən!

# ZAMANI YEDƏKDƏN AÇMAQ İSTƏYİRƏM

Səhərin açılan
ala gözlərində
boş keçən,
sərxoş keçən,
naxoş keçən
Saatları, günləri
Saxlamaq istəyirəm!
Onları,
həyatdan, ömürdən, gündən
tamam-kamal
Qoparıb atmaq istəyirəm!
Qonmuşam baxışlarımla
Saatın əqrəblərinə,
Hərlənirəm, fırlanıram
Karusel yerinə…
Göy də mənimlə fırlanır.
Yer də mənimlə fırlanır.
Mən bir karuseldə oturmuşam.
Mən, Yer karuseldə oturmuşam.
Keçmişəm zamanı belə
Qüdrətimlə, sürətimlə.
Dəqiqələr - dəqiqəlik edə bilmir.
Bütün zaman, vaxt ölçüləri
Sürətimdə lövbər salıb
Bütün zaman, vaxt ölçüləri,
Məndən çox-çox geridə qalıb!
Mənə, yeni "an" ölçüsü verin,
Mənə, yeni "zaman" ölçüsü verin,
Zamanı yedəkdən açmaq istəyirəm!

## GECİKMİŞ SƏADƏT

*(portretlərdən)*

Aya qırışlar düşüb,
Şüa gecədən keçir
Qarşılaşan baxışlar
Qarada-ağ nur seçir.

Bahar qalıb arxada,
Yayın sonu görünür.
Ürək son baharının
Həsrətinə bürünür.

Ömür-gözdə, qulaqda,
Günəş qurubda yanır.
Səadət asta-asta
Üfüqlərdən boylanır.

## QAYTARIN GERİ

Uşaqlıq heyrətim hardadır görən?!
Bir günlük, bir anlıq qaytarın geri -
Dünya bəkarətə bürünmüş ola,
Körpə duyğularım göyərmiş ola,
Ömürdə, qayğıda bir dönüş ola.
Verəm uşaqlıqla o gün qol-qola.

Uşaqlıq cürətim hardadır görən?!
Bir günlük, bir anlıq qaytarın geri -
Boğum əllərimlə gürzələri mən,
Qovum ilim-ilim kələzləri mən.

Qırım tilsimləri bulaq gözündə,
Qalmasın iftira bu yer üzündə.
Fitnə yuvaları  vurub uçurum,
Xətasız, bəlasız bir dünya qurum!
Uşaqlıq heyrətim hardadır mənim!
Bir günlük, bir anlıq qaytarın geri -
Adi bir çiçəkdən od ala baxış,
Dalğalar qoynunda  başlana yarış.
Arzular yəhərli köhlənə dönə,
Bir uşaq qəlbinin ilk yaddaşında
Batmayan, itməyən yelkənə dönə.

Uşaqlıq cürətim hardadır görən?!
Bir günlük, bir anlıq qaytarın geri -
Dəryalar gözümdə damcıya dönə.
Çayların qumları inciyə dönə.
Söyüdlər bir zərif qönçəyə dönə,
Gözlərim böyüyə, sevincim dinə.
Uşaqlıq heyrətim  bir geri dönə!
Uşaqlıq cürətim bir geri dönə!

## TEXNİKA VƏ ZAMAN

Tövlələr yerini verib qaraja,
Maşınlar kişnəyir kəhər yerinə.
Benzin, neft  qoxuyur ev, həyət, baca,
Texnika insanı salıb əlinə.

Yollar həsrət qalıb at dırnağına,
Yollar keçəlləşib təkər izindən.
Evlər qoç kəsməyir öz qonağına,
Evlər də düşübdür qonaq gözündən.

Təbiət dəyişib təbiətini,
Qulaqlar həsrətdir quş nəğməsinə.
Dağlar, meşələr də yetimləşibdir,
Oyanmır zirvələr təkə səsinə.

Kəndçilər yurd salır təkərlər üstdə,
Kəndlər mal-qaradan uzaqlaşıbdır.
Kəndlər köklənibdir şəhərlər üstdə,
Şəhərlər kəndlərlə qucaqlaşıbdır.

Örüşün gözünə dəymir sığırlar,
Sığırçı tapılmır otlaq yerində,
Uzanmır örüşə qıvrım cığırlar,
Cığırlar örüşdən dönməyir kəndə.

Hava da, torpaq da dərman dadında,
Təbiət sərvətdən kasadlaşıbdır,
Məhsullar daşınıb quş qanadında,
İmkandan uzaqda bazarlaşıbdır.

## ÖMÜR

Ömür dediyin
Axar sudu, yanar işıqdı -
Gecədən, gündüzdən keçər,
Dərədən, düzdən keçər,
Dönər qövsü-qüzehə,
Göyün üzündən keçər,
Dünyanın özündən keçər.
Ömür dediyin
İlahi nurdu, qəfil işıqdı -
Ana qucağından keçər,
Ömür,
Ömür olana qədər
Bermud bucağından keçər,
Nuhun dağından keçər,
Keçər bütün keçidlərdən,
Ancaq,
Vətən torpağından
Keçə bilməz!

* * *

## İRAQ-İRAN SƏRHƏDİNDƏ MÜNAQİŞƏ GEDİŞİNDƏN MƏLUMAT VERƏN HƏR İKİ TƏRƏFİN NÜMAYƏNDƏSİ, MÜNAQİŞƏ QURBANLARININ SAYI HAQQINDA ŞƏRƏFLİ BİR İŞ KİMİ MƏLUMAT VERİRLƏR

İki ölkə bir sərhəddə yar idi;
Hər ürəkdə yeni sərhəd yarandı.
Fitnə-fəsad ayaq açdı, yeridi;
Qonşu əllə qonşu evi talandı.
Qan qoxuyur efirlərdə məlumat,
Hər tərəfdən əsgər gedir - qurbanlıq
"Qan-qan" deyir əllərdəki avtomat,
Ölümlərə tuşlanıbdır cavanlıq.

Başdaşları raketlər tək çoxalır,
Qəbristanlıq ayaq açıb yeriyir.
Kim qazanır, kim gömülür, kim qalır!
Burda torpaq kəfən təki geyilir.

İraq-İran -
Birdi dini-imanı;
Namazları eyni vaxtda qılınır.
Hər ikisi qana büküb Quranı,
Eyni vaxtda hər ikisi qırılır…

## A VƏTƏN QIZI

Yadımdan çıxmayıb sünbüllü saçlar,
Mənalı bir beytin qoşa sətri tək.
Qoxlaram gülləri gələndə bahar
İpək saçlarının gözəl ətri tək!
Misramın, cümləmin sonluq nöqtəsi,
Sənin xallarına bənzəyən zaman,
Gəlir paltarının xışıltı səsi
Şer dəftərinin varaqlarından.

Sənin pıçıltını hər gün söyləyir,
Sahil küləkləri uğultusunda.
Sənin qəhqəhəni təkrar eyləyir,
Bahar yağışları gurultusunda!

Buludlu göylərdə  çaxanda şimşək.
Sanıram göz vurdun tül arxasından.
Qoynuna yol tapar, bir gün külək tək
Əlim, köynəyinin tor yaxasından.

Odlu gözlərinin hərarətindən,
Əriyər sərt qışın qarı, ayazı.
Eşqinlə tayqada isinirəm mən,
Təki mənimlə ol, a Vətən qızı!

## ÜRƏK

Söz dedilər
Ağır söz
Nizələndi.
Sözü-sözə gəldi,
Gözü-gözə gəldi,
Özü, öz sözünü
Demək istədi,
Deyə bilmədi:
Uddu,
Boğula-boğula uddu.
Qarnı şişdi, böyüdü
Hamilə qarnı kimi,
Doğa bilmədi.
Doldu - daşa bilmədi.
Qızdı -  coşa bilmədi.
Gərildi əsəbləri.
Saraldı yarpaq kimi, -
Düşə bilmədi.
Qaraldı bulud kimi, -
Yağa bilmədi.
Külək əsdi, -
İçindən keçdi.
Şimşək çaxdı, -
İçindən keçdi.
Qana döndü,
Axdı, axdı, -
Heç kəs görmədi.
Tufana düşdü, döyüldü, -
Heç kəs görmədi.
Tələyə düşdü, soyuldu,

Heç kəs görmədi.
Dözmədi - qəzəbləndi.
Gündə bir az endi qəzəbinə
Özü susur -
Bəlkə bir gün
        Qəzəbi dinə…

## İKİ ANA GECİKİR

İki qız - iki buket,
İki qız - iki həyat,
İki qız - iki busat…
İki ana - iki keşik;
İki çağa -  iki beşik,
İki sevgi, məhəbbət,
İki sevinc, səadət -
İki gözəl - ər havalı,
İki gözəl - yar davalı …
Ay subaylar, gəlin yaxın;
Baxın-baxın,
Sizə görə utanıram,
Baxıb-baxıb usanıram:
İki sona gecikibdir,
İki ana gecikibdir -
İki körpə həvəsinə,
İki körpə nəfəsinə.
İki körpə gülüşünə.
İki körpə nəğməsinə…

## O, BELƏ QIZDIR

Boydan bir az kiçikdir o,
İşdə-gücdə çevikdir o.
Qəlbi təmiz, məhəbbətli
Nəzakətli, sədaqətli
Sadə, zərif, incə qızdır.

Şirin-şirin söhbəti var,
İşdə böyük hörməti var,
Gözəl zövqü, diqqəti var,
Təki ola, o bəxtiyar
Sadə, zərif, incə qızdır.

Təmizlikdə tayı yoxdur,
Səliqəsi daha çoxdur.
Hünərinin sayı yoxdur,
Könlü toxdur, gözü toxdur.
Sadə, zərif, incə qızdır.

Böyük arzu diləklidir,
Ləziz dadlı xörəklidir.
Özü Həcər ürəklidir.
Hətta, Nəbi biləklidir.
Sadə, zərif, incə qızdır.

Hirsli-hirsli baxar bəzən,
Məni oda yaxar bəzən,
Şimşək kimi çaxar bəzən,
Leysan olub yağar bəzən,
Sadə, zərif, incə qızdır.

Özü kiçik, qəlbi böyük

Olmayıbdır heç kəsə yük.
Bilməz nədir ərköyünlük,
Fərhad kimi çalır külüng -
Sadə, zərif, incə qızdır.

## GÜNƏŞƏ BƏNZƏYƏK

Deyirəm hər insan bir kainatdır.
Hər insan ürəyi yanan bir günəş.
Kainat özü də elə həyatdır,
Onun da ürəyi  günəşdir, günəş.

Günəşi qəlblərə köçürək bu gün,
Alışsın o ürək, ürəyimizdə,
Hamını bir gözdə gördüyü üçün
Həyatda bir ona bənzəyək biz də.
Alışsın o ürək ürəyimizdə.

## ÇİÇƏK GÜLÜŞÜ

Çiçəklər yaşıl-yarpaq,
Yarpaqlarla yaşınaraq
Təbəssümlə qarşılayır,
Yaz gününün gəlişini.

Gözləri yaz yuxuludur,
Müşkənbər qoxuludur,
Şaxta-ayaz qorxuludur
Vurar çiçək gülüşünü.

## BURDA ŞAİR UYUYUR

*Əli Kərimin məzarı önündə*
*düşüncələr.*

Park böyükdür,
Meydanı geniş:
Dağları saxlayıb
Çiyinlərində.
Yaşıl bir sükutla
Fəxri qarovul
Farağat dayanıb,
Şair önündə!

Yaşıl röyalarda
Nə duyur şair?
Sərvlər qələmdir -
Durub müntəzir.
Bir yaşıl sükutu
Geyib əyninə
Burada əbədi
Uyuyur şair!

Bir sükut içində
Cücərir otlar…
Məzara əyibdir
Kədər başını!
Ana gözləri tək
Dolub buludlar;
Toxunma, -
İsladar
Məzar daşını!

Bu yaşıl parkın

Yaşıllığında
Yaşıla bürünüb,
Yaşıl bir ürək.
Çiçək də kövrək,
Budaq da kövrək,
Bulud da kövrək.
Qəlbində şair yatan
Torpaq da kövrək!

## BAHAR NƏFƏSİ

Torpağa baharın nəfəsi gərək;
Daşları çiynində qaldırsın çiçək
Meşə, baş qaldıran göbələklərin
Çiynindən sürüşsün
Yapıncısı tək.
Puçurlar çadrını yellərə versin,
Tumurcuq boylansın zireh çəpərdən.
Tumlar da sıyrılıb çıxsın zirehdən.
Həyat suallarla əyilsin yerə,
Həyat nidalarla yüksəlsin yerdən!

## GİZLİCƏ

Hələlik atadan, anadan gizlicə;
Uyub məhəbbətə, baxıb sevincə,
İki gənc görüşə tələsdi -  gecə.
Bu sakit, sirli gecədə
Gizlənən kölgələr
Bir-birinə sarmaşıq oldu.
Bu sakit  sirli gecədə,
Gizlənən kölgələr
Ömrə-günə işıq oldu
Bir-birinə aşiq oldu.
Bu aşiq kölgələr, bu gecəyə yaraşıq oldu.
Bu gizli görüşün, gizli məhəbbətin,
Bu gizli sevincin, səadətin
Şirini kölgəyə hopacaq  indi.
Bu gizli görüşün, gizli sevginin
Kölgəsi-kölgədən  qopacaq indi.
Bu kölgə şirini qol-qanad açıb,
Bacıya, qardaşa, ata-anaya
Muştuluq xəbərə uçacaq indi.

## YARIMÇIQ KƏSR KİMİYƏM

Batmışam gecənin qaranlığında.
Dənizə baş vurmuş dalğıclar kimi.
Uçuram gecəyə döşək ağında,
Uçuram ovlayım gecə fikrimi.

Fikirlər qoynunda əsir kimiyəm.
Bu gecə, bu gecə yatmamalıyam.
Bu gecə yarımçıq kəsr kimiyəm,
Bu gecə, bu gecə həll olmalıyam.

## XƏZƏR BƏXTİMƏ DÜŞÜB

İllərdən, əsrlərdən ötüşüb,
Əfsanəli nağıllardan ötüşüb,
Fəsillərdən, nəsillərdən ötüşüb,
Əli qanlı yağılardan ötüşüb,
İqbalımla, taleyimlə görüşüb,
Xəzər bəxtimə düşüb.
Xəzər bəxtimə düşüb.

Mətinləşdim dalğasından,
Qanadlandım laylasından,
İgidləşdim haytasından,
İzim keçdi aynasından.
Əfsanəli nağıllardan ötüşüb,
Əli qanlı yağılardan ötüşüb,
İqbalımla, taleyimlə görüşüb,
Xəzər bəxtimə düşüb.
Xəzər bəxtimə düşüb.

Mən Xəzərin balasıyam,
Qoynunda yurd salasıyam,
İstəyimi alasıyam.
Əfsanəli nağıllardan ötüşüb.
Əli qanlı  yağılardan ötüşüb,
İqbalımla, taleyimlə görüşüb,
Xəzər bəxtimə düşüb,
Xəzər bəxtimə düşüb.

Xəzər - Bakı qanadımdı,
Vüqarımdı, inadımdı,
Şöhrətimdi, öz adımdı.
Əfsanəli nağıllardan ötüşüb,

Əli qanlı yağılardan ötüşüb
İqbalımla, taleyimlə görüşüb,
Xəzər bəxtimə düşüb.
Xəzər bəxtimə düşüb.

**RƏSUL RZA**

Dedi, dediyin düzünə dedi,
Ardınca dönmədi, üzünə dedi.
Həyat güzgüsüydü sözü-söhbəti,
Oxu, bax güzgüdə özünə dedi.
Sözdən söz alırdı, sözü seçirdi,
Əyrini düzəldib, dümdüz biçirdi;
Ömrünü şerə verəndən sonra,
Sözü paradlardan özü keçirdi.
Qorxunu qorxutdu mətinliyilə;
Çarpışdı həyatın çətinliyilə.
37-ci ilin qurd pəncəsindən
Tapdı xilas yolu, qətiliyilə.
Tapdı səadətini öz NİgarInda,
Səyirtdi atını söz diyarında,
"Ceyranlar dalında" uçan sözləri
Qaytardı öz qartal qanadlarında.

## HƏYAT DA QATAR KİMİDİR

Həyat sərnişinli qatar kimidir,
Hər vaxt yollardadır, hər vaxt səfərdə.
O şüurlu, segahlı bir tar kimidir,
Sevinci, kədəri - var pərdə-pərdə.

Həyat sərnişinli qatar kimidir;
O, mənzil başına çatana kimi
Sərnişinləri
Tökülür bir-bir;
Dəymiş-dəyməmiş almalar kimi

Həyat sərnişinli qatar kimidir, -
Gəlimli-gedimli yolların üstdə.
Həyat sərnişinli elə gəmidir -
Kainat yaşadır qolları üstdə.

Həyat sərnişinli qatara bənzər, -
Səfərdə yaşayar sərnişinləri.
Sevinci, kədəri qol-qola gəzər,
Gah sevinc, gah kədər sıxır əlləri.

## OLMUSAN

Haçandan beləcə ütük olmusan,
İştahın çoxalıb sürtük olmusan,
Kiminin üstündə Domokl qılıncı,
Kiminin altında kötük olmusan.

Düşərsən xəlvəti izdən-izə sən,
Dürtülərsən neçə gözdən-gözə sən.
Dərinə ip tapıb, çıxdın üzə sən,
İşıq gələn yerə  tutub gövdəni,
Neçə pəncərəyə örtük olmusan.

Mağarda, məclisdə duranda başda,
Quzu görünərsən ilkin baxışda.
Qurunun oduna odlarsan yaş da,
Hirsindən, hikkəndən, mənəmliyindən
Odsuz-alovsuz da pörtük olmusan.

## DİNLƏYİN DİKTORU

*A.Qaradağlıya*

Dinləyin diktoru, siz dinləyin bir,
Eşidin, nə incə ana dilim var.
O, elə danışır, elə dillənir.
Dil açır qəlbimdə dilsiz duyğular -
Eşidin! Nə incə ana dilim var.

Söz-sözə calanıb elə səslənir,
Deyirsən, dildəki şeriyyətə bax!
Bu, şurdur, muğamdır belə səslənir,
Hər sözə, cümləyə asanda qulaq
Deyirsən, dildəki şeriyyətə bax!

Dinləyin, nəğmədir musiqisiz də,
Dinləyin, mahnıdır bəstələnməmiş.
Dinləyin, zövq alın, eşidin siz də,
Yığın bu incini, səpələnməmiş
Dinləyin, mahnıdır bəstələnməmiş!

O, elə danışır, elə dinir ki,
Tapır səs vurğunu, söz də ahəngi.
Səslər elə qalxır, elə enir ki,
Nəğmə musiqiyə qovuşur sanki:
Tapır səs vurğunu, söz də ahəngi!

## BAHAR GƏLƏR DƏLİ-DOLU

Bahar gələr - dəli-dolu,
Gələr nurla, əli dolu.

Göz qırpanda, şimşək çaxar.
İldırımdan qanad taxar,
Yağışlanar, səpələnər,
Selə dönər, ləpələnər.

Günəşlənib göydən baxar,
Şəfəqlənib yerə axar,
Gülüşündən bulud qaçar,
Görüşündən güllər açar.

Tarlalarda sünbüllənər,
Bağçalarda bülbüllənər,
Zəmilərə bar gətirər,
Tarlalara var gətirər.
Yer də, göy də baharlanar,
Baharlanar, vüqarlanar.

## LİRİK ŞER

Pozub sərhədləri,
        qırıb sədləri,
Yenib həsədləri,
        görüşə bilsək,
Nəfəsimdə
Nəfəsin od tutar, yanar.
Sevinər ürəyin
        ılıq həvəsdən,
Dodağında,
sinəndə gəzən nəfəsdən.
Onda taleyinin
        düşərgəsində.
Onda ürəyinin bir guşəsində
Yatmış arzuların
        qalxar, oyanar.
Sənin də ömrünün pəncərəsində
Parlayar dan yeri.
        gülər səadət.
Düşərsən dünyanın genişliyinə,
günlərin
ayların nura bürünər.
Ömür-gün gözündə bahara dönər.
Varlığın ayrı cür sahmana düşər.
Əllərin girişər ən çətin işə,
Arzun istəyimlə gələr görüşə.
Açılar dünyaya qanadım, qolum.
… Qoy çöküm ömrünün gələcəyinə,
Gülüm,  gözlərinin dərinliyində
Ya ortibə çıxım,
        ya da qərq olum!

## PAPAQ

Papaq var içində baş olar,
Papaq var içi boyda daş olar.
Papaq var kişi qoyar,
Qeyrət olar, ad olar.
Kişi var papaq qoyar.
Papaq altda arvad olar.
Qadın var papaqsız da.
Koroğlu, Fərhad olar.

## ƏLLİ YAŞIM

Əlli ilim - əlli yaşım!
Aylar, illər -  sirdaşım;
Tale - yoldaşım,
Həyat - qardaşım!
Əllil canla-başla
Əl-ələ verdik.
Qoşa gəzdik,
Qoşa böyüdük,
Qoşa yeridik.
Nə gördük, birgə gördük.
Bir ağladıq, bir də güldük.
Bir sevdik, bir sevildik.
Bir döydük, bir döyüldük.
Nifrətimiz də bir oldu,
Hörmətimiz də bir oldu,
Arzularımız istəyimiz də
Bu günlərdən doğuldu.
Günlər, aylar ömrümüzə
Səpilən bir noğuldu
Neçə il müharibə gördük.
Neçə il bu müharibə
Çiynimizdə oldu yük.
Qovrulduq, pörşələndik,
Pöhrə olduq.
Ayrı düşdük pöhrəlikdən,
Ayrı düşdük körpəlikdən
Tamam əldən, dildən düşdük;
Müharibədə olmadıq, -
Müharibədə döyüşdük.
Çörək andıq, - jmıx yedik,
Çiyit yedik.
Paltar tapmadıq, -
Havaya büründük,

Şəfəq geyindik.
Oldu sevilən günlərimiz də,
Oldu söyülən günlərimiz də,
Oldu döyülən günlərimiz də.
Günlərin izləri var ürəyimizdə.
İllər cığır saldı kürəyimizdə.
Bu ulu Vətənin, Ulu elində,
Mənim əllərim sənin əlində
Gördük bu dünyanın əlli ilində
Neçə yol boşaldı və doldu dünya.
Əzəli, əbədi bir yoldu dünya;
Günümüzdən, ayımızdan çox,
Lap dünənki sayımızdan çox
Körpələr doğuldu bu yer üzündə,
Sevinc də, kədər də boylanırdı
gözündə.
Torpağa qoyulan üzlər də gördük,
Torpaqlar atılan gözlər də gördük.
Qandan laləlaənmiş düzlər də gördük.
Dən kimi torpağa səpilənlər oldu,
Tum kimi torpağa əkilənlər oldu.
Şəhid  məzarları, şahid iz oldu.
Bahar -  baharımız - qələbəmiz oldu:
Göyərdi torpaq altdan
toxum babalar,
toxum nənələr,
toxum çağalar,
toxum nəvələr,
toxum şahidlər -
Orman oldu keçilməz -
Dalğalanan dəniz oldu.
Çiçəkləndi torpağımız, daşımız.
Göyərdi bizim də baba yaşımız.
Soykök yaşımız, el-oba yaşımız.

## SÖZ "ƏMƏL HAQQ" EDİB ONU

### Nəsimiyə

"Kişilik" vardır sözündə,
Mərdliyi - bəlli
üzündə.
Kişinin lap özündən
əvvəl
sözü inam olub.
Sonra özü "imam" olub.
Söz "ənəlhəqq" edib onu, -
Söz "əməlhəqq" edib onu.

**DƏYİŞMƏZLİK**

Hardasa - kişi cürəti,
Hardasa - kişi diqqəti.
Tovladı, gecə-gündüz gözəlliyi.
İzlədi, gecə-gündüz gözəlliyi.
Gözlədi, gecə-gündüz gözəlliyi.
İstədi onu varla,
                    hətta zorla
aləmindən qoparsın.
aləminə aparsın…
Bu zəriflik,
bu incəlik,
bu təravət,
bu təmizlik - gözəllliyin
qeyrəti zirehləndi,
Vüqarı - zirehləndi,
Qüruru - zirehləndi:
Əl-qol atan ləkədən
Qorundu…
Dəyişmədi inamı,
dəyişmədi inadı,
Həyat hər gün dəyişdi,
Dəyişməmiş qaldı o.
Şöhrəti qeyrət oldu,
Ülfəti qeyrət oldu.
Əl-qol atan ləkədən
Öz-özünü qorudu:
Zirehi də qeyrət oldu!

## DÜNYA ƏRKƏSÖYÜNDÜR

Bu dünya əvvəldən ərkəsöyündür;
Onun ürəyini oxşamaq üçün,
Geniş sinəsində yaşamaq üçün,
Astadan danışdır, astadan dindir.
Bu dünya əvvəldən ərkəsöyündür.

Bu dünya əvvəldən ərkəsöyündür;
Dünya varlığına yarsa da əgər,
Ərkinə dözümün varsa da əgər,
Oxşa ürəyini sevib sevindir.
Bu dünya əvvəldən ərkəsöyündür.

Bu dünya əvvəldən ərkəsöyündür;
Fəsilləri paltar edib geyinir,
Bir ürəkdir, min ürəkdə döyünür.
Dünya insanların elə özüdür,
Odur ki, əvvəldən ərkəsöyündür.

Bu dünya əvvəldən ərkəsöyündür;
Varını, yoxunu dişində saxlar.
Yaxşını, yamanı işində saxlar,
Hissini, hirsini içində saxlar.
Dünya özü boyda sirli düyündür.
Bu dünya əvvəldən ərkəsöyündür.

Bu dünya əvvəldən ərkəsöyündür;
Fəsillər bəzəyi, yaraşığıdır,
İnsanlar dünyanın göz işığıdır,
İnsanlar dünyanın öz işığıdır.
Bu işıq həm yerin, həm də göyündür.
Bu dünya əvvəldən ərkəsöyündür.

Bu dünya əvvəldən ərkəsöyündür;

Bir zərbədən ulduzları tökülər.
Əlçim-əlçim buludları sökülər,
O, elə hıçqırar, elə hönkürər…
Demə ki, dünyanın üzü dönükdür.
Bu dünya əvvəldən ərkəsöyündür.

Bu dünya əvvəldən ərkəsöyündür;
Demə ki, qocalıb köyrəkləşibdir.
Parlaq ulduzları seyrəkləşibdir,
Təkamül yolunda gözəlləşibdir,
Elə hey bitirir, elə üyüdür…
Bu dünya əvvəldən ərkəsöyündür…

*1985.*

## BAXAN ÇİÇƏKLƏR

Uşaqlar
ana ətəyindən
Yapışan kimi,
Çiçəklər,
        günəş şəfəqlərindən
Yapışıb qalxır.

Çiçəklər,
        uşaq gözlərilə
Hər gün bax, beləcə
Dünyaya baxır,
Baxır çiçəklər.

## YAŞAYIRAM

Təhlükələr zamanında yaşayıram;
Təhlükələr amanında yaşayıram,
Təhlükələr gümanında yaşayıram.
Həyat, ömür imtahandır -
İmtahanda yaşayıram.
Təhlükələr limanında yaşayıram,
Təhlükələr him-anında yaşayıram.
Himə bənddir,
Atom, nüvə təhlükəsi.
Lazer kölgəsi; -
Dayanıb başımız üstdə,
Domokl qılıncı kimi,
Hələ işdə iş vədəsi,
İxtisar təhlükəsi.
Hələ evdə qadın hədəsi,
Maşınlar, yollar təhlükəsi…
Təhlükələr dünyasında.
Hədələrdən qoruya-qoruya başımı
Əlliyə yetirdim yaşımı,
Varaqladım əlli illik yaddaşımı;
Bir ömrün butasıyam,
Yüzə addım atasıyam.
Yüz yaşına çatasıyam
Yüz illiyin arasına,
Əlli düşür Araz kimi,
Addım-addım getməliyəm
Yüz yaşımın sədasına.
Əlli kimi Arazı mən
Addımlayıb keçəsiyəm.
Yüz yaşımın badəsini
Öz əlimlə içəsiyəm.

## VAKANT YER

Qurd elan verdi: Vakant yerim var.
Keçsin müsabiqədən işsiz olanlar
Ərizələr yazıldı, şişdi qovluqlar.
Təcili ünvana düşdü qovluqlar
İşə düşdü, imkansız imkanlar.
İşə düşdü, gümansız gümanlar.
Eh, burda nə var, elandı - verdi
Neçə-neçə arzunu çəkdi-çevirdi.
Başladı ömürdə əsəbi anlar.
Çökdü ürəklərə soyuq dumanlar
Baxıldı ceyranın sənədlərinə -
Uyğun gəlmədi vakant yerinə.
(Hiyləgər deyil, yalan da bilmir.)
"Qəbul oluna bilməz!" - belədir əmr.
Kədər çökdü öküzün də gözünə, -
Sənədləri qaytarıldı özünə.
İşə həvəs ilə gəlmişdi ulaq.
Onu müsabiqədən etdilər uzaq.
Südlü döşü olsa da döyənək,
Müsabiqə şərtinə düşmədi inək.
Bu müsabiqəli böyük oyunda
Qaldı kənarda dəvə də, qoyun da…
Ancaq, vakant yerlər bir-bir doldu: -
Müsabiqənin qalibi  çaqqal, tülkü,
Bir də qurd oğlu, qurd oldu.

## İSKƏNDƏRLƏR BUYNUZSUZ QALDI

*“İskəndərin buynuzu var, buynuzu.*
*Nizami”*

Məclis, məclis
İclas, iclas
Əlində mandat
Yaşayardı.
Səsi - insan səsi.
İnsan adı, famili,
İnsan kölgəsi vardı.
Başında - qara duman,
Qəlbində - sakit ümman:
Axırdı alnınan
Buz kimi təri
Diriykən ölmüşdü
Əsəbləri!
Əli vardı - nəyinə lazım?
Dili vardı - nəyinə lazım?
Dişi vardı - nəyinə lazım?
İşi vardı - nəyinə lazım?
Sözü vardı - nəyinə lazım?
Gözü vardı - nəyinə lazım?
Həyatı,
Həyatı boyu - yuxulayardı.
Yuxuda,
Yuxulu-yuxulu alışardı,
Sözünü, sirrini
Yuxulu, yuxulu
Yuxu kimi qaranlıq,
Yuxu kimi dolaşıq,
Yuxu kimi qarışıq,
Bir quyuya danışardı.

Quyu dibsiz quyu imiş,
Quyu sonsuz quyu imiş
Ciyərini dəlib, deşən
Ürəyini ovub eşən
Sözlərini deyə-deyə.
O, yuxuda
Allahı da çağırdı,
İmamı da çağırdı,
Qıy vurdu, bağırdı.
Səsinə gələn olmadı,
Dərdini bilən olmadı.
Quyu dibsiz quyu imiş,
Quyu sonsuz quyu imiş:
Doymadı, dolmadı,
Səsinə gələn olmadı!
Dərdini bilən olmadı!
Quynun qumlu qaşında,
Quyunun nəmli başında,
Bir qamışsa bitmədi,
Çalına ağızlarda:
"İskəndərin buynuzu var, buynuzu".
Yuxuda,
Yuxulu, yuxulu
Onu dərd aldı,
İskəndərlər də buynuzsuz qaldı.

## QOCALIQ

Sümüklər köyrələr, gecə ney çalar,
Qulaqlar karlaşar, söhbətdən qalar,
Ürək cəsarətdən, qüvvədən qalar.
Könlü nəğmə deməz, gümgümə çalar,
Qocalıq, ah qocalıq.

Söz-söhbət zamanı dil topuq çalar.
Ayaqlar titrəyər, yerişdən qalar,
Sinə töyşük vurar, dizlər sustalar,
Qəmgin bayatılar dildə yurd salar.
Qocalıq, ah qocalıq.

Ayaqlar irəli, baş yana gedir,
Dişlər də qalmayır, tökülür bir-bir,
Ağız açıldımı kaha kimidir,
Alma yanaqlar da - əkin yeridir,
Qocalıq, ah qocalıq.

Əlləri dizinin dayağı olar,
Çəliyi üçüncü ayağı olar,
Xatirə sözünün qaynağı olar,
Dəyməyin könlünə, gözləri dolar,
Qocalıq, ah qocalıq.

## BAHAR NƏĞMƏSİ

Küçələr, meydanlar əlvan rəngdədir,
Bakı gör necə də gözəlləşibdir!
Çiçəklər şəhərə köçübdür, nədir?
Hər yan baharlaşıb, laləleşibdir.
Bakı gör necə də gözəlləşibdir!

Şarlar göyərçin tək uçur əllərdən,
Aparır özüylə baxışları da!
Güllər əl çəkməyir ipək tellərdən,
Güllərdir tellərin naxışları da,
Aparır özüylə baxışları da!

Eyvanlar elə bil açıbdır lalə,
Yerlər də, göylər də al xınalıdır.
Axır küçələrdən şəfəq-şəlalə,
Küçələr şaxəli nur kanalıdır,
Yerlər də, göylər də al xınalıdır.

Qoy bütün arzular şəfəqə dönsün
Yayılsın nur kimi yer kürəsinə.
Qəlblər bir inamla  vursun, döyünsün,
Dönsün döyüntülər  sülh nəğməsinə,
Yayılsın nur kim  yer kürəsinə.

## İŞIQLA YARIŞIR İNSAN

Bir zaman,
        Yazıq insan
İstəsəydi
        Çalışıb, vuruşub
        Saatlara, günlərə
        Çata bilməzdi.
Qollarını qıran yükü,
vaxtında vədəsində
        Mənzil başına
        Ata bilməzdi.
Günlər atlı idi,
Saatlar qanadlı idi,
        İnsan piyada.
Çata bilmirdi,
Yetə bilmirdi
Saatlara, günlərə onda
İndi:
İnsan atlıdır,
        Polad qanadlıdır,
        İldırım vüsətlidir,
Səsdən sürətlidir,
                ancaq:
Saatlar, günlər piyada
Aylar, illər piyada.
                Bu gün,
                Bütün.
Sürətləri edərək ram.
Qəlbində arzu, inam.
Gərək, işıqla qarşılaşa insan,
Gərək, işıqla da yarışa insan!

## KƏNDÇİ QIZ

Gözlərində məhəbbətin odu var,
Damağında zəhmətinin dadı var,
Hər insanın öz şöhrəti, adı var.
Halal olsun şöhrət sənə, kəndçi qız
Qədəmində vardır xeyir-bərəkət.

Dan sökülür, az qalıbdır səhərə,
Sür "gəmini" sən zəfərdən-zəfərə,
Ağ şəlalə, axıb dönsün ağ zərə.
Bir zəfərsən, bir səhərsən kəndçi qız
Qədəmində vardır xeyir-bərəkət.

Hünərinlə şöhrət gətir Muğana.
Muğan dəniz, sən dənizdə bir sona,
Ağ dalğalar səni alar qoynuna.
Qon zəfərdən, zəfərlərə kəndçi qız.
Qədəmində vardır xeyir-bərəkət.

## VAR

Günahın var qalaq-qalaq,
Nə dil deyər, nə də dodaq.
Ürəyində qapanaraq,
Sirri gora aparacaq.

Şeytan kürkü bürünərsən,
Mələk kimi görünərsən,
Hansı evə sürünərsən
Qapıları açılacaq.

Girərək mələk donuna,
İşləri qoysan yoluna,
Səmtlənəndə sağ-soluna
Sağın-solun  çapılacaq.

Güvənmə ilan dişinə.
Bir nəzər sal keçmişinə.
Baxılsa bədnam işinə.
Kefinə qəm qatılacaq.

Vicdanın var, -  oda atıl,
Dərdə dərman olub tapıl.
El yolunda talan, çapıl.
Xatırlayan tapılacaq.

## ALDANMIŞ ÇİÇƏK

Qış günəşinin
İlıq gülüşünə
Çiçək səmimiyyəti
                aldandı.
O, təbiətin
                ancaq
Gülüşünü gördü,
Gülüşünə
                inandı.
Sevindi də
Taleyinə düşən
bu gülüşə.
Sevincdən
Dan yeri tək
allandı yanaqları.
Təbəssümlə
        pardaqlandı,
açıldı dodaqları.
Heyhat!..
Həyata gəlcək,
Soyuq, sərtlik
        qoynunda
oldu əsəbi çiçək.
Xəstə çiçək!
Üşüdü,
Büzüşdü
Bütün çiçəkliyi ilə.
Bütün incəliyi, zərifliyi ilə
Titrədi,
Əsdi çiçək…
Niyə aldandı, çiçək?!
Niyə tələsdi, çiçək?!

## NAĞILLI DÜNYA

Şer oxuyuram, şer:
İşıqlı fikirlər axtarıram.
Şer oxuyuram, şer -
Nağıllar dünyasındayam.
Şer oxuyuram, şer -
Şair ürəyinin,
Şair zəkasının.
İşıqlı,
Yaraşıqlı
Dühasındayam.
Şerin nağıllı
Dünyasındayam.

## İSTƏRƏM

O zərif əlləri, buket əlləri
Basıb köksümə, dodaqlarıma,
Öpmək, əzizləmək istərəm.
Necə sevmək, sevmək istərəm…
Bir dəstə çiçək kimi
Ovuclamaq,
Qucaqlamaq istərəm.
O buket əllər, o çiçək əllər
Sıxılar, sığınar köksümə -
Döyünər köksümdə bir ürək kimi.

## RAHATLIQ

Yatır yanğınsöndürən,
Təcili yardım maşınları.
Susur telefonlar,
Həyəcan siqnalları.
Fəlakətli qanadlar,
Uçmur göylərimizdə.
Sakitdir, sakit
Yer də, göy də, dəniz də.
Bəzənib zəhmət tərindən
Dincəlir,
Rahat, rahat şəhərimiz də.
Səmamız tər-təmiz,
Günəşli göylərimiz var.
Zəmilər bərəkətdən uğunur.
"Açılıb qönçə dodaqlar" bahara.
Hava ətir qoxuyur,
ətir
Vətənimizdə.

## TALE YOLU

Qaşların nə yaman dartınıb belə.
Nişana tuşlanan kaman kimidir.
Qisas almaq düşüb yoxsa könlünə.
Al, sənin hökmün də zaman kimidir.

Zamanın hökmünü dəyişmək olmaz,
Səndə də zamanın qüdrəti varmış.
Tale də qismətdir, ya çox, ya da az,
Taledən xəbərsiz yaşamaq olmaz.

Buda qılıncınla qol-budağımı,
Ya ək, ya da yandır, özün bilərsən.
Əkərsən dərman bil hər yarpağını,
Yandırsan bir ovuc külüm hədərdi.

Özün bil, yoluma çıxmısan özün.
Haradan başlayıb deyə bilmərəm.
Yolumuz burada qovuşub bu gün.
Bu tale yoludur əyə bilmərəm.

**HƏMKARIM ABDULLAYEV**
**ELMANA**

Neçə ildir bir zindana,
Birgə çəkic vururuq biz.
Saf suların saflığının
Keşiyində dururuq biz.

Elimizin məsəli var,
Axan sular çirk götürməz.
Təmizlikdə yaşayanlar.
Səksəkəli ömür sürməz.

Su həyatın saflığıdır,
Dünya saflıq içindədir.
Saf ürəyin arzuları
Saf ölçüdə, biçimdədir.

Alıb sudan saflığı biz
Mənən, qəlbən durulmuşuq,
Bu amalla yaşamışıq,
Bu amala vurulmuşuq.

Alıb sudan saflığı biz
Özümüz də saflaşmışıq.
Bu amalla, bu arzuyla
Ömrümüzə düşüb işıq.

Pak suların paklığına,
Babalar da and içibdir
Ömrünün pak yollarında
Alov yarıb, od keçibdir.

Əlli yaşı vurub başa.

Altmış yaşa qoyduq qədəm.
Sular ana südü təki
Ömrümüzə olub həmdəm.

Su anadır, müqəddəsdir.
Ana Suya baş əyək gəl.
Su həyatın əzəlidir,
Gəlin suya qoyaq heykəl.

## DÜNYA

Fərq qoymaz insanın ağına, qarasına.
Fərq qoymaz cavanına, qocasına, bu dünya
Ömürləri tələsidər, çapar atla yollayar,
Özü qayıdar dünyasına bu dünya.

Gələni qarşılar bir sevinclə eləcə,
Gedəni yola salar gül-çiçək arasında.
Elə gələn görüb, yaşayacaqdı beləcə: -
Bu dünya, keçmişlə- gələcək arasında.

## DİRİJOR KÜLƏK

Bir balet zalıdır, bu gün meşələr,
Bir rəqs meydanıdır bütün meşələr!
Dirijor külək
Coşaraq, əsərək,
Dirijor pultuna qaxldı:
Musiqi dərəyə töküldü, meşəyə axdı
Külək, dirijor pultuna qalxdı!
Meşələr başladı meşə ritmini,
Yarpaqlar oxudu meşə himnini.
Nəğmə deyə-deyə,
Döndü meşə şənliyə,
Döndü dərə şənliyə.
Bənd imiş, bənd imiş meşələr dirijor
küləyə.

Tələsir, tələsir meşələr silkələməyə.
Yarpaqlar, alay durur
Yarpaqlar qaval vurur,
Tutub əl-ələ,
Verib qol-qola
dalğa-dalğa,
axa-axa
Bütün meşə rəqs edir,
Budaqlar yallı gedir
budaqlar yallı gedir!
Bu gün
büsbütün
Günlərimiz şən keçəcək,
Dirijor külək
Coşacaq, əsəcək
bizim üçün.
Meşə konserti verəcək,
Meşədən
Meşə simfoniyası yüksələcək!

## GİPNOZ OLMUŞLAR

Gözləriniz baxa-baxa,
Ayaq üstdə dura-dura,
kim, haçan
Gipnoz etdi əsəblərinizi?
Kim, haçan tora saldı sizi?
Döyürlər- bilmirsiz, dinmirsiz!
Söyürlər - bilmirsiz, dinmirsiz!
Soyurlar - bilmirsiz, dinmirsiz!
Tamam lat-lüt qoyurlar,
Bilmirsiz, dinmirsiz!
Girilər gözlərinizə,
Əl atırlar qəlbinizə,
Yanaşırlar ürəyinizə:
Yoxlayırlar duyğusunu,
Bilmirsiz, dinmirsiz!
Damar-damar, sinir-sinir
Yol taprılar,
Ölkəniz tək canınıza!
Yavaş-yavaş qarışırlar qanınıza,
Qarışırlar kininizə,
dininizə, dinmirsiz.
Sorular qanınızı damarlardan
Sizi vətəninizdən,
Soyurlar vətəni sizdən.
Dinmirsiz, dinmirsiz,
Dinmirsiz…

*1980*

## GÖYƏRƏRSƏN, KƏNDLİ QARDAŞ

Kəndli qardaş,
bu torpağın möcüzəsi
Sənin əlindədir.
Sən torpağa bağlısan
Bahardan öncə,
işvəli yardan öncə.
Yönü bəri baharın
möcüzəsi
Əllərinlə boy atar.
Bahar bütün qışı da
Sənin ovcunda yatar.
Yönü bəri bahara
Torpağın gülü, çiçəyi
Sənin əlindən çatar.
Kəndli qardaş,
Doğulmusan səmaya sirdaş,
Torpağa sirdaş
qardaş.
Torpağın taleyi, bəxti əlindədir,
Dövləti, sərvəti əlindədir:
Dən ol, səpil torpağa sən,
Su ol, təpil torpağa sən.
Bahar gələr, gün vurar.
Zəmi-zəmi, tarla-tarla
Boy atıb, yenidən göyərərsən.
Qardaş.

## ƏSİL KİŞİ

Ömrü,
ömrün bu başında o başına
Günahsız, ləkəsiz çatdırıb,
Qəbr daşına vaxtında təhvil verən.
Ürəyicə yaşayıb, ürəyicə "oxqay" deyən
Əsil kişidir, qardaş.

Günlərin bir günündə
Dayanıb ölümün önündə
"Ya Allah" deyib,
Kürəyini əzən.
Düz qəddini əyən
Ömür yükünü.
Bir də budağını,
kökünü
Qoyub yer üzündə,
Dost-tanışa vida deyib.
Torpağı əyninə geyib.
Dünyanın bu üzündən o üzünə yola salan .
Dünyanın o üzündə olub bu üzündə yaşayan
Əsil kişidir, qardaş!

## İNAMIMI ÇAPACAĞAM

Qəzəbimi dişlərimdə sıxacağam,
Qayğıların zirvəsinə çıxacağam.
Haqsızlığın ünvanını tapacağam,
Qəzəbimi o ünvana çırpacağam
Sipər kimi.
Bu ürəyin qəhərinə, Siz düşməyin,
Düşsəniz də qəhərlənin, gülüşməyin.
Savabı var haqq yolunda döyüşməyin
Bu döyüşə inamımı çapacağam
Kəhər kimi.

## SƏPƏLƏNDİM

Tufana qovuşdum,
Dostluq etdim.
Çırpdı dağa,
Daşa məni.
Saldı yazda
Qışa məni.
Günəşə əl verdim,
Həmdəm oldum,
Dərddən, qəmdən oldum.
Demə yandım, soldum -
Nura, şəfəqə döndüm.
Nur-nur,
Şəfəq-şəfəq,
Zərrə-zərrə
Parçalandım,
bölündüm -
Narın-narın
Ələndim;
Şəfəqləndim,
Məkan, məkan,
Zaman, zaman
Mənzil, mənzil
İnsan, insan
Səpələndim.

## SÖZƏ BAX

Sözə bax, söhbətə bax,
Sözdəki hikmətə bax,
Sözdəki qüdrətə bax:
Hər şey incəlikdən sınar,
İnsan,
Ondakı sərtlikdən ancaq.

## BAHAR KÖRPƏLƏRƏ
## GÜL BAĞIŞLADI

*Vahid Bayramlı*

Bu gün bayram idi, bahar bayramı.
Baharın seyrinə çıxmışdır hamı
Körpələr oynayır dəstəbədəstə,
Hamı xoş arzuda, gözəl həvəsdə.
Kimi ağ əlində top oynadırdı,
Kimi nəğmə ilə qəlb oynadırdı.
Körpələr gül kimi səpilib bağa,
Körpələr quş kimi qonub budağa.
Bu güllü budaqlar ətir saçırdı,
Külək ətirindən alıb qaçırdı.
Bu gün bayram idi, bahar bayramı,
Baharın seyrinə çıxmışdır hamı.
Körpələr baharı şən alqışladı,
Bahar körpələrə gül bağışladı.

*1962*

## QOBUSTAN

İlk inam, inad,
İlk sevinc, fəryad,
İlk hünər, qeyrət,
İlk vüqar, cəsarət
Qayaların arasında doğulmuşdur.
Qayalarda boy atmışdır.
Qayalara hopub, hopub -
Qayaları yaşatmışdır.

## GƏLMƏZDİ

Arzu-güman arxasında.
Arzu-ümman arxasında.
Arzu insan yaxasında
Əl çatmazdı, ün yetməzdi
Yetməzdi, yarım, yetməzdi

Arzular da, diləklər də,
Yurd salıbdır ürəklərdə,
Gəzər sanki küləklərdə
Hərdən göyərməz, btməzdi,
Bilməzdi, yarım, bilməzdi...

Arzu - dağlar zirvəsində,
Arzu şimşək - səsindədi,
Arzu dəniz dibindədi,
Tükənməzdir, o bitməzdir,
Bitməzdi yarım bitməzdi…

Arzu - ərköyün bir gözəl,
Cəlb edər hüsnünə əzəl,
Nəvazişlə deyər "gəl-gəl".
Yaxın düşməz, çatmaz da əl
Nə getməzdi, nə gəlməzdi,
Gəlməzdi, yarım, gəlməzdi…

## SƏNİN GÖZƏLLİYİNLƏ

Sənin gözəlliyinlə mənim aramda
Ələyi ələnmiş bir ömür durur.
Sənin gözəlliyinlə mənim aramda
Atəşi paylanmış bir ürək vurur.

Sənin gözəlliyinlə mənim aramda
Tamahı baş yaran baxışlar durur.
Sənin gözəlliyinlə mənim aramda
Məftun baxışlarda alqışlar durur.

Sənin gözəlliyinlə mənim aramda
Ərk çatmaz, əl yetməz səhifə vardır.
Sənin gözəlliyinlə mənim aramda
Yerlə Göy arası məsafə vardır.

## DAŞ OLUM

Daş verin yonum, yonum
Daş olum, Daşa hopum.
Quş olum, uçum gəlim.
Öz daşımın üstə qonum.

## QORXU

Heyrandan, heyrətdən məhrum olanda,
Əlimdə qələmin yuxusu gəlir.
Masa arxasında sözsüz qalanda
Qəlbimə düşgünlük qorxusu gəlir.

## MƏHƏBBƏT İŞIĞI

Məhəbbət işığı
Üstünə düşsə,
Ürəyin ürəklə
Bir gün görüşsə,
Bir beşik qayğı
Yaranacaqdır.
Bir otaq sevinc
Oynayacaqdır.
Bu yeni qayğıya
Qarışacaqsan,
Bu yeni sevincdən
Alışacaqsan!
Yerişin dəyişəcək
Yeriyən zaman.
Görüşün dəyişəcək
Görüşlərində.
Gülüşün dəyişəcək
Gülüşlərində.
Yuxu gözlərində
Sevinəcəkdir.
Günlərin, ayların
Bəzənəcəkdir.
Həyatın beləcə
Yazlanacaqdır.
Yellənən, sellənən
Ana döşlərin
İncə istəklərlə
Nazlanacaqdır.

Şanı giləsi tək
Dolacaq onlar.

Təzə qönçələnmiş,
Üstə nur ələnmiş,
Nura bələnmiş
Körpə duyğunun
Ən əziz qisməti
Olacaq onlar.

## SƏNƏ İNANMIŞDIM

Sənə inanmışdım,
Qız sadəliyi - təmizliyi qədər.
Sənə inanmışdım,
Çörəyin, suyun - əzizliyi qədər.
Bir kin qığılcımlı -
Qəzəbli üzlə,
Bişməmiş bir sözlə
Yoxa çıxardın -
Təmizliyi də.
Yoxa çıxardın -
Əzizliyi də.
Ürəkdə yurd salmış -
Əkizliyi də…
İndi nida, sual qalıb,
Onun yerində -
Ürəyimin dərinliyində!

## DİNMİRİK

İşığa tutulub baxışlarımız,
Hər şeyi, hər yerdə görə bilmirik.
Tutub-tutmaiyıbmı naxışlarımız?!
Məst olub qəlbimiz - susub, dinmirik.

## QOYMAYIN GƏNCLƏRİ ROBOTLAŞALAR

Nənələr, babalar, ayağa durun,
Möhkəm cərgələnin, alaylar vurun,
Qoruyun gəncliyi, məhəbbəti, siz,
Qoruyun sevgini, sədaqəti, siz.
Qoymayın sevgidən uzaqlaşalar,
Qoymayın gəncləri - robotlaşalar!
Öyrədin, Məcnun tək sevməyi də,
Öyrədin, Kərəm tək ölməyi də.
Fərhad məhəbbəti gənclərə verin;
Qızlar sədaqətdə olsunlar Şirin.
Qoymayın sevgidən uzaqlaşalar,
Qoymayın gəncləri - robotlaşalar!

## NAZLI QIZLAR

Bizim bu nazlı qızlar,
Parlaq, gözəl ulduzlar,
Deyərsən günəşdilər, -
Üzlərində şəfəq var.

Parlayıb üzlər yanar,
Görsən gözün nurlanar.
Oğlanlar qorxa-qorxa,
Yanlarında dolanar.

Hamı arzu, sevincdir.
Dürdür, ləldir, incidir.
Biri düşüb bəxtimə,
Məni sevir, incidir!

## KİTAB

Kitab getdi eldən-elə,
Kitab gəzdi əldən-ələ.
Oxunduqca saraldı o,
Oxunduqca qaraldı o.
Zehinlərsə təzələndi,
Zehinlərə nur ələndi.

## MÖHTACLIQ

Sınan bir ağac,
Başdan düşən tac,
Biri bitmək bəhsində,
Biri qapılmaq həvəsində,
Yüksəkdə durmaq həvəsində…
Birində bitmə ehtiyacı,
Yaşamaq möhtacı.
Biri başda durmaq acı.
Hökm, hökmranlıq acı.

## TAR ÇALAN QIZ

**(m a h n ı)**

O nazik əllərirn incədən-incə,
Pərdədən-pərdəyə uçub zərifcə,
Qəlbimi, hissimi alıb oynadır,
Simlərin üstünə salıb oynadır.

n ə q a r ə t:

Əl incə-incə
Qalxıb-enincə,
Sən, nəğmələrlə
Şən nəğmələrlə
Çevril sevincə
Ax bu qəlbimə, -
Sən incə-incə,
Sən incə-incə.

Əllərin tarı yox, duyumu çalır,
İxtiyarsız onu, o məndən alır.
Uşaq tək qeydinə qalıb oynadır,
Simlərin üstünə salıb oynadır.

n ə q a r ə t:

Əl incə-incə
Qalxıb-enincə,
Sən, nəğmələrlə
Şən nəğmələrlə
Çevril sevincə
Ax bu qəlbimə, -
Sən incə-incə,
Sən incə-incə.

## TUTU QUŞLARI

Kim gətirib,
Kim yetirib.
Hardan artıb, çoxalıbdır?
Deyin barı,
Tutu quşları, tutu quşları?
Siyasətdə,
        söz-söhbətdə,
Təbiətdə,
        təbabətdə,
                şeriyyətdə,
Daldalarda, həqiqətdə
Gördüyünü deməyən,
Deyilənləri - deyən…
Hardan artıb?
Deyin barı,
Tutu quşları, tutu quşları.

## İNSAFSIZLIQ

Bir dəstə yarpağı əzişdirərək,
Belədən-beləyə aparır külək.
Əzilənlər susur lal-karlar kimi,
Həm əzir, həm haray qoparır külək.

Bax, gücsüz, ağısız bu yarpaqları,
Külək caynağına alacaq indi.
Demə insaf edib, əzizləyəcək.
Ya oda, ya suya salacaq indi!

## GƏL

Uzaqda parladın bir vaxt günəş tək,
Əl çatmaz günəşim deyərdim sənə.
Nurunda qaraldım, yandım həbəş tək,
Səndən nişanədir qaranlıq mənə.

Yola döndüm, yollarında,
Gəlib keçdin sinəm üstdən.
Dindim dindi yolların da,
Ancaq cavab vermədin sən.

İndi bağcamızda bitmiş çiçəksən,
Əl atıb dərərəm dərmək istəsəm.
Kim deyər ki, məndən inciyəcəksən,
Gəl, eşqimin gülü demək istəsəm.

Gəl çırağımı elə yandır,
Ömür boyu şöləlònsin.
Otağımı işıqlandır,
Eşqimizə nur ələnsin.

## SƏMİMİYYƏT

**QƏŞƏM ÇIRAQLI**
**FİRUZƏ MƏMMƏDLİ**

QƏŞƏM - Canaxırdan Bakıya bir iz düşdü,
Şerimizə işıq düşdü, köz düşdü,
Aralığa söhbət düşdü, söz düşdü,
Gözlərində mavilik var sərindi.

FİRUZƏ - Bu iz hara çatacaqmış - nə bilim?!
Bu - işıqmış, ya ocaqmış - nə bilim?!
Bu söz nədən sızacaqmış - nə bilim?!
Gözlərimin həyat rəngi sənindir.

QƏŞƏM - İnamımı inamına caladım,
Sevincimi sevincinə qaladım.
Şübhələri, sərhədləri taladım,
Məhəbbətin kök salıbdır-dərindir.

FİRUZƏ - Ömrüm, günüm, şübhələrin nahaqdır,
Qəlbim mənim dumduru bir bulaqdır.
Qısqanclıq var - məhəbbətə qonaqdır,
Məhəbbət var - qısqanclıqdan dəlidir.

QƏŞƏM - Qəşəm-Qəhər söz zövqünü sınadı,
Şübhələr də öz-özünü qınadı.
Ürək var ki, məhəbbətdir qanadı,
Ürək var ki, sevməyə də ərindi.

FİRUZƏ - Bu dünyanın narahatlıq yükləri
Elə məni qayğılarla yüklədi.
Kədər haçan FİRUZƏNİ təklədi,
QƏŞƏM-QƏHƏR gözlərinə göründü.

***1981-ci il BAKI.***

# FİKİR BURULĞANI

**YUXULAR RAHAT OLMUR …**

*RƏHMAN VƏ RƏHİM ALLAHIN ADIYLA*

**AZƏRBAYCAN**

Azadlıqdan öncə
Əsəblər dartındı,
Əsəblər gərildi.
İgidlər bar kimi dərildi.
İgidlər baş qoydu,
budaq-budaq sərildi
yollarına,
Azərbaycan!
Azadlıqdan öncə,
Xalqın
Dərdi böyüdü,
dərdi göyərdi,
Əli dərddən - dərd dərdi,
Qəzəbi coşdu,
nifrəti daşdı,
Səbri səddini aşdı,
Əli yalın oğullar
alov püskürən,
ölüm saçan,
Sovet tankları, topları ilə
Baş-başa, döş-döşə
qarşılaşdı.
Analar saç yoldu
saç sərdi yollarına,
Analar - mərd analar
qürurla yas saxladı
şəhid oğullarına,
Azərbaycan!
Azadlıq
yaralanmış,
paralanmış.
Ayaqlar, əllər, qollar üstündən,
Qanla sulanmış yollar üstündən,

Qərənfilə dolaşmış,
qana bulaşmış,
saçlar üstündən,
Şəhidlər xiyabanından,
Azadlıq meydanından.
keçərək var oldu.
Azərbaycan!
İgidlərin yaralı köksündən
sıyrılaraq,
Alovları, odları yararaq,
tankları, topları sarsıdaraq,
Qalxdı, ucaldı aylı, ulduzlu,
üç rəngli müqəddəs Bayraq,
Gözün aydın, Azərbaycan!

## ALLAH VERGİSİ

Şairlik -Allah vergisi,
Şer - ilahi sözdür,
Şair -Allah adamı,
Allahın adıyla
Nə desə, nə yazsa, düzdür.

Şairlik - Allah vergisi,
Şer - ilahi sözdür.

Toxunmayın şairə,
Batarsız  günaha.
Şair - Allah adamı,
Ağır gedər Allaha.

Kim olub ilk şair,
Kim olub ilk söz qoşan?
Kim olub ilk dəfə,
Şer yazıb yaradan?
Bəlkə elə ilk şeri
Özü yazıb Yaradan
İlk şerlə yazılıb,
Müqəddəs kitab -
Müqəddəs Quran.

Şairlik - Allah vergisi,
Şer - ilahi sözdür.
Şair - Allah adamı
Şerlə yazılmış
Müqəddəs quran.
İslam dünyasına
Ulu tanrının
İlk ilahi kəlamıdır.
İlk İslama Rəbbin
İlk və əbədi salamıdır.

## MEYDAN SƏNİNDİR

Ana Vətən ağrı çəkir, ağrıyır,
Ağrılardan doğulubdu igidi.
Obaların imdad deyə çağırır,
Haydı, Vətən oğlu, meydan sənindi.

Bu torpağın tufanları qəzəbin,
Bu dağların ildırımı kinindi;
Həzilərin tanklarıdı gözləyən,
Haydı, Vətən oğlu, meydan sənindi.

Ermənilər zərbə vurub Vətənə,
Öz qanında çimən vaxtı indidi,
Torpağında qaçqın olub millətin
Haydı, Vətən oğlu, meydan sənindi.

Qan qoxuyur bu torpağın yarası,
Yaraları üzdə deyil dərindi,
Bu torpağın belə ağır günündə.
Haydı, Vətən oğlu, meydan sənindi.

Bu torpağın paklığını qoruyan,
Şir ürəkli oğullar da Vətəndi.
Sən qələbə çalmalısan düşmənə,
Haydı, Vətən oğlu, meydan sənindi.

## İRƏLİ, AZƏRBAYCAN ORDUSU

Qartal
baxışlarınla zirvəyə bax!
Qanadlan, zirvədən-zirvəyə qalx!
Yüksək ad-sanınla,
Tut zirvəni inamınla
Buludları yararaq.

Başın üstə dalğalansın
üç rəngli Bayraq.
Budur xalqın istəyi, arzusu;
İrəli, Azərbaycan ordusu,
İrəli!

Mayan tutulub oddan,
Mərmi kimi atıl topdan;
Bizimdir cəbhə, bizimdir meydan,
Zəfər yağsın Bayrağından,
Çıx qələbə sınağından.
Budur xalqın istəyi, arzusu;
İrəli, Azərbaycan ordusu.
İrəli!

Düşmən at oynadır belədən-belə,
Zərbənin zərbini görməyib hələ.
Qurşan qəzəbinə, kininə.
Verib çiyin-çiyinə,
verib əl-ələ
Vətəni düşməndən tez azad elə.
Budur xalqın istəyi, arzusu;
İrəli, Azərbaycan ordusu, İrəli!

## ORDU MARŞI

Çalınsın təbillər, gurlasın dağlar,
Biz nəyə qadirik bilsin dığalar.
Qeyrətli oğullar qələbə çalar.
Qalxıbdır ayağa ulu yurdumuz,
Bu gün hücum edir milli ordumuz.

Çalınsın, çalınsın hücum marşları,
Toplansın cərgəyə Vətən daşları.
Versin xeyir-dua yar baxışları,
Qalxıbdır ayağa ulu yurdumuz,
Bu gün hücum edir milli ordumuz.

Vardı bu torpağın Koroğlu oğlu,
Vardı qılınc vuran Babəkin qolu,
Nəbilər, həzilər tutsunlar yolu, -
Qalxıbdır ayağa ulu yurdumuz,
Bu gün hücum edir milli ordumuz.

Dağlarda gizlənib ilan dığalar,
Salıbdır kəndlərə talan dığalar.
Ölən ölüb, bilsin qalan dığalar, -
Qalxıbdır ayağa ulu yurdumuz,
Bu gün hücum edir milli ordumuz.

Çalınsın təbillər, gurlasın dağlar,
Biz nəyə qadirik bilsin dığalar.
Qeyrətli oğullar qələbə çalar.
Qalxıbdır ayağa ulu yurdumuz,
Bu gün hücum edir milli ordumuz.

## İGİDLƏRİN İGİDİ

Vətən, torpaq uğrunda
Əllərinə silah alan,
Qeyrətlə döyüşə gedən
Düşmən üstə yürüşə gedən
Hər bir oğul igiddir,
Hər bir oğul qəhrəman.
Diktor bacı,
Müxbir qardaş.
Danışanda, yazanda
Bu məntiqə söykənin.
Ədalətli olarsız,
"Ucu itməz örkənin".
Ölümlərin üstünə
Tufan kimi yeriyən,
Şimşək kim şığıyan
Qılınc kimi sıyrılan,
Hər bir əsgər igiddir,
Hər bir əsgər qəhrəman.
Ancaq bir də
Düşmən üstə yürüşlərdə,
Ölüm saçan döyüşlərdə,
Qızıl gülləyə nişan,
Ölüm həddini aşan.
Ölümdən də o yana
Yaşamağa çalışan
Şəhidlər də var.
Hər cür qəhrəmanlığın
Zirvəsidir onlar.

## AĞRI

Ehey! El içində,
Boğaz yırtıb çığıranlar,
Kürsülərdə, meydanlarda,
Vətən deyə bağıranlar.
Vətən mənim ciyərimdə,
Vətən mənim ürəyimdə…
Ehey! Eşidiniz!
Mən demədim Şuşa getsə,
tapançadan
güllələri papağıma
çaxacağam.
Ehey! Eşidiniz,
mən demədim Şuşa getsə,
yaylıq örtüb el içinə
çıxacağam.
Lakin hər vaxt mənim sinəm
Yer tərki vulkan kimi
çağlayırdı
Qövr edirdi köhnə yaram,
Köhnə dərdim ağlayırdı.
Şəhidlərin qəbri üstdə.
Alov yüklü şerlərim,
Öz odunu aram-aram
meydanlarda püskürürdü.
Satqınları, xainləri
şəlpə edib
ayaq altda sürüyürdü.
İgidləri bayraq edib
yaraq edib
düşmən üstə yüyürdü,
yüyürdü.

## MƏN DƏ ŞƏHİDƏM

*Qarabağda baş verən faciələri qabaqcadan hiss edən adamların yuxuları qarışır., küçə itləri isə ulaşırlar. Qarabağ döyüşlərində həlak olmuş qardaşım ƏNVƏRİN, xalam oğlu VAHİDİN, ŞAKİRİN və digər şəhidlərin əziz xatirəsinə.*

**Allah bütün şəhidlərə rəhmət eləsin!**

Qorxulu yuxular -
Qövr edən yaram,
Görəndə qorxuram, arıqlayıram.
Şəhid qardaşım var, -
Qanımdan gedib.
Şəhid qohumlarım canımdan gedib.
Hər şəhidlə bir az yonuluram mən,
Ana gözlərində boğuluram mən.

Vətən uğrunda ölən igidlərə,
Vətənə qurban gedən igidlərə,
Qəlbimdə möhtəşəm qala hörürəm,
Şəhidli Vətəni uca görürəm.

Qara-qara yuxuların
Yuxulardan qorxuların
Öz həddini aşmasına.
Gecələr sakit küçələrdə
İtlərin ulaşmasına,
Heç nə dözməz, insan dözür.
Gecə təki qaranlıq,
Bu yozumu çətin
Yuxu - bəddi,
Yuxu - hüzr.
Belə nəhs yuxular olmur hədər;

Şəhidlərin sayı qədər
Doğranıram, yonuluram.
Şəhidləri görə-görə.
Ayaq üstdə dura-dura.
Mən də şəhidlərə
Şəhid oluram.

## ŞƏHİD ATASI

Baxma ki, o, gənc atadır,
ağsaqqal olacaqdır.
Şərəfli bir "qocalıqdır",
Adın özü ucalıqdır
Şəhid atası.

Düşməz könüllərdən uzaq,
Ürəklərdə yaşayacaq,
Hər ürəkdə bir ocaq -
Gecə-gündüz yanacaq
Şəhid atası.

Şəhidlər Vətənə dönər,
Vətən şəhidlə öyünər.
Hamı səcdəyə gedər -
Səcdəgah - şəhid atası.

## ÇƏTİN GÜNLƏR

*/20 yanvar 1990-cı*
*il faciə gecəsi/*

Diqqət min yerə gedir, ağıl bir yerə,
Gümanı ağıla bağlamaq olmur.
Kədər başdan aşır, dərd başdan aşır,
Nə gülmək, nə də ki, ağlamaq olmur.

Ağlıma gələnlər başıma gəlmir,
Gəlir, gəlməyənlər ağlıma ancaq.
Başıma gələnlər ağlıma gəlmir,
Gəlir, gəlməyənlər yadıma ancaq.

Ağlamaq olmayır böyük dərdləri,
Dərdini belində dəfn edir Vətən.
Cəlladlar sındırıb ayaqlarını,
Qalxıb dizi üstə yeriyir Vətən.

Neft verən Bakı indi can verir,
Çilənir al qanı küçələrinə.
Bakı qanı ilə gedən tankların,
Bakı hədəf olub güllələrinə.

Bakını asdılar meydanlarında,
Oğullar döşəndi ayaqlarına.
Sinəsi qalxana dönən igidlər,
Döndülər Vətənin dayaqlarına.

## AĞLAMA, ANAM AĞLAMA

*1990-cı il 20 Yanvar, Xocalı, Şuşa və metro faciələrində həlak olanlara Allah rəhmət eləsin.*

Bəs bu yas nə yasdı axı?
Eli matəm basdı axı.
Bu yas sevinc dünyamızı
Saçlarından asdı axı,
Ağlama, anam, ağlama,
Qırılar inam, ağlama.

Dözümlü xalqıq biz elə,
Hər kədərə dözdük belə, -
Ölümümüz - gülə-gülə,
Gülüşümüz - elə-elə, -
Ağlama, anam, ağlama,
Qırılar inam, ağlama.

Həyat varsa, dərdi də var,
Yas yeri bir, iki olar.
Bir ölkəlik yasmı olar.
Bu matəmi saxlamağa,
Geyməyə libasmı olar?
Ağlama, anam, ağlama,
Qırılar inam, ağlama.

Yanvar qara yaslanmamış,
Şuşa oda yanan oldu.
Xocalıya qırğın düşdü,
Laçın eli talan oldu.
Ağlama, anam, ağlama,
Qırılar inam, ağlama.

Hardan tutdu bizi qarğış?

Qana qaltan olduq bu qış.
Hələ Yanvar ağlanmamış -
Metroda oldu partlayış,
Ağlama, anam, ağlama,
Qırılar inam, ağlama.

Bəs bu yas nə yasdı axı?
Eli matəm basdı axı.
Bu yas sevinc dünyamızı
Saçlarından asdı axı,
Ağlama, anam, ağlama,
Qırılar inam, ağlama.

## TORPAQ FƏXRİ VƏTƏNDAŞDI

İlahi, neçə ildir bu torpaqda,
Döyüş gedir, qan tökülür.
Ona dəyən güllələrdən,
Dilimlənir, ilmə-ilmə sökülür.
Neçə ildir bu torpağın igidəlri
Yarpaq-yarpaq qədəminə tökülür.
Vətən köynəyindən keçən igidlər
Şəhidlik köynəyinə bükülür.

İlahi! "Dost" bildiyimiz, dığalar,
"Dostluğa" xain çıxdı, -
Torpaq, yurd sahibinə qarşı,
Başladı qanlı-qanlı savaşı.

Bu torpağın igidləri qəzəbləndi,
Silahla danışdı, silahla dindi.
Uşaqlar da kişiləşdi, -
Hər addımı qan qoxuyan,
döyüşlərə girişdi.
Bu Vətən, torpaq davasında,
Ölüm adiləşdi, qan adiləşdi.
Al qana qaltan olan,
Torpaq qandan şirinləşdi.
Torpaq qanla qovuşduqca
əzizləşdi, doğmalaşdı,
şəhidlərə Ana olan
Torpaq fəxri Vətəndaşdı.

## ESTAFETİ GƏLƏCƏYƏ APARMALI

Qızıl sərvətli,
naz-nemətli,
Qızıl sinidir Vətən.
Babalar canı ilə,
Babalar qanı ilə,
Dişi-dırnağı ilə,
Qoruya-qoruya
gətirib onu.
Babalar
qılınc-qalxan gücünə
gecə-gündüz qoruya-qoruya
Bizə
əmanət yetirib onu.
Qızıl sərvətli,
naz-nemətli,
qızıl sinidir Vətən.
Əcnəbilər,
Daha kimlər,
daha nələr
Həşəratlar təki
ətrafına -
parıltıya toplanır.
Düşmənlər - bu ac qurdlar,
gecə-gündüz Vətənimin
ətrafında dolanır.
Baxanda qızıl sərvətli,
naz-nemətli Vətənə,
dişləri qıcanır,
ağızları sulanır.
Vətən oğlu, ayıq-sayıq olmalı,
Ayıq-sayıq keşiyində durmalı,
Babaların estafeti - bu Vətəni

Qorumalı!
Zəbt olunan torpağını
Yad əllərdən, caynaqlardan
Birdəfəlik qoparmalı!
Estafeti gələcəyə, -
nəsillərə bir tac kimi
cəsarətlə aparmalı.

## ZƏRBƏ

İgidlərə, Vətənə dəyir
İlahi, bu necə dövrandı,
necə zamandı?!
Düşüncənin, zəkanın,
Vətənin, vətəndaşların
halı yamandı.
öldürən də insandı,
ölən də insandı.
Tökülən, axıdılan
nahaq qandı.
İlahi, bu necə dövrandı,
necə zamandı?!
Yetiş dada, amandı.
Düşmən üstümüzə od tökür,
güllə ələyir,
Vətən şəhid doğur,
Vətən şəhid bələyir.
Sıxıb köksünə
şəhid övladlarını,
Vətən gecə-gündüz
"Övlad" deyə mələyir.
Vətən şəhid doğur,
Vətən şəhid bələyir.
Kim-kimə qəsd edir,
Kim-kimdən qisas alır,
Vətən çörəyini yeyərək
Qoltuqlarda, kölgələrdə dolanır.
Vətən qısır qalır,
Vətən dul qalır.
Cərgələnmiş, şəhid qəbirlərinə,
Vətən həm qürurla baxır.
Həm ağrı ilə.
Məğrur başını

Şəhid oğulların, qızların
Şəhid məzarlarına əyir.
Baxıram dərdim kükrəyir,
Əlimdə qələm titrəyir.
Xaricdən, daxildən
açılan güllələr,
vurulan zərbələr,
öncə igidlərə dəyir,
öncə Vətənə dəyir.

*1994*

**QARA YÜK**

Qarabağ - qara yük,
Neçə aydır, neçə ildir
Kürəyimizədir.
Dərd olub, kədər olub, -
Ürəyimizdədir.
Qarabağ - qara paltar,
Neçə aydır, neçə ildir
Əynimizdədir.
Qarabağ - qara fikir,
Neçə aydır, neçə ildir
Beynimizdədir.
Qarabağ - qara yara.
Neçə aydır, neçə ildir
İçimizdədir.
Onun yası, onun hüzrü,
Neçə aydır, neçə ildir
Qarabağdan qaçqın düşən
Köçümüzdədir.
Bu daşnaq bayquşları,
Daşyanaq ququ quşları
Əvvəl gəldi, qonaq qaldı,
Yurdumuzda yuva saldı.
Deyinmədik, dinmədik.
Axı biz, qəribələrə kömək edən
Yer-yurd verən, dayaq olan
Bir millətik.

İndi bir gözü ağlayan,
Bir gözü gülməyən,
Gözəlliyilə özü öyünməyən
Qarabağı
daşnaq dığaları,
Gecə-gündüz güllələyir.

Axı, düşmənin nə vecinə -
Gözəlliyə güllə dəyir?
Daşnaq oğlu - milçək qurdu,
Qarabağa, içdən zərbə vurdu.
Biz indi gərək,
bu milçək qurdlarından
İçimizi, çölümüzü təmizləyək;
Bir yolluq durulaq,
Bir yolluq təmizlənək,
Bir yolluq təmiz olaq.

## MƏRD, NAMƏRD OĞULLAR

Bu torpağın dərd-səri çox böyükdür,
düşmən – düşməndir: düşmən kimi də
Bu torpaqda qan tökür.
İddiası, iştahası özündən böyük,
Əməlindən böyük, sözündən böyük,
Vəzifə düşgünü, Vətənə dönük,
Övladı da bu torpağa bir yük.
Düşmən - düşməndir, qardaş,
Çöldən dağdır, çöldən talayır,
Bu torpağı, bu elləri.
Nadan övladı, namərd övladı
Sökdü dirəklərdən işıq tellərini.
Sökdü kənd-kəsəyin yaraşıq tellərini,
İşıqsız, yaraşıqsız qoydu
Doğma evlərini, ellərini.
Sökdü dirəklərdən işıq tellərini,
Söndü işıqlar, çökdü qaranlıq gözünə,
Aparıb satdı telləri dəyər -
dəyməzinə.
İşıqsız qoydu doğma evlərini,
ellərini,
Bu torpağın qeyrətsiz,
Nadan, namərd övladı,
Soxuldu oğru kimi, quldur kimi
Babaların, nənələrin anbarına,
Taxcasına, boxçasına.
Əl atdı dövlətinə, varına,
Xalçasını, palazını, misini daşıdı,
Daşıdı yaxşısını, pisini daşıdı,
Qaşınmayan yerdən qan çıxardı,
Pul üçün, var-dövlət üçün
Neçə doğma can aldı, can çıxardı,
Yaxşını-yamanı apardı,
Olub-qalanı apardı

Bu torpağın qeyrətsiz övladı,
namərd övladı.
Bu torpağın yara kimi
Bədəninidə gəzdirdiyi
Azar övladlardan, dərd övladlardan
Xalqına tələ quranlar da tapıldı.
Düşüb talan qarət eşqinə bu gün
Mərd kimi maskalanıb,
Öz xalqını qorxudub, qaçırmaq üçün
Kəndləri, şəhərləri
Topla, qradla vuranlar da tapıldı.
Vəzifə, kürsü davası salıb,
Xocalı əhlini
Qırdıranlar da tapıldı.
Hələ pula-paraya
Satılanlar da tapıldı.
Belə alçaqların, satqınların
Başına, burnuna vuranlar da tapıldı.
"Yan"ları, o zəhərli ilanları
Məğlub edib
Kəndlərdən, şəhərlərdən
Qovanlar da tapıldı.
Bu torpağı gözü kimi
Qoruyanlar da tapıldı.
Torpağa qurban gedib,
Milli qəhrəman
Olanlar da tapıldı.
Doğma torpaq uğrunda
Qəlbində Vətən eşqi,
Ölənlər də tapıldı.
Bu torpağın odu var, alovu var,
Hələ son sözünü deməyibdir oğullar.
İgidləri nərə çəksə ürəkdən,
Dağlar da, daşlar da ayağa qalxar.
Hələ son sözünü deməyibdir oğullar.

## MANQURD OĞLAN

Manqurd oğlan, manqurd oğlan,
Ulu babası Qorqud oğlan,
Niyə manqurd oldun,igid olmadın?
Sən ki, manqurd doğulmadın.
Tamahına olub kölə
Niyə yurd-yuvanı satdın belə?
Qardaşına, dostlarına
Niyə güllə atdın belə?
Niyə satdın ulu, doğma qəbirləri,
Niyə satdın igidləri, ərləri?
Manqurd xislətindən sıyrıl belə,
Namərdliyə, satğqınlığa üsyan elə.
Min babaların qəzəb atına,
Babaların qəzəbindən çapıb keç,
Nənələrin əzabından çapıb keç.
Bir az qəzəb, bir az qeyrət tapıb, keç…
Manqurd oğlan, manqurd oğlan.
Ulu babası Qorqud oğlan, Qorqud oğlan.
Keç bu dünyanın xeyir-şərindən,
Keç sevincindən, keç kədərindən,
Keç gecəsindən, keç səhərindən,
Keç həyatın kef-damağından, keç,
Qisas al düşməndən, yağıdan, keç .
Manqurd olma; igid ol, Bozqurd ol,
Budur Dədəm Qorqud deyən yol.
Əslini, nəslini nə tez unutdun?!
Kinini yedin, qəzəbini uddun…
Tamam unutmusan olub-keçəni,
Kimlər bu günə qoyubdur səni?

Qəzəbli ol, qəzəblərə qatıl sən,
Pələng kimi düşmən üstə atıl sən.
Manqurd oğlan, manqurd oğlan.

Ulu babası Qorqud oğlan,
Kim qarğıdı manqurd oldun?
Yarananda bozqurd oldun,
Doğulanda bozqurd oldun.
Doğma torpağında, doğma elində
Budaq-budaq doğrandın, yonuldun,
Öz yurdundan, yuvandan,
Didərgin oldun.
Düşdü kavır əlinə anan, bacın.
Əsir oldu, yesir oldu.
Şaxta vurdu körpələri,
Dondu buz oldu
Başı əzilməyən dığalar
Vəhşi oldu, quduz oldu.
Oyat namusunu, qeyrətini,
Yandır, məşəl et hünərini, cəsarətini.
Atlan Koroğlunun Qıratına, atlan,
Namusa tapın, qeyrətə qatlan.
Sıyır misrı qılıncı, qından sıyır,
Bir yandan doğra, bir yandan da qır!
Caynağınla didib tök, dişlərinlə
parçala,
Qoyma düşmən, qarı düşmən
Torpağında yurd sala!
Tamahına olma kölə,
Qəzəbini mərmi elə
Yağıya at, dığaya at!
Soydaşına, qardaşına atma, bala,
El-obanı, var-dövlətə, vəzifəyə
Satma bala, satma bala!

## VETERANLAR

Veteran baba,
Veteran əmi,
Veteran dayı,
Veteran ata,
Veteranlar, veteranlar…
Eh, Sizə nə var!
Veteran ata!
Səngərə yata-yata;
Zireh inamla,
Zireh inadla
Zireh qəzəblə
Yeridin
Zirehli düşmən üstünə.
Bu görüşdə,
Bu döyüşdə
Sənin aldığın yara,
Bədən yarası oldu,
Vətən yarası oldu.
Arxa cəbhədə -
Hərb yaşıdlı,
Hərb yaddaşlı,
Hərb damğalı,
Zərif, zəif
Biz uşaqlar;
Silahsız, zirehsiz,
Ayaqyalın, başıaçıq,
Açıq-saçıq,
Vuraraq günü-günə,
Yeridik
Ölüm, aclıq, xəstəlik adlı
Düşmən üstünə.
Qəzəbə, kinə sarıldıq, -
Çörək yerinə, xörək yerinə.

Cımıx-cımıx,
Çiyid-çiyid
Yaşadıq, böyüdük.
Yazda, payızda
Qışda, şaxtada, ayazda
Duman geyindik -
Şəfəq soyunduq.
Şəfəq geyindik,
Duman soyunduq.
Yaşamaq deyildi,
Yaşamağımız da
Palçıqdan,qardan tikildi
Başmağımız da.
Duman-duman,
Şəfəq-şəfəq,
Palçıq-palçıq
Qabıq qoyduq,
Soyulduq.
Siz bədən yarası aldınız,
Siz Vətən yarası aldınız.
Biz mənən yaralandıq.
Biz cismən paralandıq!
Günlər bizi daradı,
Aylar bizi seyrəltdi
İllər bizi aradı: -
Tapıldı tək-tükümüz,
Revmakardit, qastrit,
Nefrit idi yükümüz: -
Çiyid nişanlı,
Cımıx nişanlı,
Şaxta nişanlı…
Görün neçə ildir
Gəzdiririk,
Gəzdirəcəyik də
Əzizləyə-əzizləyə,

Qəlbimizdə,
Gəzdirəcəyik
Sevincimizdə, kədərimizdə
Bu nişanları!
Sizin bədən yaranız,
Sizin Vətən yaranız
Nə yaxşı ki, sağaldı!

## ELOĞLU

Ağır gündə, ağır vaxtda,
Əllərini cilovlama, bağlama,
Əllərini ciblərində saxlama,
Hər addımda işə yarı, gəl vecə,
Zəif, cələf qarı kimi,
Çəkilib
Sakit, rahat bir küncə,
Haray çəkib, ağı deyib ağlama.
Tapın cəsarətə,
Tapın qeyrətə,
Gəl ürəkdən hərəkətə.
Oğul kimi, kişi kimi,
Ağır vaxtda ağır işdən
yapışsan,
Ağır vaxt da,
Ağır işdə yüngülləşər.
Şöhrət özü axtarar, tapar səni,
Şərəf günəş kimi çıxar yoluna.
Bir ana övladı olar eloğlu,
Olar bir xalqın qanadı, qolu.
Bəxt də, yığval da üzünə gülər,
El məhəbbəti, el alqışları
Gül-çiçək olar,
Başından tökülər,
Qədəminə səpilər.

## DÖYÜŞ ZİRVƏSİNDƏ

*/Döyüşdə yüksəkliyi tutan*
*Azərbaycan əsgərinin monoloqu/*

Dağ qülləsi əlimdədir,
Atəş nöqtəsinin
zirvəsindəyəm.
Qeyrət ulu elimdədir,
Ümid, nicat əlimdədir.
Qəddar düşmən, qarı düşmən,
Tozlu çəkmələrlə
Sinəndəyəm.
Budur,
Zirvəyə sancılaraq,
Buludları yararaq,
Başım üstə dalğalanır
Üçrəngli bayraq.
Dostlar, irəli.
Sıyrılın
Qılınc kimi qından,
Atılan ox kimi yaydan,
Bizimdir cəbhə, bizimdir meydan.
Yaxın gəlin,
Çiyin-çiyinə,
Əl-ələ verək,
Gedək irəli.
Bu gün kəsilsin gərək,
Bu gün qırılsın gərək,
Düşmənin Vətənə
Dəyən ayağı,
Uzanan əli.

## ƏBƏDİ ABİDƏ

Yenə Şəhidlər Xiyabanında,
Sızıldar analar, ağlar analar.
Qara geyib, qara bağlar analar.
Şəhidləri öz balası sanar analar.
Ağlayar, sızlayar, yanar analar.
Matəm paltarında,
Matəm heykəli tək
dayanar analar,
durar analar.
Şəhidlərə əbədi abidə
olar analar.

## QARABAĞ BAYATISI

Ulu dağlar, a dumanlar,
Döyüşə getdi cavanlar.
Bacılar oldu bənövşə,
Yollarda bitdi analar.

## YUXULAR RAHAT OLMUR

Bütün gördüklərimiz,
Eşitdiklərimiz,
Uzun-uzun gecələrdə,
Dönüb ağrılara-acılara
dolur yuxulara, dolur yuxulara.
Gecələr yuxular rahat olmur.
Gecələr əsəblər farağat olmur.

Bütün eşitdiklərimiz,
Gördüklərimiz,
görə bilmədiklərimiz,
Dilənçi, ac vətəndaşlar,
Analar, bacılar, qardaşlar,
Dönüb ağrılara, acılara
Gecələr gəlir dolur yuxulara -
Gecələr yuxular rahat olmur.
Gecələr əsəblər farağat olmur.

*1993*

## ZAMAN DƏYİŞİB

*1993-94-cü illərdə bəzi qüvvələr ətrafında cəbhə yaradır, respublikanı parçalamağa çalışırdılar.*

Zaman dəyişib,
İnsan dəyişib,
Yaman dəyişib.
İnsan əsəbləri,
İmkanlı harınların,
Harın
ixtiyar sahiblərinin
əlində çarmıxa çəkilir, -
Əsəblərə turp əkilir.
İnsanlar,
Harınların,
imkanlıların
əlində
topa, tüfəngə dönür,
cəbhələrə bölünür.
İmkanlısan, -
ixtiyar sahibisən,
Deməli, cəbhələşmiş,
top-tüfəng insanları
nə vaxt istəsən,
nə qədər istəsən.
istəmədiyinə
ata bilərsən.
Atan insan,
Atılan insan,
Hədəf də insan
Lənət sənə, kor şeytan!
Zaman dəyişib,
Yaman dəyişib.

***1994***

## QOŞA GƏZDİRİRSƏN

Ana torpaq, ana torpaq
Qəzəbin, kinin yoxdu
Mərhəmətin,
Hikmətin
Daha çoxdu.
Talançını, yabançını.
Soyğunçunu, yalançını
Gəzdirirsən sinən üstdə.

Ana torpaq, ana torpaq,
Qəzəbin yox, kinin yoxdu,
Mərhəmətin,
Hikmətin
Daha çoxdu.
Səni tapdayan canlıları,
Səni talayan caniləri,
İlanları-cəyanları,
Sinəsi zəhər olanları,
Sözü gövhər olanları,
Sinən üstdə bəsləyirsən.
Gəzdirirsən qoşa,
Yedizdirirsən qoşa.
Ana torpaq, ana torpaq.
Sən həqiqi anasan,
Yaxşıya da, yamana da,
Qayğılısan, mehribansan.

## FƏRARİ OĞLANA

*Əsgərlikdən yayınıb qohum-əqrabası ilə Bakıda alverlə məşğul olan oğlan "Qarabağ ermənilərdən azad olmayınca mən kitab oxumayacağam" - deyə arzusunu bildirdi. Əcəb arzudur. Görəsən Qarabağı ermənilərdən kim azad edəcək ki, bu fərari oğlan da kitab oxusun, rahat alver etsin?!*

Hələ daşnaklar gəlməmiş,
Hələ döyüş başlanmamış,
Hələ tuşlanmamış lülələr,
Hələ açılmamış güllələr,
Utanmadan, qızarmadan,
Tüpürüb dabanına,
Qaçdın Qarabağdan,
Fərari oğlan.
Qaçdın yurd-yuvandan,
Qaçdın ulu torpağından,
Çinar kimi mıxlanmadın,
Bu torpağa ayağından.
Qorxu səni qaçaq saldı,
El qızları, gəlinləri,
Əcdadların qəbirləri
Təhqirlərə məruz qaldı.
Qaçdın, çox pis qaçdın.

Sən Qaçanda Qarabağdan
Daşnaqlara yollar açdın
Həm arandan, həm də dağdan.
Heyif səndən, Qarabağ,
Ana Vətən, ulu torpaq!
Bu fərari oğluna bax,
Sənə "canı yanana" bax,

Canındakı yalana bax,
Dərdi alver olana bax.
Yurd-yuvasını  qoyub-qaçıb,
Neçə yerdə dükan açıb,
Bakıda yurd salana bax.

Qarabağdan qaçıb getdin,
Onu yaman bədnam etdin,
Sən də bir vətəndaş idin,
Vətənə bağlı deyildin, -
Ticarətə bağlı idin,
Sənin əlin silaha yox,
Ticarətə sarıldı,
Qarabağın müdafiə xətti
Sən qaçan yerdən yarıldı,
Qarabağ, həmin yerdən alındı.

Qarabağın bağrı qandı,
Gülü qana boyandı,
Ahı ərşə dayandı,
Ölülər də oyandı,
Səndə vicdan oyanmadı.
Daşnaqlar tüğyan etdi,
Qarabağı viran etdi,
Yurd-yuvanı talan etdi, -
Səndə vicdan oyanmadı.
Ticarəti, alveri yox,
Qiraəti qəbahət sandın.
Döyüşən igidlərin, ərlərin
Anasını, bacısını aldatdın.
Hər şeyi ucuz aldın,
Hər şeyi baha satdın, -
Varlandın.
"İstədin" Qarabağın xilasını,
Cəbhədən uzaqlarda
Gəzdin, dolandın.

Qarabağı ər igidlər,
Dığalardan azad edər,
Oxunar Qarabağ şikəstəsi.
Xəcalətdən tökərsən tər.
Hələ hay duşməmiş,
Atdın Qarabağı,
Sən alverçisən,
Alverə də satdın
Qarabağı,
Fərari oğlan.

## DÜNYA XƏBƏRSİZ DEYİL

Dünya gör-götür dünyasıdır,
Dünya ötür-ötür dünyasıdır.
Görüləndən, götürüləndən,
Alınandan, ötürüləndən,
Dünya xəbərsiz deyil.

Dünyanın xəbəri özündə qalar,
İz düşər - izlər üzündə qalar,
Kölgəsi, işığı özündə qalar,
Nağıl olar: - yaxşı-yaman olar,
Hər şeyi bilən, duyan olar.
Demə dünya xəbərsizdir.

Qocadan tutmuş, çağaya kimi,
Nökərdən tutmuş, ağaya kimi,
Ağacdan tutmuş, yarpağa kimi
Hər şey dünyanın hesabındadır.
Cəmlənir, cəmi yadından keçir
Demə dünya xəbərsizdir.

Gəlimli-gedimli bir nizamı var,
Xeyir-şəri, yaxşı-pisi nizamlar,
Dayazı dərinlər, dərini dayazlar,
Hər şeyi sahmanlar, yerinə qoyar.
Elə bir nizamı-intizamı var,
Onun nizamını fələk də pozmaz.
Dünya, dünyasından xəbərsiz deyil.

## OĞULLUQ BORCU

Mən də, sən də,
Bir Vətənin övladlarıyıq.
Övlad da olmalıyıq
Vətənə layiq.
Sabah Vətən
"Haray" deyib,
"Cihad" deyib çağırsa,
Biz ilkin hay verməliyik,
İlk cərgələrə
ilkin getməliyik.
Cihad da, cihaddı ha,
Başqa söhbət olmaz daha.
Oğul ana çağırışından,
Çəkinməz, qalmaz daha.
Mən cihadda olsam şəhid.
Sən olarsan onda şahid.
Mən oğulluq borcunu
Verərəm,
Sən vətəndaşlıq borcunu -
Düşün bunu, bil bunu.

## NƏ ETİBAR, NƏ İNAM

*"... dünya yalan dünyadı "*
*Şəhriyar.*

Bu dünyada nə etibar, nə inam,
Həyat ani bir məqamdı, bir məqam.
Hanı, – vardı atam, var idi anam?
Çətin mən də bu dünyaya inanam…
"Dünya yalan, dünya yalan dünyadı" -
Həyat verən, həyat alan dünyadı.

Yaranmışıq təki bizi yaşada,
Yaşatmağa yaranmışdır dünya da.
Hardan peyda olur bu qan, bu qada?
Tanrı baxmır ərşə çıxan fəryada.
"Dünya yalan, dünya yalan dünyadı",
Həyat verən, həyat alan dünyadı.

Dünya ulu, dərd özü də uludur,
İnsan oğlu tanrımızın quludur.
Ölüm-itim özü dünya yoludur.
Həyatımız təzadlarla doludur.
"Dünya yalan, dünya yalan dünyadı",
Həyat verən, həyat alan dünyadı.

Heç deməyin insan ömrü azalıb,
Taleyimiz doğulandan yazılıb,
Qəbrimiz də həmin gündən qazılıb,
Gələn - ömrə, gedən qəbrə yol salıb.
Həyat verən, həyat alan dünyadı.
"Dünya yalan, dünya yalan dünyadı",

## TƏKLƏNMİŞƏM

Bir yeni dövlət qururam,
Dünyada təklik duyuram.
Hər tərəfdən sıxırlar,
Vururlar, yıxırlar,
Mən yenidən dururam,
Dünyada təklik duyuram.
Düşmən başımın üstünü alıb,
Əllərim tanrıya uzalı qalıb.
Arzuların arxasından,
Dünyanın-dunyasından,

Dünyanın yaxasından,
Qaçqınların arasından
Əllərim tanrıya uzalı qalıb.
Düşmən başımın üstünü alıb,
Sevincimin, ahımın,
Savabımın, günahımın.
Dostumun, sirdaşımın,
Qaçqın bacı-qardaşımın,
Başının üstdən
Əllərim tanrıya uzalı qalıb,
Düşmən başımın üstünü alıb.
Çox işdə tutduq boşunu,
Sevdik qəddar qonşunu,
Bizi yurdda qıran qonşunu.
Bizi yurddan  qovan qonşunu.
Əllərim tanrıya uzalı qalıb,
Düşmən başının üstünü alıb.
İndi bu talan Vətənin,
Odlanıb yanan Vətənin,
Torpağının, daşımın üstdən,
Qurusunun, yaşının üstdən,

Şəhidlərin başının üstdən,
Əllərim tanrıya uzalı qalıb
Düşmən başımın üstünü alıb.
Bəs mənim, günahım nədi?
İçim-çölüm döyənəkdi,
Tanrıya gedib çatmayan,
Fəryadım, ahım nədi?
Arzularım göyərmədi,
Göynəyirəm, hey yanıram.
Məni tanrı eşitmədi,
Mən ki, tanrı adamıyam.
Əllərim tanrıya uzalı qalıb.

## HƏQİQƏTİ UNUDANLAR

*Lissabon Sammitində Prezidentin uğurlu addımlarını alqışlayıram. Vətən mənafeyini qorumaqda iqtidara qarşı müxalifətdə durmaq lazımdır, lakin Vətənin müstəqilliyi uğrunda gecə-gündüz, canla-başla çalışan prezidentimiz HEYDƏR ƏLİYEVƏ qarşı iftira demək ən azı İnsafsızlıqdı, günahdı, Vallah.*

Bu dağa dağlar güvənir,
Düşmən ayağına enir.
Hünərini inkar edir, -
Həqiqəti unudanlar.

Vətən ona arxalanır,
Zirvələr zirvəsi sanır.
Durub kənarda boylanır,
Həqiqəti unudanlar.

Müxalifət nə istəyir?
Həqiqəti desin bir-bir.
Bəs niyə iftira deyir, -
Həqiqəti unudanlar.

Xeyir işə şər deməyin,
Axan qana tər deməyin,
Günəşi pərdələməyin, -
Həqiqəti unudanlar.

İnsafı əldən verməyin,
Şənlikdə qara geyməyin,
Siz ağa qara deməyin, -
Həqiqəti unudanlar.

İşıq yolun bağlamayın.

"Göydə günəşi danmayın".
Həşir-fəryad qoparmayın,
Həqiqəti unudanlar.

Həqiqət ləkə götürməz
Düşən işıq geri dönməz.
Üfürməklə Günəş sönməz, -
Həqiqəti unudanlar.

Dağlar dağın əymək olmaz.
Zirvəsinə dəymək olmaz.
Dağa təpə demək olmaz,
Həqiqəti unudanlar.

Böyük işi yerə vurmaq.
Yaxşılara tələ qurmaq,
Sonra iftira uydurmaq.
Ən azı günahdı, Vallah,
Həqiqəti unudanlar.

## ZAMAN KİMİDİR

Metro eskalatoru da
Zaman kimidir.
Kimini yerə salır,
Kimini yerdən qaldırır.

## ÇİÇƏK MİNNƏTİ

Çiçəklər şəfəqdən yapışıb qalxır,
Nəmli gözlərilə dünyaya baxır.
Çiçəklər, çiçəklik həyatı üçün,
Günəşə təşəkkür eləyir hər gün.

# ÖZÜMƏ QAYIDIRAM

## DÖZÜLMƏZ OLUR

Hər kəsin öz arşını var,
Bildiyi kimi,
başa düşdüyü kimi,
Həyatı, zamanı arşınlar
Atam balası, qardaşım.
Zaman buna görə
Ölçüyə gəlməz olur.
Dünya buna görə
Düzəlməz olur.

## GECƏ YANIMDADIR

Gecə – bu gecə də yanımdadır,
Həmdərd, həmsöhbət olmuşuq.
Yad deyilik bir-birimizə,
Biz elə bil gecədə doğulmuşuq.
Elə o gecədən,
Həmdərd, həmsöhbət olmuşuq.
Gecə – bu gecə də yanımdadır.
Açmıram gözlərimi, qorxuram
Açılar səhər,
Oyanar şəhər,
Gecə məndən uzaq duşər.

## ÜZÜ GÜNƏŞƏ

*Məhəmməd Füzuliyə*

Üz tutub, üzü Günəşə gedirəm,
Günəş işığı üzümə düşür,
Günəş işığı gözümə düşür.
Günəşlə görüşə gedirəm.
Günəş - həyat, işıq mənbəyi,
Günəş - kainat, əbədi.
Əbədiyyətə yol gedirəm.
Əbədiyyət, - yer, göy, həqiqət,
Həqiqəti ziyarətə gedirəm.
Günəş – günəş boyda məhəbbət,
Üz tutub, üzü məhəbbətə gedirəm,
Üz tutub, üzü həqiqətə gedirəm.
Ay ellər, uğur olsun deyin,
Əbədiyyəti - ziyarətə gedirəm.

## İNSAN

Həyat burulğandı, atıb ömrünü,
"Bir dəli at kimi çapıb" ömrünü,
Böyük qayğılara qatıb ömrünü,
Ömür yollarında  yorular insan,
yorular insan.

Yolunda yol boyu ədalət gəzər,
Xoşbəxtlik axtarar, səadət gəzər,
Sevib-sevilməyə məhəbbət gəzər,
Zəhmətə qatlaşar, dərdlərə dözər,
Dərdləşə, dərdləşə durular insan,
durular insan.

Zaman dəyanətdən salanda - dəhşət,
Qocalıq canını alanda - dəhşət.
Dünyada tək-tənha qalanda - dəhşət;
Fikirdən qovun tək yarılar insan,
Dartınar, gərilər ömür qaytanı,
Kim bilir nə zaman, nə vaxt, harada
Qırıla-qırıla, qırılar insan,
qırılar insan.

## FİKİRLƏR GƏZİR

Başımda nə qədər fikirlər gəzir,
Gəzir pələng kimi. Gəzir şir kimi.
Ölü fikirləri, diri fikirlər.
Yuyur, qüsullayır mürdəşir kimi.
Gəzir pələng kimi, gəzir şir kimi.

Çıxdaş fikirləri, çağdaş fikirdən,
Gecə də, gündüz də xəlbirləyirəm.
Hasil bazarından mal bazarına,
Fikir gətirirəm, söz ələyirəm.
Gecə də, gündüz də xəlbirləyirəm.
Fikir burulğanı vardır başımda,
Çalxalanıb-çalxalanıb durulmalıyam.
Zamanın nəbzidir barmağım altda,
Dünyanı barmaqdan qorumalıyam.
Çalxalanıb-çalxanıb durulmalıyam.

## QÜTBLƏRİM

İki çiynim, -
Solum-sağım,
Göyü göydə saxlayan
İki dayağım.
İki çiynim -
Qərbim-Şərqim, -
Ögeyliyim-doğmalığım …
Şərqdə mənə
doğma millət,
doğma adət.
Şərqdi mənə doğma cəhət.
İki çiynim, -
Sağım-solum;
Tarazlıqdan
Keçir yolum.
İki çiynim, -

Bir ömrün
iki paraleli,
iki meridianı:
İki mələyin görüş yeri,
duruş yeri, - meydanı.
Çiynim-çiyinlərində,
Göyü-göydə saxlayar,
Hay deyəndə,
Qərbi-Qərbdə,
Şərqi-Şərqdə haqlayar,
Yeri-Göyü - bu dünyanı
tarazlıqda saxlayar,
İslam çiyinlərim,
Türk çiyinlərim.

## PARALEL YOLLAR

Sənin öz yolun var,
mənim öz yolum.
Yolumuz, yol boyu
kəsişən deyil.
Bizim yollarımız
görüşən deyil.
Nə olsun bir dövrün
övladlarıyıq.
Nə olsun bir vaxtda,
addımlayırıq.
Bu yer kürəsində,
Mən bir meridian.
Sən bir meridian.
Qoşa taleyimiz, -
qoşa paralellər.

Nə vaxtsa,
haradasa
kəsişən deyil.
Yolumuz, - yol boyu
görüşən deyil.

## ÖZÜMƏ QAYIDIRAM

Özüm, özümə qayıdıram,
Öz sözümə qayıdıram.
Söz mənim arxamdır,
Sözə arxalanıram,
Söz arxama qayıdıram.

Yaxamı sözə vermişəm,
Söz-söz közərmişəm.
Arxalandığım sözdən
Sevinc də, kədər də görmüşəm.

İndi arxalandığım sözə,
Sarılmağa gəlmişəm.
Sözdən söz, almağa,
Sözdən söz, salmağa gəlmişəm.

## DÜNYA HƏMİN DÜNYADIR

*"Dünya həmin dünyadır" kitabının sponsorları "Qaraqaya" assosiasiyasının Prezidenti Sədrəddin bəyə və "Qaraqaya" Bankının İH sədri Həsənağa bəyə ithaf edirəm.*

Qocalırıq bükülürük,
İlmə-ilmə sökülürük.
Yarpaq-yarpaq tökülürük,
Dünya həmin dünyadır.

Ulduz-ulduz doğuluruq.
Böyüyüb günəş oluruq.
Bir gün də taraş oluruq,
Dünya həmin dünyadır.

Kimi dahi bir "mən" olur,
Kimimiz də "mən"dən olur,
Yerdən olur, göydən olur.
Dünya həmin dünyadır.

Həyat karvan, - son görünməz,
Gedər, gedər geri dönməz,
Ömür sönər, əməl sönməz
Dünya həmin dünyadır.

Bəslənirik illər ilə,
Dənlənirik günlər ilə,
Ömür gəlib gedər belə
Dünya həmin dünyadır.

Gəlişimiz gələr saya,
Gələn gündən bu dünyaya.
Qurşanıb Günəşə, Aya
Öz yerində saya-saya
Dünya həmin dünyadır.

## XEYİRXAH ADAMLAR

*"Dünya həmin dünyadır" kitabının sponsorları*
*"Qaraqaya" assosiasiyasının Prezidenti*
*Sədrəddin bəyə "Qaraqaya" Bankın İH sədri*
*Həsənağa bəyə və Salman Salmanov*
*cənablarına ithaf edirəm.*

Hərdən-hərdən
Qəfil yerdən
Xeyirxah adamlar
Ya yerdən, ya da göydən
Gözlənilmədən
Peyda olur,
Peyda olur.

Səadət gen düşəndə,
Fəlakətlə görüşəndə,
Haqq nahaqdan ilişəndə
Gözlənilmədən,
Ya yerdən, ya da göydən
Xeyirxah adamlar
Peyda olur.

Allahın zülm işidimi,
Tale gərdişidimi,
İş olum-ölüm işidimi,
Gözlənilmədən
Qəfil yerdən,
Tanrı açar qapıları,
Xeyirxah adamlar
Peyda olar, peyda olar.

## TƏZAD

Qəbristanda dəfn etdilər
Əziz bir adamı.
Qəmli, kədərli
Göründü hamı.
Ürəklər ağladı-sızladı,
Axdı acı-acı göz yaşları.
Gələnlər
Mərhumun qohumlarına
Təsəlli verdilər,
Xoş söz dedilər,
Səbr dilədilər, "döz" dedilər.
Döndülər hüzr yerinə,
Ehsan da yedilər.
Dəyişdilər sözü-söhbəti,
Yada salıb milləti
Danışdılar qiymətlərin
Sürətlə artmasından,
Alverin
Hərc-mərclik yaratmasından,
Kiminsə küçədə dilənməsindən,
Kiminsə küçədə yatmasından.
Çox dedilər, danışdılar,
Millətə
Qayğı ilə yanaşdılar.
Bir xoş sözdən sevindilər,
Durub şənliyə də getdilər.
Sonrakı söz-söhbətdə
Daha çəkilmədi
Mərhumun adı…
Həyatı tarazlayır
Həyatın bu təzadı.

## MƏN OVAM, FİKRİM OVÇU

Mən bir ovam, fikrim ovçu,
Yataq bərə,
Ov oluram fikirlərə.
Fikir ovçu, ovçu fikir
Yatdığım yerdə, elə yataqdaca,
Yarı oyaq, yarı yuxulu
Ovlayır məni.
Yataqdaca yuxulu-yuxulu
Tovlayır məni.
Durum onu yazım, ondan yazım.
Yazmasam, o gecə yata bilmərəm.
Gündüz, günorta çağı,
Əli çıraqlı axtarsam,
Tapa bilmərəm.
Ovçu fikir, gündüz günorta çağı,
Dünyanın qarma-qarışığında.
Ya bir yarpaq altında,
Ya da ki, gün işığında
Qaçıb gizlənər.
Ha fikirləş,
Ha axtar ki, başına gələr.
Allah bilir, haçan, hansı gecə
Ovçu fikir bir də
Məni ovlamağa gələr.

## DAHA BUNUN NİYƏSİ YOX

*"Daha bunun niyəsi yox"*
***R.Rövşən***

Məqam üstə qurulmuşam,
Bulanmışam, durulmuşam,
Məqamlardan yorulmuşam,
Daha bunun niyəsi yox.

İndi elə zamandayıq,
Zaman-zaman amandayıq.
Əzrailin yanındayıq,
Daha bunun niyəsi yox.

Zaman bizim - məqamımız,
Biz zamının - məqamıyıq.
Ömrün, günün inamıyıq,
Daha bunun niyəsi yox.

Od da, su da məqamdadı,
Yas da, toy da məqamdadı
Əcəl - pişik oyundadı,
Daha bunun niyəsi yox.

Həyat vardı, ölüm də var,
İndi ömrə yox etibar.
Sağlığında qazdır məzar,
Daha bunun niyəsi yox.

*1995*

## MƏN UŞAQ OLMAMIŞAM

Mən uşaq olmamışam,
Heç uşaq doğulmamışam.
Öldür məni,
Uşaqlığım yadıma gəlmir.
Ayrılıb günlərdən, illərdən,
Ad günüm adıma gəlmir, -
Uşaqlığığm yadıma gəlmir.

Mən necə uşaq olmuşam -
Yadıma gəlmir.
Bəlkə göydə doğulmuşam,
Böyümüşəm, böyük olmuşam,
İlahi bir "zənbildə"cə
Göydən enmişəm,
Yadıma gəlmir.

Uşaq doğular, ad günü olar,
Dostları gələr, qeyd olunar.
Mən, məncə uşaq olmamışam.
Mən heç uşaq doğulmamışam.
Müqəddəs göy altında, yer üstündə,
Dünyanın gəlimli-gedimli
köksündə
Ayrılıb günlərdən, illərdən,
Ad günüm adıma gəlmir,
Uşaqlığım yadıma gəlmir.

## ƏSİL CƏNNƏT

Nazlı, nəzaktli qadın,
Həyalı, ismətli qadın
Elə bir şahlıq quşudur,
Hər igidin, hər kişinin
Çiyninə qonmaz, qonmaz.
Əsil cənnət elə budur,
Qanmayan qanmaz, qanmaz.

Belə gözəl varsa əgər,
Ömrə-günə yarsa əgər,
Ürəkdə dərd də əriyər,
Yox olar qəm-qüssə,  kədər.
Əsil cənnət elə budur.
Qanmayan qanmaz, qanmaz.

## DİŞ AĞARDAN, DİŞ QICAYAN GÜNLƏRİM

İlahi, gör necə də
Diş ağardan, diş qıcayan
Günlərin arasındayam.
Gecə kimi, səhər kimi
Sevinc kimi, kədər kimi,
Mənimlə daban-dabana gələr,
Mənimlə daban-dabana gəzər,
Mənə diş qıcayan bu günlər.
İlahi, aylarla, illərlə,
Bax beləcə,
Ümid edib bir sevincə,
Ömrü yarı eləmişəm.
Günləri dən kimi mən
Xəlbirləmişəm,
Ürəkdən sevinən, gülən
Günləri
Tək-tək görmüşəm.
Olub bir sıra günlərim,
Olub misra-misra günlərim,
Üzümə gülən, dərdimi bilən,
Hərdən-hərdən.
İlahi, həvəsdir, bəsdir,
Al məni,
Diş qıcayan günlərdən al,
Al məni,
Diş qıcayan illərdən al,
Diş ağardan günlərin, illərin,
Yoluna sal. Mən də insanam,
Olub mənim də anam.
Üz tutmuşam sənə Allah,
Gətirmişəm sənə pənah,

Bu xalqı, bu milləti,
Yordu daha şəhid vermək,
Yordu daha yasxanalar,
Ver bizə, bağışla bizə
Şən günlər, xoş illər
Qurulsun toyxanalar,
Çalınsın toylar.

## ÇIRAQLI BAXIŞ

*Qardaşım Baxış Çıraqlının*
*əziz xatirəsinə*

Mənalı bir ömrün
gününə,
    ayına,
        ilinə
alqış,
Çıraqlı Baxış.
Cismin torpağa,
Soyadın mərmər daşa
uyuşdu.
Ruhun
Quş oldu uçdu,
doğmalara qovuşdu,
Çıraqlı Baxış,
Alqış mənalı bu ömrə
alqış.
Səksən dörd bahar gördün,
Səksən dörd də qış.
Həkim, şair, publisist
Baxış.
Uzun mənalı bir ömrə alqış.
Həyatda sən
Baxış ata,
Baxış qardaş,
Baxış yoldaş
oldun bizə.
Əlac etdin,
məlhəm qoydun
dərdimizə
Bir qardaş idin -
mehriban, həlim,
Baxış Çıraqlı, -
Baxış müəllim.

## KÖLGƏM

Dan sökülür,
Günəş doğur,
Dünya sevinir,
Dünya gülür,
Dünyaya,
Dünya boyda nur tökülür.
Üzü Şərqə, üzü Günəşə
dayanmışam.
Zər şəfəqlər üzümə düşür.
Üzüm-gözüm nurlanır,
Cismim cana gəlir, oyanır.
Əynimdən paltar kimi sürüşür
Kölgəm arxamda yerə düşür.
Mənə boylana-boylana
Uzanır, uzanır -
beş dəfə, on dəfə
Boyumdan uzun olur.
Gün çatır günortaya
kölgəm qısalır;
Boyumdan qısa qalır.
Həyat coşur, qaynayır,
Həyat günlə oynayır,
Həyat varla əlləşir.
Zəhmətin sərvətləri
Kölgəm üstə cəmləşir,
Kölgəm üstə qalanır.
Axşam düşür,
Yenə arxam Qərbə,
üzü Şərqə dayanmışam.
Kölgə üzümə düşür,
üzüm-gözüm kölgələnir,
Kölgə paltar kimi sürüşür,

qarşımda yerə düşür, -
Uzanır, uzanır, -
beş dəfə, on dəfə
boyumdan uzun olur.
Kölgəmi dabanlayıram,
dabanından basıram.
Kölgəm dolanıb boynuma,
boyum kölgəmdən asılır,
Cismim möhür təki
Kölgəmin üstə basılır.
Kölgə uzanır, uzanır
üfüqə sarı.
Sərilir, qucaqlayır torpağı.
Günəş məndən arxada qalır,
Budaqda tənha qalmış
Xurma təki saralır.
Günəş batır,
kölgə tağından qopur,
düşdüyü, sərildiyi
torpağa hopur,
kölgə yox olur.

## QƏLBİMƏ DƏYDİ

O, qəlbimə dəydi,
qəddini əydi.
Silkələndi ürəyim,
külək dəymiş
yarpaq kimi.
İçimdə üsyan yarandı,
üsyan, üsyan, üsyan!..
Bu səsdən,
bu sədadan
Qəzəbləndim,
İçim oyandı.

O, qəlbimə dəydi,
Qəddimi əydi.
ürək silkələndi,
Külək dəymiş yarpaq kimi.
Şimşək çaxdı əsəbimdə.
Qığılcım qalxdı,
İşığı dalğa-dalğa
Hər yana axdı.
Göz varıdı, qamaşdı,
Göz varıdı, alışdı,
İçimdə üsyan yaratdı.
Üsyan, üsyan, üsyan!
Bu səs,
Bu səda
Yatmış əsəbləri,
duyğuları oyatdı.

## DÜNYA KORLANIB

Bu dünya nə yaman korlanıb, Allah,
Ölənlər çox olub doğulanlardan.
İqtidar dəyişir, qurum dəyişir,
Siyasət əl çəkmir ağ yalanlardan.

Vəzifə kürsüsü - şeytan kürsüsü;
Orda kim əyləşir - şeytana dönür.
Xalqın əllərilə yüksələn adam
Yurdunu şumlayan kotana dönür.

Bəlkə də kənardan çox güclü əllər
Belə kürsülərə rəhbərlik edir.
Rəhbər çubuğunun bir himi ilə
Kürsüyə gələnlər, kürsüdən gedir.

Şöhrətdən kor olur onun gözləri,
Gözü ayağının altını görmür.
Sonradan bilinir: -  bu zatıqırıq
Vətəni, xalqını,zatını görmür.

"Xalqım" deyə-deyə kürsüyə qalxan,
Xalqını talayan quduza dönür,
Kürsü savaşında uduzan kimi
Dahilik ulduzu bir yolluq sönür.

*1993*

## SAHİBLİ SAHİBSİZ MƏZARLAR

Doğuldu, taleyi üzünə güldü,
Böyük qayğıların nuruna düşdü.
Yolunun üstündən sədlər söküldü,
Taleyi bir ömür üzünə güldü.

Bir ömür yaşadı qəmsiz, kədərsiz,
O çəkən kefləri çəkən olmadı.
Kef də kef idi - sonsuz, qədərsiz,
Belə məclislərdən bir gün qalmadı.

Sağlığı qayğılı, öldü qayğılı,
Qayğıya qərq olub qəbir daşı da.
Sahibsiz kəslərin, sahibsiz qəbri
Görməyib qayğı da, heç göz yaşı da.

Sahibli kəslərin, sahibli qəbri,
Mərmərə bürünüb, çəpərlənibdir.
Sahibsiz qəbirlər itib-batıbdır,
Kor bəbək tək çöküb, kədərlənibdir.
İlahi, bu fərqi sənmi yaratdın?
Məzar da sahibli, sahibsiz olur.
Sahibli məzarlar təm-tarağında,
Sahibsiz məzarlar batıb, boğulub.
Məzar da sahibli, sahibsiz olub.

## BU YOL SƏNİN
## YOLUN DEYİL

Bu yol sənin yolun deyil,
Bu yol səni yoldan edər,
Yolda yolun olar hədər.
Addımını izlər kədər,
Bu yolu getmə.

Bu yol sənin yolun deyil.
Səni-səndən çıxarar,
Səni-səndən qoparar,
Uğursuz səmtə aparar,
Bu yolu getmə.

Bu yol sənin yolun deyil, -
Labirintdi, sonlu deyil,
Gəl izini bu yoldan sil,
Bu yol sənin yolun deyil,
Bu yolu getmə.

Bu yol sənin yolun deyil,
Yolların düzünə qayıt,
El yolunun özünə qayıt.
Axtar, tap öz yolunu,
Öz yolunla özünə qayıt.
Bu yol sənin yolun deyil,
Bu yolu getmə.

## HƏLƏ BİLİNMİR

Hələ dünya ilə halallaşmamış,
Hələ yurd salıb qərarlaşmamış,
Gəzir, gəzir bir ovuc torpaq.
Tərtər, Bakı, Xaçmaz arasında.
Gəzir öz yolunda,
öz izində
öz köçündə.
Gəzir ruhu içində
Gəzir qəbri içində.
Haçansa bir ovuc torpaq,
Tabuta dolacaq,
dünya onsuz,
O dünyasız olacaq.
Qibləyə üz tutan qəbrin,
Bir əbədi yeri, yurdu olacaq.
Başının üstündə ruhu olacaq.
Başdaşı qəbrə,
Ruh başdaşına gözətçi olacaq.

Gəzir, gəzir bir ovuc torpaq,
Tərtər, Bakı, Xaçmaz arasında.
Ya Tərtərdə, ya Bakıda, ya da ki,
Xaçmazda
Qərar tutub duracaq.
Yeri, yurdu məlum olacaq.
Gəzir bir ovuc torpaq,
Dünyanın suyunu içir,
Dünyanın çörəyini yeyir,
Otunu biçir;
Havası ilə nəfəs alır,
Tərtər, Bakı, Xaçmaz arası.

Gəzir bir ovuc torpaq,
Gəzir ruhu içində.
Gəzir qəbri içində,
Gəzir öz yolunda öz köçündə.
Özü-öz içində
Özü-öz içində gəzir.
Ömrünün köçündə gəzir.

# SƏBR ELƏ

## BƏD NƏFƏSDƏN, BƏDNƏZƏRDƏN QORXURAM

Qabaqcadan, vaxtından əvvəl,
Bir xeyir xəbəri verməsəm,
Nə məndən inci,
Nə məndən küs;
Nəfəs götürməmək
Göz götürməmək
Pis olur, pis.

Bir xoş xəbəri, xeyir xəbəri,
Qabaqcadan, vaxtından əvvəl,
Xəbər verməyə
Qorxuram, qorxuram, inan.
Nəfəsdə olanları,
Gözdə olanları
Gözüm görübdür.
Görə-görə,
Bədnəfəsdən, bədnəzərdən
Qorxuram, qorxuram yaman.

Bədnəfəs, bədnəzər bəd olar,
Bəd nəzərə gələndə,
Sevgidə də
nifaq olar, kədər olar, dərd olar.

Nə deyirəm,
Təki xeyir xəbər olsun,
Təki xoş xəbər olsun;
Onu vaxtından əvvəl
Demək də olar, deməmək də olar.
Deməsəm, daha tez, daha yaxşı,
Daha müstəcəb olar.

## DƏRDİ İKİYƏ BÖLMÜŞÜK İNDİ

Bu qəmli görkəmin,
Dərdli görkəmin
Məni, - məndən qopardı.
O dərdli, o qəmli
Aləminə apardı.
Dindirdim,
Kaş dinməyəydin.
Kədərli danışdın
Kədərli dindin,
Arzuları bitirməyən,
Ömür boyu gətirməyən,
Taledən gileyləndin,
Bəxtin haqda deyindin.
Axı mən nə edə billəm,
Mən ki, Allah deyiləm,
Qüdrət sahibi olam,
Hikmət sahibi olam,
Taleh dəyişəm,
Yenidən yazam,
Yenidən quram,
İstəyirəm, bacarmıram.
İstəsəm də bacarmaram.
Dindirdim,
Kaş dinməyəydin,
Dərdimin üstünə
bir dərd gətirdin.

Dünən tək sənin idi,
Çəkdiyin bu dərd,
Bu gün həm də mənimdi.
Bu dərdi ikiyə
bölmüşük indi.

## BU DÜNYA

Üz qoymayıb üzümüzdə,
Üzümüz talanıbdır.
Nur qoymayıb gözümüzdə,
Gözümüz talanıbdır.
Olmuruq özümüzdə,
Özülümüz talanıbdır,
Tab qoymayıb ömrümüzdə,
Ömrümüz talanıbdır.
İndi
Allaha şükür,
Müstəqil Dövlət olduq.
təzədən doğulduq.
İndi
Sevinc ürəyimizi
Ələ alıbdır.
İndi
Allahlıq da,
Bəndəlik də
Özümüzə qalıbdır.

## YIXILA-YIXILA BÖYÜDÜ UŞAQ

Yıxıla-yıxıla böyüdü uşaq,
Böyüyə-böyüyə yıxıldı uşaq.
Uşaq uşaqlıqdan yıxıldı,
Ayağa qalxdı, böyüdü.

Yıxıla-yıxıla böyüyən uşaq,
Böyüklükdən yıxıldı bir gün,
Daha dura bilmədi,
Özü yıxıldığı üçün
bu böyük uşaq,
Ağlamadı, dinmədi.

## UŞAQ GƏLİR DÜNYAYA

Uşaq gəlir dünyaya,
Yeni nur gəlir, işıq gəlir,
Bir uşaq boyda yaraşıq gəlir
dünyaya.
Gözün aydın, Vətən!
Yeni yurddaş gəlir,
Vətəndaş gəlir.
Gəlir, -
Tanrı sirridir, möcüzəsidir.
Eşidin, bu gələn səs də
Yeni möcüzənin səsidir.
Ona - gələcəyimizə
Baş əyməliyik.
Uşaq xoş gələcəyimiz;
Gələcəyimizi
Onda
Öyrənməliyik.

## İKİ YOL AYRICINDA

*Cərrahlara*

Ömrün tükdən asılı vaxtı
Şah da unudar tacı-taxtı.
İstəsən də, istəməsən də
Axır bir gün gəliib sən də
Dayanarsan "olum-ölüm" arasında -
Dayanarsan Əzrayılın darvazasında.

Həyatın bir tükdən asılı qalar,
Qorxu da ömrünü çapar, talayar,
Diriykən ölümü görərsən onda.
Dayanarsan iki yol ayrıcında;
Bir ayağın burda,
Bir ayağın gorda.
Taleyi bir tük həll edər onda.
Tük qırılsa, o dünyada - gordasan.
Qırılmasa, "gözün aydın", - burdasan.
Demək yenə evində-eşiyindəsən,
Yenə bir ömrün keşiyindəsən.

## VƏZİFƏLƏR

Vəzifələr də,
köhnəlmiş, çürümüş
ağac pillələr kimidir.
Dayaqları laxlamış, nimdaş
kürsülər kimidir.
Vəzifələr də,
metro eskalatoru kimidir.
Sirli əllər tərəfindən
toxunmuş,
Gözə görünməyən,
Hörümçək toru kimidir.
Qəfil açılan güllələr kimidir.
Qəfil üzə dəyən sillələr kimidir.
İndi kefinə bax, -
güllələnmək,
sillələnmək,
Ya da qəfil ölmək istəyirsənsə,
Haydı tələs vəzifəyə.

## SƏBR ELƏ

*Xoşbəxtliyi gecikən qızlara*

Bacımsan, qızımsan;
səbr elə.
Həyat olmaz elə-belə,
Axı dünya qalmaz belə.
Fikir eləmə,
qəm yemə,
taleyinə kəm demə.
Geci-tezi var;
gün gələr,
bəxt üzünə gülər.
Sevgin qəflətən
dil açıb dinər.
Həyatın təzə-tər
yarpaqlar onda,
Sənin də məhəbbət
budaqlarında
Sevgin çiçəkləyər,
sevgin bar yetirər.
Gec də olsa,
bəxtin gətirər.
Darıxma,
bacım, qızım,
səbr elə,
Həyat olmaz elə-belə,
Axı dünya qalmaz belə.

## ZAMAN BİZİ XƏLBİRLƏYİR

Sən, dediyini de,
Sən, yazdığını yaz,
kiminə gələr dərin,
kiminə gələr dayaz,
kiminə xoş gələr,
kiminə pis.
Yazdığın yazı,
Oxuduğun avaz.
Sən, dediyini de,
Sən, yazdığını yaz,
zaman gələr,
yaman gələr.
Hər şeyi ələr,
Hər şeyi xəlbirlər.
Zaman-zaman, yavaş -
yavaş.
Kimsə yararlı olar,
Kim isə çıxdaş.

## SEVGİ DƏRDİ

Bu qız, məni - mən elədi,
Bu qız məni - məndən elədi.
"Xəta" etdim, sevdim bu qızı,
Sevgini mənə dərd elədi.
Sevdiyini pünhan edən bu qız
Sevgisini qova-qova
Sevgilisini mərd elədi.

## QAÇAR

Batdın-batmadın günaha,
Yalvar Tanrıya – Allaha,
Heç işin düşməsin
dosta, doğmaya.
Bir gün qalanda naçar,
Doğma, doğmalıqdan,
Dost, dostluqdan qaçar.

* * *

Səddi aşmayaq,
Əbədi dost olaq, mehriban olaq.
Saxlayaq arada müqəddəsliyi,
Müqəddəs dost olaq,
Müqəddəs qalaq.

## NECƏ TUTUR BİR ƏLİNDƏ

Su da bu torpaqdadır, duz da,
Od da bu torpaqdadır, buz da,
Dərman da bu torpaqdadır, dərd də,
Mərd də bu torpaqdadır, namərd də,
Suyu da, duzu da,
Odu da, buzu da,
Dərmanı da, dərdi də,
Mərdi də, namərdi də
Torpaq - ulu torpaq
Necə tutub bir əlində?

**AĞRIDAN SÖZ DOĞULDU**

Ağrıdı, başım, ağrıdı.
Ağrıdı bir gün, bir gecə,
Sən demə sözə boylu beyin
Sözə ağrı çəkir.
Ağrıya-ağrıya ağrı söz çəkir,
Söz də ağrı çəkir.
Ağrıdan söz doğuldu,
Bu gün, bu saat, elə indicə
Yox oldu ağrı, ağrı döndü sevincə.

## KİMSƏSİZ YERDƏN

Gördüklərimi
bir daha
görməmək üçün
məcburam
Üzümə üz tutub
keçəm küçələrdən.
Ya da keçəm
keçidi olmayan
kimsəsiz,
insansız bir yerdən.

## ARTACAQ GÜCÜ

Bir uşaq gələr bir gün dünyaya,
Bir ana laylası artar, çoxalar,
Bir layla boyu böyüyər Vətən,
Bir layla qədər də artar sevinci,
Bir layla boyu artaraq gücü,
Qovuşar dünyanın şəfəqlərinə,
Yayılar dünyanın üfüqlərinə,
Vətən də böyüyər üfüqə qədər.

# DARIXMA,
# GÜLÜM

## ZAQATALA

Gündüz günəşlidir, gecə yağışlı,
Yaşıl şəfəqlidir, yaşıl işıqlı.
Dağlar diyarıdır, dağ yaraşıqlı,
Hər yanı zirehli, yaşıl bir qala,
Zaqatala, Zaqatala.

Görənlər bir daha görmək istəyir,
Gözəllik önündə hamı baş əyir,
Zirvəsi ucadır, göylərə dəyir
Çağırır insanı həyat vüsala,
Zaqatala, Zaqatala.

Həriflər bir yerə kamala dönər,
İstəyi, arzusu amala dönər,
Çiçəklər şanlarda zər-bala dönər,
Zəifi, xəstəni gətirər hala
Zaqatala, Zaqatala.

İldırım söndürən zirvəsi vardı,
Yaşıl işıq dolu sinəsi vardı,
Gələnlər gül dərdi, çiçək apardı,
Açıb sinəsini bahar yurd sala
Zaqatala, Zaqatala.

## MEHRİBAN OLAQ

Nə sən səddi aş,
Nə də mən aşım.
Əbədi dost olaq,
Mehriban olaq.

## YAĞIŞI GÖYLƏRDƏ İÇİR AĞACLAR

Yağışı göylərdə içir ağaclar.
İçir
yarpaqlarıyla, budaqlarıyla.
Yağışı göylərdə içir ağaclar,
İçir
suya həsrət
yaşıl-yaşıl dodaqlarıyla.

## ADİLƏŞMƏ

Adiləşmə, mələyim,
Gəl adiləşmə.
Könlümün səması
pərvaz yerindir.
Uç könlümün səmasında,
Durna, avazınla
onu sevindir.
Qadın nəvazişinlə,
Zərifliyinlə,
Nəcib işinlə
Heyrətə gətir məni, heyrətə.
Gülüşünlə dolmuş
gecəmi-gündüzümü,
Öz səmamda özümü,
Cürətə gətir, cürətə.
Gecəm
gecələr saçlarına ilişib
qalsın,
Baxışım dincəlsin
yanaqlarında.
Bax beləcə ölüm, dirilim
nazınla,
Ovundur məni, ovundur
Səmama dolmuş xoş avazınla.

## DARIXMA, GÜLÜM

Darıxma gülüm, səbr elə,
Sığınıb Vətənə, sığınıb elə,
Biz ki,
Ömür sürmürük elə-belə,
Səbr elə gülüm, səbr elə,
Darıxmağa dəyməz hələ.

Fikir etmə, qəm yemə,
Taleyinə kəm demə.
Mənim gözlərimdə sən,
Yenə təzəsən, tərsən, -
Yenə elə çiçəksən,
Yenə elə mələksən.
Biz ki,
Ömür sürmürük elə-belə,
Səbr elə gülüm, səbr elə,
Bazar dövrü də keçəcək;
Nəslimiz gül əkəcək,
Sevinc biçəcək,
Vətənin vətəndaşları,
Yurdçuları, yurddaşları
Sevinəcək, güləcək.
Belə bir gün
İnan ki, gələcək.

## AYRILDI YOLLAR

Ayrıca, çatmamış  ayrıldı yollar,
Səbəbi səndəndi, hikkəsi məndən.
Ayrıca çatmamış, ayrıldı, - nə fərq: -
Zəlzələdən oldu, ya vəlvələdən.

Ayrıca çatmamış ayrıldı yollar,
Uzaq yolda yoldaş ola bilmədik.
Bu yolu birlikdə getmək olardı,
Hikkələri ələ ala bilmədik.

Günahı atmayaq kiminsə üstə,
Bir ucu səndədir, bir ucu məndə.
Ayrılan yolları calamaq istə,
Bəlkə də qovuşdu qum göyərəndə.

## BİR GECƏNİN YÜKÜ

Bu gecənin yükü vardır çiynimdə,
Çiçəkdən zərifdir, tüldən incədir,
Ölçülüb-biçilib, ürəyimcədir.
Məndən başlayıbdır yolu bu yükün,
Söz - şer yüküdür, yükdən halıyam,
Bu müqəddəs yükdür, - daşımalıyam

## SƏNİNLƏ MƏNİM ARAMDA

*/Xanım "M"-mə/*

Ay gözəl, səninlə mənim aramda,
Bir "hə", bir "yox" kəlməsi durur.
Sözsüz "yox" çəkilər uzağa indi,
"Hə" geyər əyninə gəlin paltarı,
Sərilər yumşaq yatağa indi.

Sənin gözəlliyin, mənim cürətim,
Nəzərdən, diqqətdən yayınmaq üçün,
Çəkilər bir xəlvət otağa indi,
Bürünər çiçəyə, bükülər gülə
Qısılar bir zərif yarpağa indi.

Sənin gözəlliyin mənim inadım.
Məni bir məhəbbət toruna salıb.
Bitib, boy atıb qolum, qanadım,
Bir sənin yanına uçmağım qalıb.

Ay gözəl, səninlə mənim aramda,
Füsünkar cazibə qüvvəsi vardı.
Cəsarətim gəlib sənə qovuşsa,
Həsədlər dil açar, - nə bəxtiyardı.

## CANA DOYMUŞAM

*Dad əlindən, a gəlin…*
***Xalq mahnısından***

Daha özün bilərsən…
Ya bağışla məni,
Ya alqışla,
Ya da qarğışla məni.
Yalan mehrinə,
Saxta meylinə, sevginə
Bələd olmuşam.
Yalan mehrindən,
Saxta meylindən, sevgindən
Artıq cana doymuşam.
Daha özün bilərsən…
Ya bağışla məni,
Ya alqışla,
Ya da ki, qarğışla məni.
Düzü budur,
Bu da bir taledir -
Astarı budur
Üzü budur, -
Bələd olmuşam.
Artıq sənin əlindən
Cana doymuşam.

*1970*

## ÖZ VÜQARINDI

Dünya nəfəsli həyatda,
Həyat nəfəsli dünyada
Nə bitirsən, o qalar - bağındır,
Nə yeyərsən, o qalar - canındır.
Nə gətirsən, o qalar - varındır.
Nə götürsən, o qalar - ixtiyarındır.
Həyatda həyatın öz vüqarındır.

## KEÇƏR

Gözəlim bir cansan ki,canın cana dəysə,
Can candan keçər.
"Aşiqi-sadiq mənəm" bil ki,
ancaq cahillər
canandan keçər.
Barışar ulduzumuz üfüqlərdə, sədası
Hər yandan keçər.
Arzumuz günəş olar, parıltısında
məhəbbət yüklü
karvanlar keçər.
Kimki eşq əhlidir mənim kimi,
İnan ki, eşqi üçün divandan keçər.
Hər kəs ki, canan qədrini bilir,
Canan yolunda o kəslər bir, andan keçər.
İki dəliqanlı vuruşa çıxsa əgər
Dəysə qədəmlərin, igidlər qandan keçər
Sənsiz ey gül, nə cənnət, nə bahar? -
Günüm gün olmaz, yolum tufandan keçər.
Sevdiyim firuzə rəngini tapdım
gözlərində,
O gözlərdə yaşamağa Qəşəm cahandan
keçər.

# YOLLAR
# SABAHA GEDİR

Şerdən-şerə ucalıram mən,
Kitabdan-kitaba qocalıram mən.
Ömrü uzatmağa ulu Tanrıdan
Ayları, illəri borc alıram mən.

## ÜZÜ SABAHA DOĞULAN UŞAQ,

***Əlaçı şagird Vəli Mədail oğluna***

Üzü sabaha doğulan uşaq,
Bu günə, bu aya xoş gəldin,
Dünyaya xoş gəldin,
Günəşə, aya xoş gəldin,
Üzü sabaha doğulan uşaq.

Doğuldun üzü sabaha,
Sabahların xeyir olsun!
Sənindir bu dünya daha,
Tanrımız sənə yar olsun,
Üzü sabaha doğulan uşaq.

Yeni vətəndaş doğuldun,
Sənə inamım böyük.
Bir balaca "mən" oldun,
"Məninə" gümanım böyük,
Üzü sabaha doğulan uşaq.

Keçsən uşaqlıq həddini,
"Olar-olmaz"lar səddini,

Sındıra bilməz qəddini
Cəzanın, tənbehin mini
Üzü sabaha doğulan uşaq.

Dünəndən, bu gündən uzaq,
Yolun sabaha uzanacaq,
Yeni sabahlar olacaq,
Yeni günlər doğulacaq,
Üzü sabaha doğulan uşaq.

Doğuldun üzü sabaha,
Sabahların xeyir olsun!
Gələcək sənindir daha,
Tanrımız sənə yar olsun,
Üzü sabaha doğulan uşaq!

## BAHARDA

Ay bir qədər
Gözəlləşdi - sevindik,
Günəş bir qədər
yaxına gəldi - isindik.
Daha zərif,
daha yüngül geyindik,
Təbiətin seyrinə çıxdıq:
Dağlar, dərələr,
Göz görən mənzərələr,
Güllərlə, çiçəklərlə
Bəzəndi.
Güllər, çiçəklər
yanaqlarını, dodaqlarını
rənglədi, -
Nəfəsləri ənbər qoxudu.
Saçları, saçaqları
Günəş renginə boyandı.
Yatmış təbiət
Yuxudan oyandı.
Yaşıl rənglər aşdı-daşdı,
Hər yan yaşıllaşdı,
Hər yan çiçək açdı,
Əlvan rəngə boyandı.
Göydən bərəkət yağdı,
Torpaq dirildi, canlandı.
Arılar çiçəklərdən,
Güllərdən bal yığdı.
Qarışqalar yuvalarına
yem daşıdı.

Quşlar nəğmələrilə,
İnsanın ruhunu
oxşadı, əzizlədi.

Gözlər gözəlliyə dikildi.
Bədnəzərdən xoflanan
Bahar, Vətən -
Yanını qaşıdı.
Çöldə, çəməndə
Gül də bitirdi.
Üzərlik də, kol da
Bitirdi

*2005-ci il*

## HARAYA GƏL

Əzizim, haraya gəl,
Haya gəl, haraya gəl,
Qarabağ darda qalıb,
Azğın dığalarda qalıb, -
Silahlan davaya gəl.
Qeyrətlər  - cürətə gəlsin,
Yağı düşməni,
Qarı düşməni
Məhv etmək üçün,
İgidlər hərəkətə gəlsin.
Xankəndində, Şuşada -
Qarabağda
Üç rəngli bayrağımız
Yüksəlsin,
Əzəmətlə, hikmətlə
Yellənsin,
Ermənilər
Bu bayrağın önündə,
Nəsil, nəsil diz çöksün,
Nəsil, nəsil baş əysin!

*2005-ci il*

## DİRİLTDİ MƏNİ

Ey gül, çərxifələk
Gör necə dövran edir;
Kiminə toy tutur,
Kiminə divan edir,

Gül, gülüm, gül ki,
Gülüşün
Dərdlərə çarə edir,
Dərdlərə çarə edən gülüş,
Loğmanı heyran edir.

Bu zəriflik, bu təravət ki
Səndə var,
Gül nədir, çiçək nədir…
Cana-can verir,
Xəstəyə dərman edir.

Zövq ilə Tanrı bəzəyib səni,
Bəzəyib səni,
Cənnətə döndərib sinəni,
Gördüm, diriltdi məni.
Öldüm, diriltdi məni.

## BAKIDA GECƏ

Gecə qara örtük kimi
Endi şəhərin başına, -
Şəhər qaranlıqda uyudu.
Qaranlıqda boğulan Xəzərin
Uğultulu səsi
Dalğa-dalğa
Ətrafa yayıldı.
Dəniz çırpındı,
Əl atdı sahillərə,
Kömək üçün
Yalvardı küləklərə
Dənizdə balıqlar,
Sahildə böcəklər
İşıq axtardı.
Gecənin qara saçlarını
Şəhərin lampa işıqları
Daradı.
Göyün bağrına
Ulduzlar sancıldı.
Həsrətdən, tənhalıqdan
Ayın qəddi əyildi.
Maşınlar qarajlara dürtüldü.
Yuxular gecənin
Yükünü əydi.
Yorulmuş şəhər
Dincəlsin deyə
Gecə şəhərin
Üstünə örtüldü.

*2005-ci il*

## DƏFİNƏLƏR

İnsan qəlbində
Saxlanan sirr
Kiminə qiymətli,
Kİminə qiymətsiz
Dəfinələrdir
Kiminə qəlp puldur
Kiminə ləldir, gövhərdir…
Günlərimiz, aylarımız
Qaralıdır, ağlıdır,
Ürəklərə gedən yolllar
Qapalıdır, bağlıdır.
Sən mənim qəlbimə
Girməyəcəksən
Sən mənim sirrimi
Bilməyəcəksən.

## İNSAN QƏLBİNDƏ

Gizli saxlanan sirr
Adi həqiqət olur.
Həqiqət olduğu üçün
Ürəklərdə
Açılmaz, yayılmaz,
Məxfi saxlanan
Arxiv sənədlərdir.
Sən mənim qəlbimə
Girməyəcəksən
Sən mənim sirrimi
Bilməyəcəksən.

*2005-ci il.*

## ÜRƏYİMİZ QARABAĞDADIR

Qarabağ döndü bazara,
Qarabağ döndü dərdə, azara,
Döndü sağalmaz yaraya,
Bitdi, kök atdı ürəyimizdə.
Ürəyimiz qarabağlıdır,
Giriş yolu, çıxış yolu
Üzümüzə bağlıdır.
Bu dərdin ağrısına,
Ağırlığına dözməyən
Ürəyimiz, arzumuz, diləyimiz
Çat verib, -
Sinəmiz qara dağlıdır,
Çat verən arzumuz, diləyimiz,
Ürəyimiz Qarabağlıdır.
Giriş yolu, çıxış yolu
Üzümüzə bağlıdır.
İllər ötüşür,
Nəsillər yetişir,
İnsanlar dəyişir.
İnsanlar, nəsillər dəyişir
Hisslər, duyğular, qürurlar
Qüvvədən düşür.
Qeyrətlər kütləşir.
Cəsarətlər kütləşir
Qarabağın azadlığı
Müşkülləşir, çətinləşir.
Qarabağda bayquşlar ulayır,
İtlər hürür,
Ölkə-ölkə, şəhər-şəhər piçıldaşan,
Pıçıltısında məkrlik dolaşan,
Hər dəfə yalan uydurub danışan,
Bu işlərə laqeyd yanaşan
Nə ATƏT-AFƏT-ə ümid var.

Qurtarsa Qarabağ davası,
Bitsə bütün savaşlar,
Onda ATƏT-AFƏT də
İşsiz qalardı.
Ya çox, ya az müavinət alardı.
Harda yatıb qurdağızlı,
Şir ürəkli oğullar?
Ayılsınlar-ayılsalar,
Yağılardan Qarabağı
tez almaq olar.
Amerika çoxlarına
Söz verir, dil tökür,
can-can deyir,
Sonra dolayı yolla
Parçalayır, əldən salır.
Və dünyaya meydan oxuyur,
Fitnə-fəsad yuvasıdır,
Qan qoxuyur.
Qrantlar ayırıb, qrantlar verir,
Qrantlar verir
Borça salmaq üçün,
Əldə saxlamaq üçün.
Hərəyə bir cür tor toxuyur,
Gecələr nala vurur,
Gündüzlər mıxa.
Dövlətləri, ölkələri yıxa-yıxa,
Demokratiyadan geyib çuxa
Bizim də başımızı qatır,
Bizi daşnaklara satır.
Gecələr "axçi,
axçi hayqanuş" deyir,
Gündüzlər muğamat oxuyur.

## CORAB TOXUYUR

İlahi,
İslam dünyası
Təklənib yaman
Ağrıyla acıyla
Yüklənib yaman
İlahi, İslam dünyasını
Xətadan, bəladan qoru.
Məhəmməd ümmətini,
İslam millətini
Sünnü, şiə fitvası salıb,
İslama qan udduran,
Allah evələrinə od vurduran,
Fövqəl dövlətlərdən qoru.
İftiradan, məkrdən
Hiylədən qoru.
Demokratiyanı
Əlində, dilində bəlgə etmiş,
İkiüzlü, mindilli, məkrfikirli
Fövqəl dövlətlərdən, haşa,
Sınma, yaşa İraq xalqı
Yaşa,
Döyüşü qələbə ilə vur başa.
Bax, gör neçə fövqəldövlət
Verib əl-ələ, verib baş-başa
İslamın cibində kimyəvi silah,
İslamın beynində
Nüvə başlıqlı raket arayır,
İraq xılqını xış kim əzir,
Özləri terror yuvası,
Özləri fitnə-fəsad başçısı;

İslamın qarınında
terrorçu gəzir,

Dağıtdılar İraq dövlətini,
Qırdılar İraq xalqını.
Yandırdılar peft bazalarını.
Taladılar varını.
İraqlıların ağzında
Hərbi baza gəzdilər,
Dişlərinə nüvə başlıqlı
Döyüşə hazır
Raket cərgəsi  dedilər.
Yalan qusdular,
yalan yedilər.
İndi-indi ucalır
Ərəblərin qeyrət səsi,
İndi-indi od saçır
Alov püskürür
Ərəblərin nəfəsi.
Budur, bax beləcə
Fövqəl dövlətlər
Bu gün də
İraq xalqına meydan oxuyur,
Başlarında qoz qırır,
Ayaqlarına corab toxuyur.

## CANIM AZƏRBĞAYCANIM

İndi, indi
Qəddimizi düz tuturuq,
Şax dururuq, -
Bayrağımız kimi.
Əldə etdik azadlığı,
Azadlığı gözümüz tək
qoruyuruq,
Bayrağıız tək qoruyuruq.
İndi, indi
Bu bayrağın işığında,
Azadlığın işığında,
Vətənin çağırışında,
Dünyanın bəzəyində,
Yaraşığında öz yerimiz var,
Öz yerimizdə dururuq.
İndi, indi
Tükənməz nəfəslə,
Sönməz həvəslə,
Quruda, dənizdə,
Azad Vətənimizdə
Şad yaşayırıq,
Xoş gün görürük, -
Üzü sabaha yol gedirik.
Yolumuz uğurlu olsun.
İşıqlı, nurlu olsun!
Günəş üzümüzə doğsun
Vətənim, canım,

Azərbaycanım!
Əlimizdədir Qızıl Balıq -
Qızıl Balığı biz övladıyıq,

Azad Azərbaycanın -
Azad vətəndaşıyıq.
Fəxr edirik və qışqırıb
Ucadan deyirik:
Azərbaycanlıyıq,
Azərbaycanlıyıq.

## GÖZƏL DÜNYA

*(İş yoldaşlarıma)*

Bu gözəl dünyanın,
Bizdən əzəl dünyanın
Əzizliyindən,
Gözəlliyindən
Sərvətindən,
Nemətindən
Bizə də qismət oldu,
Bizə də pay düşdü.
Tanrı verən bu payı
Doğmalarım, tanışlarım,
İş yoldaşlarım
Nağıllarda
Göydən düşən
alma kimi
bölüşdü.
Bu gözəl dünyada,
Bizdən əzəl dünyada
Nağıla döndü aylar, illər,
Nağıla döndü ömürlər.
Kİminə az düşdü,
Kiminə çox düşdü.
Bir vaxt ayıldıq ki,
Ömür keçdi, ötüşdü.

## YAŞAYIRAM

İlahi yaşayıram
Sənə doğru gedə-gedə
Sənə şükür deyirəm: -
Savabı,günahı dərk edə-edə
Sən yaşat məni,
Yaşadıqca ömrüm boyu
sevəcəm səni.
Dünya öz işindədir,
Zaman gərdişindədir.
Çaxçaxlar çaqqaçaqla
Baş ağrıdır,
Həyat ölüm bəsləyir, -
Kimi gəlir, kim gedir,
Zaman, həyat dayanmır,
Bir zamanın gəmisindəyik.
Biz zamanın gəmisindəyik.

Elə həmişə yoldayıq.
Gedirik, gedirik,
hara gedirik,
hardan gəlirik
Qarabağ dərdi
Kürəyimizdədir.
Gedirəm, gedirəm…
Gəlirəm, bu dərdi
Aparmaq istəmirəm.
Gedirəm, bu dərdi
Yaşatmaq istəmirəm.
Qarabağ dərdi
Vətən dərdidir,
Vətəni darda qoyub,
Gedə bilmirəm,
Şəhid ruhlarını

Məyus edə bilmirəm.
Tanrım Qurani-Kərimdə
Özün demisən.
Təcavüzkarı vur öldür,
Çıxar Vətənindən.
Bunu Vətən tləb edir səndən,
Bunu Vətən tələb edir məndən.
Vətən yolunda şəhid olanın
Yolu keçir, düşür Cənnətdən…
Dünya həmin dünyadır
Yenə gələn gəlir,
Yenə gedən gedir,
Həyat, zaman
Tarazlıqdadır.
Sən gəlirsən,
Mən gedirəm
Zamanın gəmisində
Sərnişinlərik.
Yükümüz Qarabağ dərdidir,
Gələn bu dərdi götürə bilmir,
Gedən bu dərdi apara bilmir.
Bud ərd illərlə aralıqdadır.
Düşmən bu torpaqdan qovulmasa,
Əkdiyimiz torpaq,
Yediyimiz çörək, içdiyimiz su,
Qaladığımız ocaq
Bizi bağışlamayacaq.
Torpaq ölümüzə
Yaxasını açmayacaq.
Qəlbimiz od tutub yanacaq.

*2005*

## TALE NÖQTƏSİ

Sənin öz yolun var,
Mənim öz yolum
Yollarımız
Bir zamandan,
Bir məkandan,
Bir nöqtədən
Baş alıb ayrılıb.
Sənin öz yolun var,
Mənim öz yolum
Yollarımız
Bir zamandan,
Bir məkandan,
Bir nöqtədən
Yola çıxıb, yollanıb,
Yol boyu
Gələcəyə boylanıb…
Haçansa, nə vaxtsa,
Yollarımız
Geriyə doğru yol alsa,
Geriyə dönüb qayıtsa,
Görər ki,
Zaman keçib,
Məkan dəyişib,
Yolumuzun
Start nöqtəsi
Öz yerində tapılmaz
Tapılsa da,
Yollarımız
Bir daha
O nöqtədə qovuşmaz.

## UŞAQLIQDA

Ana laylasından xumarlandıq,
Ana laylasında da boy atdıq.
Sərt ata qıyından pərvazlandıq,
Sərt ata qıyından qanadlandıq.

## ALLAHA MÜRACİƏT DUASI

Dərgahına yol gəlirəm,
Ey Tanrım, Allahım.
Gəlirəm sənə doğru,
Bağışla məni, bağışla.
Varsa səhvim, günahım.

Ey rəbbim, Allahım,
Yoluma işıq saç, nur saç,
Dərgahına qapı aç.
Gəlirəm sənə doğru,
Verdiyin, göstərdiyin
Yolla gəlirəm.
Bu yol alın yazısıdır,
Alın yazısına doğru gəlirəm.
Bir yolum var, -
O yol Sən göstərən yoldu,
Qoyma çaşam, büdrəyəm,
Qoyma yolumu
Sən verən yoldan əyəm.
İlahi,
Yönüm sənə doğrudu,
Yolum sənə doğrudu,
Sənə doğru gəlirəm.
Gecələr ay işığından,
Gündüzlər gün işığından,
Dünyanın yar-yaraşığından,
Yapışa-yapışa
Gecə-gündüz
Dediyin, göstərdiyin
yolla gəlirəm.
Verdiyin ömrü götürüb,
Sənin yolunla gəlirəm.
İlahi, imkan ver, varsa günahım,
Günahımı yumağa gəlirəm,
Bu yol Sənin yolundur,
Sənə səcdə qılmağa gəlirəm.

## MƏN DƏ BƏNDƏYƏM

Hardasa, nədəsə,
Hansı zamandasa,
Hansı məkandasa
Səhv etmiş olsam,
Yanılmış olsam,
Bağışlayın məni.
Nə edə billəm?!
Mən də bəndəyəm, -
Peyğəmbərliyim yox, -
Tanrı da deyiləm.

Zaman dəyişir,
Məkan dəyişir
İnsan kamilləşir,
Ağıl da ağıla dolur.
Dəyişən vaxt,
Dəyişən zaman
Çox şeyi vaxtında, -
Olduğu kimi, -
Çılın-çılpaq yerinə qoyur.

Çox şeylər yuyulur,
Çox şeylər silinir,
Çox şeylər də
yenidən var olur.
Sirlər aşkarlanır.
Ədalət, həqiqət bərqərar olur.

## TANRIYA MİNNƏTDARAM

Hərdən-hərdən qəzəbdən
Maşa kirpiklərimlə
Od götürürəm.
Şana barmaqlarımla
Ayrıram yaxşını pisdən.
Gecə-gündüz işləyirəm.
Yaşamaq hüququmla.
Necə ki, dünyada mən varam,
Tanrıya, taleyə minnətdaram.
Dəmir dırnaqlarımla
Dağ deşib, yer qazaram.
Qanımla tariximi
Qayalara yazaram,
Deməerəm ki,
Bu dünyadan bezaram.
Yarandığım üçün
Kiməsə, nəyəsə
yarıdığım üçün
Tanrıya, taleyə
minnətdaram.

## YER PLANETİ MİZ

Yatağı varmıdır
Bu yerin, göyün,
Harda yuva qurur,
Harda yurd salır?
Göyün dərindən-dərin,
Göy boşluğunda
Yer planetimiz
Elə hey fırlanır,
Elə hey dolanır
Fəqət heç nə dəyişmir
Bu kainatda
Yenə tarazlıqda
Yer yerində qalır,
Göy yerində qalır.
Tənha olsa da,
Yer planetimiz
Aydan dəstək alır,
Günəşdən güc alır.

*2005*

## BALLIDIR, ZƏHƏRLİDİR

Yerdəyik, göydəyik, - nisbillikdəyik,
Nisbillik həddini keçə bilmirik.
Hər şey nisbillikdə olduğu üçün
Yaxşını yamandan seçə bilmirik.
Yaxşı da, yaman da nisbidir, ancaq.
Nisbillik həddini keçə bilmirik.

Bu canlı, - o cansız, - nisbidir bu da,
Canlı da, cansız da torpağa bağlı.
Yerdə doğuluruq, göydəki bürclər,
Bizə sevinc verir, bizə qəm verir.
Tanrının lütfüdür insanın ağlı,
Bu dünya Tanrının nəzərindədir,
Bəzən sevinc verir, bəzən qəm verir.

Ürəkdə, dodaqda, beyində bəzən
Xeyir də yurd salar, şər də yurd salar,
Bir dəstə çiçəklə, bir dəstə güllə
Sınıq bir könülü bir igid alar.
Ürəkdə, dodaqda, beyində bəzən,
Xeyir də yurd salar, şər də yurd salar,

Hər gələn qonağa qapı açılar,
O, mərddi, namərddi, - sonradan bəlli.
Sinəyə xəncər də, gül də sancılar,
"Allah qonağıdır", bu da təsəlli,
O, mərddi, namərddi , - sonradan bəlli.

Yazın gəlişini duyub torpaqdan,
Çiçəklər açılar, əlvan, təzə-tər.
Kimində bal olar, kimində zəhər.

Çox gözəl olsa da açılan güllər,

Bu güllər ətrafa yaysa da əmbər,
Kiminə bal olar, kiminə zəhər.

Hərdən kara gəlməz ağlın çoxluğu,
Aldanar gözümüz, gülə-çiçəyə.
Bilmirik ballıdır, yoxsa zəhərli.
Aldanar qəlbimiz gözəl-göyçəyə,
Camalı - günəşə, hüsnü - çiçəyə.
İlandır, mələkdir sonradan bəlli.
Bilmirik ballıdır, yoxsa zəhərli.

## SƏBRİMİZ DƏ TÜKƏNİR

Hələ nəsə gözləyirik ömürdən,
Yüyənlənmiş, yəhərlənmiş səbirdən,
Yol gedirik, çarıq geyib dəmirdən,
Yol uzaqdır, çarığımız yırtılıb,
Bu yollarda səbrimiz də tükənib.
Ürəkləri qəzəb üstə kökləyək,
Əsəbləri nifrət ilə yükləyək.
Silahlanıb düşmən üstə yüyürək.

Haray desəm harayıma, silahlan,
Əl uzandı torpağıma, silahlan,
Pənah gətir bayrağıma, silahlan,
Ürəkləri qəzəb üstə kökləyək,
Əsəbləri nifrət ilə yükləyək.
Silahlanıb düşmən üstə yüyürək.

Laqeydlik qeyrətləri yatırıb,
Fitnə-fəsad ortalığa atılıb,
Yerlibazlıq dərdimizi artırıb,
Tamahgirlər pul-paraya satılıb,
Yol uzaqdır, çarığımız yırtılıb.
Ürəkləri qəzəb üstə kökləyək,
Əsəbləri nifrət ilə yükləyək.
Silahlanıb düşmən üstə yüyürək.

Elə bildik qayğımıza qalan var,
Düşmən çıxdı bizə "qardaş olanlar".
İndi bildik çox dostluqda yalan var,
Elimizdə, evimizdə talan var,
Məni-səndən, səni-məndən alan var,
Ürəkləri qəzəb üstə kökləyək,
Əsəbləri nifrət ilə yükləyək.
Silahlanıb düşmən üstə yüyürək.

## QAN ÇİLƏNDİ DAĞLARA

İrandan, Livandan gəldi daşnaklar,
Gözəl Qarabağda yürd-yuva saldı.
İşə düşdü xəbis əllər, ayaqlar,
Bu kəndlər, şəhərlər xaraba qaldı.

Qarı düşmən qan çilədi dağlara,
Qara dağlar, qan ağladı qarıdı.
Öz "kirvə"miz od ələdi dağlara,
Axar sular, gur bulaqlar qurudu.

Dağları tapdayan murdar ayaqlar,
Sınmasa dağların dərdi azalmaz.
Bu gəlmə kirvələr, "sərsəm kirvələr",
Qalsa burda bahar olmaz, yaz olmaz.

"Qrunt" deyən dillər kəsilsin gərək,
Daşnak ləkəsindən yuyulsun Arsaq.
Bu göyün buludu çəkilsin gərək,
Mənim öz dilimdə deyilsin Arsaq.
Biz elə vaxtında üz verməsəydik,
Yerini bilərdi azğın dığalar.
Keçməyə bir qarış iz verməsəydik,
Baş alıb gəlməzdi sonsuz qovğalar.

İrandan, Livandan gələn daşnaklar,
Gözəl Qarabağda yurd-yuva saldı.
İşə düşdü xəbis əllər, ayaqlar.
Bu kəndlər, şəhərlər xaraba qaldı.

## OLMAYIB

Əlimdən tutan əl,
Üstümdə kölgə,
Dilimdə yalan olmayıb.
Tanrıdan özgə də
Nazımı çəkən,
Qayğıma qalan olmayıb.
Allaha çox şükür
deyirəm bu gün,
"Mən", "Mən" olmuşam,
Mənliyim talan olmayıb.

## BAKİRƏ DÜNYA

Ehey… Bakirə dünyanın,
Bakirə insanları, -
Qocaları, cavanları,
Şer yazmaq üçün,
Bakirə fikirlərdən.
Bakirə sözlər seçirəm.

Ehey… Bakirə insanlar,
Hüzurunuzda baş əyirəm.
Bakirə şerlərlə
Sizə doğru
Yol gəlirəm.

Ehey… Bakirə dünyanın,
Bakirə insanları, -
Qocaları, cavanları,
Gəlin,
Şəhid məzarlarına
Döyüş bayrağı tək əyilək.
Şəhidlərə baş əyək.
Silahlanaq, zirehlənək,
Əsir torpaqları azad etməyə
Şəhid məzarlarına and içək.
Şəhidlərin arasından keçək,
Mətin addımlarla çiyin-çiyinə,
Düşmənlə üz-üzə döyüşə gedək,
Şəhid ruhlarını da,
Ana Vətəni də şad edək.

## BİZ TÜRKLƏR QOŞA UÇASIYIQ

*Türk qardaşımız*
*Erdal A.Otuzbir cənablarına*

Yolumuz, yönümüz sabahadır,
İndii gedirik üzü sabaha.
Qərblə-Şərq arası elə türkük,
Belə zənginik, zənginik daha.
Özümüzə doğru yol gedirik,
Şükürlər olsun, böyük Allaha,
Özümüzü dərk etmişik daha.

İndi vaxtdır, qanad açasıyıq,
Bu gündən sabaha uçasıyıq.
Türkün qapısı - qardaş qapısı,
Türklərin üzünə açasıyıq.
Əslimizə, nəslimizə doğru,
Biz türklər birlikdə uçasıyıq.

İki qanadlı vahid millətik,
Zirvədən-zirvəyə qalxasıyıq.
Zirvədən dünyaya baxasıyıq.
Ot kimi bitib, su kim axıb,
Dənizdən-dənizə axasıyıq,
Zirvədən-zirvəyə qalxasıyıq.

Şükürlər olsun böyük Allaha,
Qərblə-Şərq arası elə türkük.
Birgə gedirik üzü sabaha,
Belə zənginik, ənginik daha.
Birgə gedirik üzü sabaha.

## SƏN DEMƏ

Sən demə,
şərqini  yasin təki oxuyan,
Kədər, qəm üstə qonan,
Yasa sevinən,
qəmlə xumarlanan,
Dimdiyi qan qoxuyan,
Acgöz, bədniyyət
bayquşlar da var.
Vətəndə fəlakət əkir,
faciə becərir onlar.
Söndürür yaşıl işıqları,
Bağlayır nicat yolunu,
Bulandırıb duru suları,
Altdan-altdan
tufan qoparır onlar,
Çaşdırıb el-obanı,
Salıb ortaya davanı,
Zibilləyib doğma yuvanı,
Təzə bir yuva axtarır onlar,
Partokratlarmı əkdi,
bilmirəm?!
Demokratlarmı doğdu
bilmirəm?!
Onlar, nə Vətən tanıyır,
Nə də millət qanır.
Ancaq
Var-dövlət toplayır,
Vəzifə axtarır,
Ara qarışdırır, fırtına qoparır.
Beləleri xalqı, milləti
xilasa yox,

uçuruma, məhvə aparır.

Dostu-dost bilməz,
Düşməni də düşmən.
Onlar üçün nə millət var,
Nə də ki, Vətən
Zövq alır, var toplayır faciələrdən,
Nə qədər ki, aramızda var,
Bu bədxahlar,
Sakitlik, rahatlıq çətin olar.

## HÜRÜN, HÜRÜN ARXALI KÖPƏKLƏR

*Ermənilər bəzi dövlətlərə, dövlətlərdəki lobbilərinə arxalanaraq, qonşu dövlətlərin torpaqları hesabına böyük Ermənistan yaratmaq xülyasına düşüblər.*

Əsir siz tərəfdən hələ küləklər,
Hürün, hürün ay arxalı köpəklər.
Vaxt olar, il keçər, yeni gün gələr,
Arxasıza Tanrı kömək göstərər.

Hürün, ancaq, həddinizi aşmayın.
Hürün, hürün çox da quduzlaşmayın.
Qonşu olun, qonşuya sataşmayın.
Əsir siz tərəfdən hələ küləklər,
Hürün, hürün ay arxalı köpəklər!

Basa bilərsiniz tənha qurdları,
Tuta bilərsiniz çoxlu yurdları,
Talaya bilərsiz, dövləti, varı,
Göydə qaparsınız lap ulduzları.
Əsir siz tərəfdən hələ küləklər,
Hürün, hürün ay arxalı köpəklər.

Hələlik sizindi dövran, sizindi,
Yaxşılı, yamanlı zaman sizindi.
Bu gedən oyunda meydan sizindi,
Meydanda oynayan şeytan sizindi,
Əsir siz tərəfdən hələ küləklər,
Hürün, hürün ay arxalı köpəklər.

Dişiniz yoxsa da diş verəniniz var,
İşiniz yoxsa da iş verəniniz var,
Üç alanınız, beş verəniniz var,

Kömək edən - bəxşiş verəniniz var.
Əsir siz tərəfdən hələ küləklər,
Hürün, hürün ay arxalı köpəklər.

Eviniz, yeriniz, yurdunuz da var,
Arxada-arxalı dayınız da var,
Ən böyük dayınız - ayınız da var,
Yalaqdan daşlanan payınız da var.
Əsir siz tərəfdən hələ küləklər,
Hürün, hürün ay arxalı köpəklər.

Yaxşıya pis deyib, hürürsüz hələ,
Pisə yaxşı deyib gülürsüz hələ,
Məqam axtarırsız, güdürsüz hələ,
Namərdlər! Mərdləri didirsiz hələ.
Qonşusuz - qonşu da siz qalın elə,
Uymayın fitvaya, fitnəyə, felə.
Əsir siz tərəfdən hələ küləklər,
Hürün, hürün ay arxalı köpəklər!

**BAZARA KEÇİD - QIL KÖRPÜSÜ**

Hər gün artan qiymətdən hamı danışır,
Əl açıb, dil açıb dilənən millətdən
Hamı danışır.
İlahi, bazar siyasətçilərinə
İnsaf ver barı,
Bazara döndərib bazarı,
Soymasınlar yoxsulları, kasıbları.
Bu bazar islahatlarını
Ortaya kimlər atdı, hardan atdılar?
Bu siyasətdə bizi yaman aldatdılar.
Alıb olan hüququmuzu
Bazarlarda satdılar.
Fəhlə, kəndli peşəsini unutdu,
Hamını bazar azarı tutdu.
Hər şey ortaya atıldı,
Hər şey baha satıldı,
Hamı satan oldu.
Bazar alverçiləri yalan oldu.

Bazara keçid bazarda talan imiş.
Tanrının qıl körpüsü
Bu keçiddə yalan imiş.
Hamı bazara keçid istəyir,
Heç kəs bazarından keçmək istəmir.
Hamı "millətim", "millətim" deyir
"Sevdiyi", "sevgili" millət üçün
heç kəs varından keçmək istəmir.

Başda duran başbilənlər,
Milləti "sevənlər", "əziz" bilənlər,
Özləri seçə bilmədikləri,
Özləri keçə bilmədikləri,
Bazara keçidin qıl körpüsündən

"Sevgili" millәti sürü  kimi
keçirmәk istәyirlәr.
Ölüm şәrqisi oxuyan,
Sonu sallaqxana qoxuyan,
Bazarın qıl körpüsündәn

Heç kәsin xәbәri yoxdur.
Bazara keçidin dar keçidindә
Dәridәn-qabıqdan çıxan
İnsan "sürüsündәn"
Heç kәsin xәbәri yoxdu…

*1993.*

## QORUYA BİLƏK

Müstəqiləm, -
Azad bir ölkəyəm,
Bərəkətli torpağam,
sərvətli yerəm
Aylı, Günəşli Göyəm.
Özüm özümə dayaq,
Özüm özümə köməyəm.
Hakiməm həm özümə,
həm də nəfsimə.
Olsa da yuxular şirin,
yuxular acı,
Qoymaram başım altda
Yupyumşaq balıncı:
Güvənib fərasətimə,
İşləmək, işləmək istərəm.
Özümü həyata, Vətənə
gərəkli görmək istərəm.
Artıq yoxdur
başım üstdə
Ölüm qoxusu,
qorxusu gələn
Domokl qılıncı.
Artıq yoxdur,
başım üstdə
yumruğundan qan daman,
kinli-küdurətli bir əl.
Artıq yoxdur,
kəbini taleyimə yazılmış, -
Dilimə-dinimə düşmən
Bütləşmiş əbədi heykəl.
Eşidin, bilin,

İndii gərək.

Verib çiyin-çiyinə,
verib əl-ələ
Quduzlaşmış,
həddini aşmış
Yağılara
Öz yerini göstərək,
Vətəni əzmlə, inamla
İtdən,qurtdan
qoruya bilək.

## BİR ÖMRƏ İŞIQ SIZSA ƏGƏR

*Bu işıq hayandan sızır görəsən*
*F.Məmmədli*

Hansı ömrə işıq sızsa,
Yolu, yolda yoran olar.
Hansı ömrə işıq sızsa,
O, yaradan, quran olar.

İşıqları tutar, gedər,
Qaranlığı yırtar, gedər,
Var-dövləti artar, gedər
Hansı ömrə işıq sızsa.

Arzuları çiçək açar,
Haqq işində qalmaz naçar.
Əcəlin özündən qaçar,
Hansı ömrə işıq sızsa.

Əli Tanrı ətəyində,
Ömrü işıq yedəyində,
Əli durar köməyində
Hansı ömrə işıq sızsa.

## NƏ QAZANDIM?

Şair oldum, nə qazandım, -
Zəhmətdən, zillətdən qeyri.
Şair oldum, nə qazandım, -
Sözdən, söhbətdən qeyri.
Kağızlar həddini aşır,
Günü-gündən bahalaşır.
Söz isə sətir-sətir
Qiymətdən düşür,
Ucuzlaşır, ucuzlaşır.
Nadanlar,
Nəsimini "Əl-həqq" edən
Füzulini zirvələrə yüksəldən.
Sözə, söz sənətinə,
Söz sərvətinə
Ucuzdan-ucuz yanaşır.
Kağızlar qiymətdə
Qiymətlər hörmətdə
Həddini aşır,
Bahalaşır, bahalaşır…
Həyat, insan, söz isə
Ucuzlaşır, ucuzlaşır…

## NECƏ Kİ, YAŞAYACAQSAN

Necə ki, dünyada yaşayacaqsan,
Ağrını, acını qayğılarını,
Qəlbində kök salan duyğularını,
Yollarda yorulan ayaqlarını,
Özünlə birlikdə daşıyacaqsan.

Necə ki, dünyada yaşayacaqsan,
Ömür yollarının ayrıclarında,
Bəlkə də yüz dəfə aldanacaqsan.
Əlçatmaz arzular, qayğılar altda,
Töyşüyə-töyşüyə dayanacaqsan.
Bəlkə də kövrəlib ağlayacaqsan.

Necə ki, həyatda yaşayacaqcan,
Ayaqlarında Yer, başında da Göy,
Çiynində zamanın ağır yükləri,
Gəzib dolandıqca kəndi, şəhəri
Həm ölü, həm diri xatirələri,
Yaddaşa yük edib daşıyacaqsan.

Çatmamış yolların sonuna hələ,
Düşkün görkəminlə , boy-buxununla,
Zamana güzgüdən boylanacaqsan.
Qalan günlərindən, ötən günlərin
Ömrünün üstündən keçən günlərin,
İzini arxivdə arayacaqsan,
Bəlkə də kövrəlib ağlayacaqsan.

## VƏTƏN BELƏ XIRDALANIR

*1992-1993-cü illərdə yaranmış partiyalar,*
*özlərinə silahlı dəstələr də yaratmışdılar.*

Bu özəl bəylər,
özəl demokratdılar.
Bu bəylər, bəyciklər,
Özəl partiya yaratdılar.
Özəl partiyanın künclərindən,
Hərəsi Vətənə bir daş atdı.
Vətəni özəl kapital edib,
Vətən "daşlarına" xırdalatdı.
İlahi, kiçik bir ölkədə,
Nə qədər partiya olarmış?
Partiyalar çoxaldıqca
Vətən parçalanarmış!
Vətən xırdalanarmış!

Çoxallahlılıq olsaydı dünyada,
Allah bu qədər böyük,
Bu qədər uca olmazdı, axı.
Allahlar mehriban dolanmazdı, axı!
Vahidlik, - bütövlükdür,
Vahidlik, - böyüklükdür,
Vahid Tanrımız da,
Vahid dünyamız da,
Buna görə böyükdür,
Buna görə uludur,
Böyüklüyün, vahidliyin
simvoludur.

## SÖZÜN ALLAH UCALIĞI

Oxu sözü, qulaq as sözə,
Qəlbin məftun olacaq.
Dayan sözlə göz-gözə,
Dayan sözlə üz-üzə,
Sözə qulp qoyma ancaq.

Sözə qulp qoyma,
Qulpundan yapış,
Dərdini sözə de,
Sözə söykən, danış.
Sözdə hikmətə alqış,
Sözdə ülfətə alqış.

Sözə söz ver, sözə səs ver,
Sözün qulpundan yapış,
Söz qulpu Allah ətəyi,
Yapış Allahın söz ətəyindən,
Yapış Allahın söz köməyindən
Qapıları açılacaq,
Söz Allaha ucalacaq,
Səni alıb ucaldacaq.
Şerin söz dərgahından,
Allahın öz dərgahına.

## ÇOX NARAHATAM, VƏTƏN

Həyat dəyişib, Vətən,
Budur hər yoldan ötən,
Bostanına daş atır,
Düşmən başını qatır,
Torpağına diş atır.
Qoynunda gül də bitir,
Qanqal da, kol da bitir.
Bitən çiçəklər, güllər
Kol-kos içində itir.
Zaman dəyişib, Vətən
Budur hər yoldan ötən,
Qaysavadan pay umur,
Səni də rahat qoymur,
Bəxtinə mərd də düşüb,
Elə namərd də düşüb.
Xəlillər tək oğlunun
Köksünü sipər edir.
Özü oğlüyla sənin
Yolunda qurban gedir.
Di gəl atalar da var, -
Beş nər oğul atası,
Səfərbərlik olanda,
Min cür hiylə işlədir,
Həmin "nər" oğulları,
Cəbhələrdən gizlədir
O, kiminə əlillik
Kimisinə xəstəlik,
Kiminə də dəlilik
kağızları düzəldir.
"Vətən-Vətən", deyərək,
"Vətən getdi", deyərək,
Gecə-gündüz bağırır.
Beş oğulu gizlədib,

Bu sonlu-sonsuz fağır.
Vətəni qorumağa
Düz-dünyanı çağırır.
Vətən çörəyi yeyib,
Beş oğul dönüb nərə;
Beşi də fəraridir,
getməyib döyüşlərə.
Nə atada qeyrət var.
Nə də övladlarında.
Erməni at oynadır,
Öz baba yurdlarında.
Mərdə qeyrət ad olar,
Qeyrətsiz atadan da,
Qeyrətsiz övlad olar.
Qeyrətsizin vətəni,
Özgə yurd-yuvasıdır.
Haram pulla aldığı.
Mənzili,
villasıdır.
Ata rütbə sahibi,
Şöhrətlidir, şanlıdır.
Beş oğul da mənzilli,
Mersedes maşınlıdır.
Zaman dəyişib, Vətən,
İndi hər yoldan ötən,
Bostanına daş atır.
Torpağına diş atır.
Gələcək taleyindən.
Hər an narahatam mən.
Yaman narahatam mən.

*1993*

## MƏN ƏSGƏR GEDƏYDİM

İlahi, nə olar,
mənə uşaq inamı ver,
Uşaq ağlı, ilhamı ver.
Gözəl uşaq sevgisi ver,
Uşaq məhəbbətilə
İnsanı sevim,
dünyanı sevim.
İlahi, sən ki
kəramətlisən,
mərhəmətlisən,
Məni bapbalaca
sadəlövh bir uşaq elə, -
küsəyən olum,
güləyən olum,
Döyən olum,
döyülən olum,
küsüm ağlaya-ağlaya
Barışım gülə-gülə,
Elə belə
Qoşulum uşaqlara,
təzədən böyüyüm,
uşaqlar ilə.
İlahi, nə olaydı,
quru çaylar sulanaydı,
təzələnəydi olaylar,
Geriyə dönəydi illər, aylar,
Onda bir dəliqanlı
gəncə dönərdim,
mən də əsgər gedərdim,
öz yurdumuzda,
öz ordumuzda,
xidmət edərdim,
belə olsaydı,
bu dünyada nə dərdim?!

*1993*

## İKİ ADDIM - ASTANA

İki adım qaldı,
ikicə addım,
XX əsrin sonuna.
İki addım qaldı,
İkicə addım
XXI əsrin başlanğıcına.
Cənablar
baş vurun
maskalanmış, saxtalaşmış
Arxivlərə.
Vərəqləyin, vərəqləyin
vərəq-vərəq aşkarlayın
Görək nə qazandıq,
nə itirdik,
nə gətirdik
bir əsrdə
XX əsrin sonuna.
XX əsr qanda doğuldu,
çox təzadlı dövr oldu
əvvəlində də
ortasında da,
sonunda da
qanda yuyuldu,
qanda boğuldu.
Pis-yaxşı,
XX əsr
Əsrliyində qaldı.
Nə oldu insanlara oldu.
Tökülən qanların
Hələ də yasındayıq,
XXI əsrin astanasındayıq.
İki addım qaldı,
ikicə addım,

XX əsrin sonuna.
XXI əsrin əvvəlinə.
Cənablar,
beynəlxalq məhkəmədə
cavab axtarın
cavab tapın,
cavab verin
Ölənlərə, itənlərə,
köçkünlərə, qaçqınlara,
günahsız şəhid olanlara
günahsız tökülən qanlara!

## MƏNİM TÜRK DİLİM

Şümer soylu,
Şümer köklü dilim,
Türk ellli.
Türk dilli dilim.
Dədəm Qorqud sözlü,
Dədəm Qorqud elli dilim
Farslardan, ərəblərdən,
Sənə dəyən zərbələrdən,
Yerli, yersiz kötəklərdən,
İxtiyarlı köpəklərdən,
Qorudun sən saflığını,
Qorudun ana südü tək
Təmizliyini, paklığını, -
Türk elində.
Bitdin, kök atdın
Türk xalqının dilində.
Əsrlərin arxasından,
Saflığını qoruya-qoruya gəldin,
Paklığını qoruya-qoruya gəldin.
Əsrlərdən bu günümüzə,
Kökümüzdən nəslimizə
caladın bizi.
Şümer köklü,
Şümer soylu,
Türk dilli dilim.
Azəri, Türk elli dilim.
Türkün böyük dünyasında,
Əyilməyən, basılmayan bayraq  oldun.
Türk xalqının ana dilində
Ən kəsərli yaraq oldun, -
Mənim Azəri
Mənim Türk dilim.

## XOCALIDA FACİƏ GÜNÜ

*26 fevral 1992-ci il daşnaklar tərəfindən gecə törədilmiş Xocalı soyqırımı günüdür. Həmin gecə 625 nəfər uşaq, qadın, qoca qətlə yetirilmişdir.*

Xocalını  viran qoymuş,
Xocalını qanda boğmuş,
Bu ağır günü,
Bu ahı, bu ünü, -
Büsbütün
Bu faciənin qan yükünü,
Soyqırımlı bu dəhşəti,
Bu dəhşətli həqiqəti,
Çılınçılpaq,
Olduğu kimi,
Dünyaya bəyan etməyə,
Əl də acizdi,
Dil də acizdi.
Telefon, tel də acizdi?
Bu faciədən
bu gün
Söz açmaq da çətindi,
danışmaq da çətindi.
Ağı deyib hönkür-hönkür
Ağlamaq da çətindi,
susmaq da çətindi.
Bu faciənin dəhşətləri,
Dilləri lal edir, gözləri kor,
Əlləri iflic,

Bu dəhşətli soyqırımı,

Baş verəndən bəri,
Tərk edib bizi
Ürəkdən gülüş,
Ürəkdən sevinc.
İflic olmuşuq, İlahi,
Tışdan, içdən iflic.
Fəqət,
dərd ürəkdə diridir,
Dərd,dərindən bağırır.
Faciədən doğulan ruhlar,
Bizi qisasa çağırır,
Bizi qisasa çağırır.

## ÇOXUSU ÇIXDAŞ OLUR

Ömrü
Ömrü boyu,
Neçə dəfə, neçə kərə,
Həyat yuyur, həyat sərir,
Gah güneyə, gah quzeyə,

Ömrü ömür boyu.
Neçə dəfə, neçə kərə,
Yel də döyür, gün də döyür,
Həyat özü gündə döyür
Ömür-ömür olsun deyə.
Ömrün ömür boyu,
Gününü günlər alır,
İlini illər dərir,
Çoxusu çıxdaş olur,
Azı dönür muzeyə.

## XƏBƏRSİZLİK

Hər kəsin öz dərd-səri var,
Hər kəsin öz sevgisi, sevəni,
Sərvəri var.
Varmı dərd-səri olmayan?
Sevgisi, sevəni, sərvəri olmayan?
Tanrı, Tanrıdır, qardaş,
Tanrının da sevgisi, sevəni,
Peyğəmbəri var.
Tanrının da öz dərd-səri var.
Onun dərd-səri,
Yoldan çıxan,
yolun azan,
bir-birinə quyu qazan,
insanlardır, insanlar.
Bəlkə elə
dərdsiz-sərsiz olan bizik?
Sadəcə biz
bir-birimizin
dərd-sərindən
xəbərsizik.

**Şair dostum**
**ZAHİD ƏZİZƏ**

Şair!
Şerin dağ yükü,
Budağı, kökü
kök atıb,
Beynimizdədir.
Kəsəri də, ovxarı da
Dilimizdədir.

Şerin çətin yolu,
bizi seçir,
bizdən keçir,
özümüzdədir.
Gecəsi də, səhəri də,
Sevinci də, kədəri də
Dözümümüzdədir.

Biz yolun
Əsiriyik, yesiriyik,
yolçusuyuq,
yol üstəyik.
Getməliyik.
Ucalıq alpinistliyik,
Zirvəni fəth etməliyik.

## SUYUN TORPAQ MƏHƏBBƏTİ

Su axdı, axdı
Həyətə də,
Həyata da,
Can verdi.

Su axdı, axdı,
qurtum-qurtum içildi,
Qulaq-qulaq paylandı -
Zəmilərə, tarlalara,
Bağçalara, bağlara.
Hər yan canlandı,
Hər yan cənnətə döndü.
Tarlalar, zəmilər,
barlandı,
dəydi, doldu -
ballandı.
Torpaq aşiqi su,
sevgili torpağın,
sevdiyi torpağın -
Döşəndi ayaqlarına, -
çökdü, hopdu
Həsrətli dodaqlarına,
yox oldu,
böyük məhəbbətə su
qurban getdi,
şəhid oldu.

## JURNALİSTLƏR

Jurnalistlər
qələmlə silahlanmış, zirehlənmiş
süvarilərdi.
Jurnalistlər -
bu mətin ərlər,
hünərvərlər
qələm gücünə
zamanı irəli dartar,
irəli çəkər, aparar.
Haqsızlığı tapdalayar,
Haqq üçün tufan qoparar.

Jurnalistlər
Həyatı, dövləti nizamlayan,
Ədaləti,haqqı tarazlayan
Qüvvələrdir,
Dərdləri bilən olur,
Gözləri yaşını silən olur,
Həqiqəti deyən olur.
Jurnalistlər
Ellərə dayaq, arxa,
Sözü yazmaz qorxa-qorxa.
Jurnalistlər
Gözə baxa-baxa,
Qanları axa-axa,
Ölümlə əlbəyaxa,
Məhv edənə qədər şəri
Cəsarətlə, mətanətlə
aparırlar döyüşləri.

## KÖLGƏLƏR

"Gülüstan", "Türkmənçay"
döndü kölgəyə,
Kölgənin kölgəsi
araya düşdü.
Kölgənin kölgəsi
Araza düşdü.
Kölgələr Arazı
cəsəd elədi,
Kölgələr Arazı
sərhəd elədi.
İki kölgə bir bədəni bölüşdü,
Baş şimala,
bədən cənuba düşdü.
Kölgəmiz də yad kölgədə doğuldu,
Kölgədə kölgəmiz görünməz oldu.
Köləliyin kölgəsində böyüdük.
Köləliyin kölgəsində döyündük,
Köləliyin kölgəsində göründük.
Nə verdilər deyindik.
Nə aldılar öyündük.
İndi-indi
yaz nəfəsli gün gəldi.
düşdü Vətənə işıq.
İndi Nərgiz gülü tək
Köləliyin kölgəsini
dəlib üzə çıxmışıq.
İndi-indi azadlığımız
dönüb Əhləd daşına.
Düşüb köləliyin əzəl kölgəsi
"Gülüstan"ın başına,
"Türkmənçay"ın başına.

Düşüb bir bədəni bölüşdürən,
Gecə-gündüz kölgəmizə hürən.
Hikkələrin, iştahların başına.
Allaha şükür deməliyik biz
Bu gün ilahi kölgəmiz.
Dönüb Şah Xətai qılıncına.
Sancılıb köləliyin kölgəsinə.
Sancılıb köləliyin sinəsinə.
Allaha şükür deməliyik biz.
Bu gün ilahi kölgəmiz
köləliyin kölgəsi üstə
qaldırıb üç rəngli
Hünər, qeyrət bayrağını.
Zəfər, şöhrət bayrağını.
Sancıb kölgəmizdə kölgələnən,
köləliyin təpəsinə,
Qalxıb AZADLIĞIN zirvəsinə.

## İNSAN YATANDA

İnsan yatanda,
Dərdi, qəmi də,
Yorğunluğu da,
Arzuları da
Ağuları da
Hopub yuxularına
Uyuyur onunla.

İnsan yatanda,
Bütün qayğılarını,
Ağrılarını,
Soyunur
Paltar təki,
Özündən atır.
Yuxuda baş alıb
Əlçatmaz
Arzularına, ümidlərinə
Doğru çapır.
Bəlkə də insan elə
Əsl sevgini də,
Azadlığı da,
Rahatlığı da,
Gördüyü yuxularda tapır?

## XXI ƏSRİN ASTANASINDAYIQ

*Ortada yeyib, qıraqda gəzənlərin monoloqu*

Yerin, göyün,
yeni dövrün
Hərc-mərclik, özbaşınalıq
dünyasındayıq,
XXI əsrin astanasındayıq.

İlahi verib iştaha,
Xrikə düşmüşük daha.
Budur, alhaaldayıq,
Budur, sathasatdayıq,
Budur, tıxhatıxdayıq,
Budur, yığhayığdayıq,
Ehtiyat yığmışıq bir neçə qat da,
Nəsildən-nəsilə çatacaq hətta.
ATƏT də yastıq qoyub başımız altda,
Hələ şirin-şirin yatmaqdayıq.
Zəngəzur mahalın çoxdan unutduq,
İndi də QARABAĞI unutmaqdayıq.
Kim bilir biz haçan oyanasıyıq,
XXI əsrin ASTANASINDAYIQ.

Biz sayanı saymır fələk,
Siyasətdən tutaq gərək.
Ondan-bundan umduq kömək,
Əvəzində dəydi kötək.

Daşı Daş üstə qoymasaq da,
Səriştəli, səviyyəli olmasaq da,
Hər gün aranı qatmaqdayıq,
yüksək kürsüyə - Prezidentliyə
Əl atmaqdayıq, can atmaqdayıq.

Komsomola biz gülərək,
Kommunistə gəldik kələk.
Azadlığı edib bayraq,
Şahlıq iddiasındayıq
XXI əsrin ASTANASINDAYIQ.

Əvvəldən bu əsrin düşdük yasına,
Bükdük XX əsri şəhid libasına.
Oynaya, oynaya matəm havasına,
Qovuşduq müstəqillik dünyasına.

Prezident kürsüsünü
zəbt etmək üçün,
həvəslə qurşandıq
vəzifə davasına.
Əlbəyaxa gəlib çatdıq
XX əsrin sonuna.
Sancdıq AZADLIQ bayrağını,
XXI əsrin ASTANASINA.

İlahi verib iştaha,
Xrikə düşmüşük daha.
Hələ ki, tıxhatıxdayıq,
Hələ ki, yığhayığdayıq,
Xoşdur bizə bu ab-hava,
Gedirik üzü sabaha.
Qaçaq-quldur  qalmayıbdır,
Heç qorxumuz yoxdur daha.
Yeni gümanların amanındayıq,
Ayrı zamanların məqamındayıq.
XXI əsrin ASTANASINDAYIQ.

## GÜMANA, ÜMİDƏ QALIR

Bu dünyada
zaman, zaman
Özünu vurub
alova, oda,
yaşayan insanın,
haqqa, ədalətə,
səadətə
çatması üçün
bir addım,
bir an qalır.
Bir anlıq olan,
bir addımda dayanan,
haqqı, ədaləti tapmaq arzusu,
səadətə çatmaq arzusu
Bir anlıq zamanda,
Bir addımlıq məsafədə
yurd salır.
Yenə hər şey,
Böyük səbrə,
Gümana,
ümidə qalır.
İnsan, belə yaşayır,
İnsan, belə də qocalır.

## ÜZÜ SABAHA GEDƏN NƏSİL

Keçəcək yüz il, min il,
Həyat geri dönən deyil.
Əyil şəhid məzarına,
Üzü sabaha doğulub,
Üzü sabaha gedən nəsil.

Gedin üzü sabaha,
Budur sevinc, budur qürur.
Bu Vətəni qoruyanlar,
Özüllər altda uyuyur.
Özüllərə qoyun əklil,
Üzü sabaha doğulub,
Üzü sabaha gedən nəsil.

O igidlər əldə yaraq,
Zülmətləri yararaq,
Vətən üçün oldu dayaq.
Bu şəhid oğullar, qızlar,
Ziyarətə layiqdir bil,
Üzü sabaha doğulub,
Üzü sabaha gedən nəsil.

Azadlıq ki, verilmədi,
Zorla aldı bizim nəsil.
İgidlərin sinəsində,
Qızılgüllər çiçəklədi.
Güllələr də çiçəklədi.
Düz qamətlər əyilmədi.
Sil, gözünün yaşını sil,
Üzü sabaha doğulub,
Üzü sabaha gedən nəsil.

## ŞER DƏ İNSAN KİMİ DÜNYAYA GƏLİR

Şer də insan kimidir,
İnsan kimi dünyaya gəlir.
İnsan kimi Bürc altında doğulur,
Taleyi bürclərdən asılı olur.
Kimisi uğurlu,
Kimisi uğursuz doğulur.
Uğursuz doğulan şerlər
Zamanla barışa bilmir.
Uğursuz həyata alışa bilmir.
Dünyanı tərk edir,
Həyatdan vaxtsız gedir.
Uğursuz insanlar,
Uğursuz şairlər,
Uğursuz şerlər
Uğursuzluğu
Uğursuz bürclərin
Adına, ayağına yazır.

*2005*

## MƏNİ GÖRMƏDİ

Hər gün,
Bir noeçə dəfə
Səadətin, xoşbəxtliyin
Qapısını döydüm, çağırdım,
Səadət, xoşbəxtlik
Cavab vermədi.
Məni eşitmədi,
məni görmədi.
Ömrüm boyu bax beləcə
hər gün
çağırdım, çağırdım -
çıxmadı qarşıma
yalandan belə
Bir gülər üzlə,
Bir xoş sifətlə
Məni dindirə,
Dindirib sevindirə.

*2005*

## VİCDANIN ƏLİLƏ DÖYÜLƏSİYƏM

*Mən dünyanın ağrısına ünvanam*
***F.Məmmədli***

Tanrının qələmi döndü dayağa,
"Süvari" talelər düşdü qabağa,
Piyada talelər endi ayağa;
Mən belə zamana "çox sağ ol" desəm,
Vicdanın əlilə döyüləsiyəm.

Hələ kölgələrdə gədalar bitir,
Yalanlar əlində doğrular itir,
Ədalət, ədalı qəzəbə yetir,
Mən belə dünyaya "çox sağ ol" desəm,
Vicdanın əlilə döyüləsiyəm.

Talançı fürsətlər meydan sulayır,
Tamahlar ağızda dişləri sayır,
Bazarda cibləri bazar talayır.
Mən belə zamana "çox sağ ol" desəm,
Vicdanın əlilə döyüləsiyəm.

Qəzəblər dişləri sındırır hələ,
Namərdlər-mərdləri qırdırır hələ,
İmkan – imkansızı yoldurur hələ,
Mən belə zamana "çox sağ ol" desəm,
Vicdanın əlilə döyüləsiyəm.

Quldur tamahlar da yolları kəsir,
Qeyrətsiz qeyrətli qolları kəsir,
Əcəl ehtiyacmış - ev-ev tələsir;
Mən belə dövrana "çox sağ ol" desəm,
Vicdanın əlilə döyüləsiyəm.

*1992.*

## DƏDƏ FÜZULİYƏ

Babam Adəm, nənəm Həvva
Torpaqdan yarandı,
Sən söz-şer nikahından,
Böyük sözdən, misralardan.
Sən söz-sənət şəhidi,
Nakam məhəbbətlər ahısan,
Müqəddəssən,
Şer qibləgahısan,
Söz qibləgahısan.
Sən ülvi eşqə, məhəbbətə
Söz nikahısan,
Sözün şer nikahından yaranmısan.
Sən əbədiyyətdə də,
Əbədi ziyarətdəsən
Müqəddəsləri,
Özün də müqəddəslənmisən,
Qəbrin ziyarətgahdır,
Sən söz qibləgahısan,
Şer qibləgahısan,
Şairlər şerini sənə üz tutub yazır,
Əbədi yanar şamsan,
İşığına pərvanələr tək
Şairlər yığılır.
Sənin söz şöhrətinə, dədəm Füzuli,
Dünya şeri səcdə qılır.

## UŞAQ TESTDƏN KEÇMƏDİ

Uşaq
Dar, qaranlıq
Ana bətnindən
Xaric oldu, doğuldu:
Sevindi azadlığa çıxmağına.
Uşaq böyüdü, ağlı kəsdi.
Çox çalışdı, vuruşdu,
Gördü cəhdlər əbəsdi…
Hara getdi,
Hardan gəldi,
Regionçuluq
qabağını kəsdi…
Hansı sudan içib?
Hansı körpüdən keçib?
Kimin əli əlində olub?
"Həsənağaya" qohumluğu?..
Suallar ağır oldu,
Uşaq testdən keçmədi,
Çox şey bəhanə oldu.
Uşaq niyə doğuldu?
Niyə həyata gəldi?
Geniş, işıqlı dünyada.
Böyüdükcə sıxıldı,
Böyüdükcə boğuldu.

## BİR KÖYNƏK UZAĞA DÜŞSƏK

*Ailədə kəskin münaqişə - ayrılıqdır.*

Sümüyə düşməyən havanı çalma,
Müqəddəs duyğuma laqeyd qalma.
Mən səndən bir köynək uzağa düşsəm,
Arzudan, istəkdən qırağa düşsəm,
Çox əziz köynəklər soyular bizdən,
Tənhalıq oxunar gözlərimizdən.
Düşmənlər "dil tapıb" yuyarlar bizi,
Kəsərlər, asarlar, soyarlar bizi,
Bədxah arşınıyla ölçüb-biçərlər,
Günah "tapıb" tərəzidə çəkərlər.
Fürsətlər fürsəti əlinə alar.
Qeybətlər qeybəti yoluna salar.
Nə qədər "nöqsanlar" üzə çıxarar,
Ağrını, acını gözə çıxarar,
Adımız ünvandan pozular onda.
Yeni bir ünvana yazılar onda.
Dədəli ünvanlar dədəsiz olar,
Analı ünvanlar anasız qalar.
Dünənki qohumlar düşmənə dönər,
Qapılar bağlanar, kəsilər yollar.
Arada sərhədlər, sədlər çoxalar.
Məclisdə yerimiz boş qalar onda,
Yerimiz yerindən boylanar onda.
Danışan dillərdə yalanlar bitər,
Qohum cərgəsindən adımız itər.
Məclisdən-məclisə qaçan yalanlar,
Məclisdən-məclisə uçan yalanlar,
Danışar nə qədər yalan-palanlar.
Mən səndən bir köynək uzağa düşsəm,

Ən əziz köynəklər soyular bizdən.
Bizim kimliyimiz bəlli olsa da,
Bizim yoxluğumuz kimə gərəkdir?
Kimlərin qəlbini göynədəcəkdir?
Lap göydən minnətə gəlsə mələklər,
Lap əncam qılmağa ensə fələklər,
Bu əziz köynəklər, doğma köynəklər,
Qatbaqat ayrılar, soyular bizdən,
Keçər yol ayrıcı ürəyimizdən.
Yollar ayrıldımı, düşərlər gözdən.

## PİS ADAMA

*Dünya nə yaxşıya, nə pisə qalmaz,*
*Pislər namərd olar, qəhrəman olmaz.*

***Qəşəm Çıraqlı***

Nə deyirəm, özün bilərsən,
Pissən, lap pis ol,
Elə pisliyində də qal.
Lap ilan ol yurd-yuva sal.
Dünyadan pisliklə kamını al.
Sən hardan biləsən,
pislərdən neçə şer yazılıb,
neçəsi də yazılacaq.
Bunu Tanrı bilər ancaq.
Pislik-pislərə
Pis də yarlıq olacaq.
Sən pisliyində ol,
mən yazmağımda -
məndən incimə ancaq.
Dünyada nəslin də,
əslində
pis adla qalacaq.
Elə pis ləkədir, - pislik,
Öləndə əndamından, - ruhundan
mürdəşir də yumayacaq.

## NEÇƏ DAHİ VAR

Hələ partbiletli neçə "dahi" var,
Kürsülər, stollar aşkar edəcək.
Yıxdı sovetləri "dahi" adamlar,
Görən millət hansı səmtə gedəcək?

Kürsülərdən gələn sözün küyünə,
70 il yeridik iri addımla.
Keçici bayrağın uçub yelinə,
Baxdıq ki, 70 il düşmüşük dala.

Qırmızı masalar, gerbli kürsülər,
İnsana hörmətin bacı olurmuş.
Allah vergisiymiş demə kürsülər,
Kürsülər şöhrətin tacı olurmuş.

*1990.*

## QADINLAR, KİŞİLƏR

### 1

Qadınlar zərifdi, kövrəkdi,
Nə fərqi cavandı, qocadı,
Axı, qadın qadındı qardaş, -
Nənədi, anadı, bacıdı, -
Böyükdü, uludu, ucadı.
Həyası da öz boyuncadı,
Sevgisi də öz boyuncadı
Ədası da öz boyuncadı.
Qadınlar, qadınlar, qadınlar!

Qismətinin keşiyindədir.
İsmətinin keşiyindədir.
Söhbətinin keşiyindədir,
Şöhrətinin keşiyindədir
Qadınlar, qadınlar, qadınlar!

Haçan qadınlar ana olar,
Övlad eşqi qəlbinə dolar.
Ən müqəddəs xilqət olar,
Haraya getsə, ayaq bassa,
O yerlər dönüb cənnət olar, -
Qadınlar, qadınlar, qadınlar!

### II

Biz kişilər kimik, nəçiyik?!
Biz kişilər balıq kimiyik,
Biz kişilər Xaliq kimiyik,
Sakitik, "lalıq", səbirliyik,
Adəmdən bəri təmkinliyik,
Və… bir az da tədbirliyik.

## GÖZƏLLƏR, ŞAİRLƏR

*Həmkarımız - iş yoldaşımız*
*(ləzgi qızı Zalikə xanıma)*

Sevilib, seçilir
Tanrı tərəfindən
yaradılır,
Gözəllər də,
şairlər də.
Tanrı tərəfindən
Sevilənlər, seçilənlər,
Sevilə-sevilə gələnlər
Bəd ayaqda da,
Tək-tənha otaqda da,
bəndələr tərəfindən
sevilə bilir.
Gözəllər elə gözəl,
Şairlər də
elə şair kimi
dünyaya gəlir.

## DÖZÜRƏM HƏLƏ

*"Rokovoye nasledstvo", "Fəlakətli varislik" T/S filmdə olduğu kimi boş şeydən deyinən, dava salan və münaqişə yaradan arvada ərinin etirazı*

Yorulub düşsən də
əldən, ayaqdan
Qalsan da
kefdən, damaqdan,
haqdan, nahaqdan
hirsini, hikkəni,
dilinin acısını,
Dişlərinin zəhərini
tökmə üstümə,
Hələ dözürəm,
tökmə dözümümə.
Geydiyini - geyirsən,
Yediyini - yeyirsən,
Dediyini də deyirsən,
daha nə istəyirsən?
Eşit gec deyil hələ,
Qiymətləndir bu dözümümü,
Dözümün də həddi var.
Dözüm çatlaya bilər,
Dözüm partlaya bilər,
Onda vay halına,
İşlərin düşməz yoluna,
Yıxılsan,
girən olmaz qoluna.
Qapanıb dərd-sərinə,
Dözəcəksən qınaqlara,
kölgəni baltalayan,
dillərə-dodaqlara.
qarğış da edərsən,

Sükutu qulaq dələn,
sakitliyə,
səssizliyə,
                təkliyə.
Qəlbinin ağrısını,
dilinin acısını,
dişlərinin zəhərini,
çırparsan dörd divara,
yaxınlara, uzaqlara.
həsədlə, həsrətlə
baxarsan
qohumlara, yadlara.
Mən ki, hələ də
qısılıb səbrimə,
səbrimi geyib əynimə,
Dözürəm, - dözməzliyə,
Dözürəm "zərbələrə",
Hikkələrə, hədələrə.
Həyatdır, nə etmək olar?
Sən də
incimə məndən,
daşı tök ətəyindən
Qızın oduma, döz tüstümə,
Mən dözdüyüm tək.
Ağır həyat yükünü,
birlikdə çəkək.
Qarşıda yeniş var,
yoxuş var, -
Var sərt döngələr.
Dilinin acısını,
dişlərinin zəhərini,
tökmə üstümə, dözümümə,
Vallah dözüm partlaya bilər.

## TANRI LAQEYD QALIR

"Qaçan da Allahı çağırır",
"Qovan da Allahı çağırır",
Qaçanla, qovan arasında
Tanrı laqeyd qalır.

*2004*

## BAĞIŞLAMARAM

Hardasa, nə vaxtsa,
Hansı zamandasa,
Hansı məkandasa
Səni incidəcək
Söz demişəmsə,
Sənin qəlbinə
dəymişəmsə, -
Özüm-özümü
Alqışlamaram.
Əlimdən, dilimdən çıxan
Bu xətaya, səhvə görə
Sən məni bağışlasan da,
Mən özümü bağışlamaram.

*2005*

## BİR DAM ALTDA YAŞAYIRIQ

*Tənha olmayıb, tənhalıqda yaşayanlara*

Yaşayırıq bir dam altda,
Sən-səndənsən, mənsə-məndə.
Nə ögeyik, nə də doğma,
Dərdimizi yox bilən də.

Yaşayırıq bir dam altda,
Yüz illərin yadları tək
Belə ömrə bahar gərək,
Gəlsə sevgi göyərəcək.

Yaşayırıq bir dam altda,
Sudan, Aydan arıyıq biz.
Bir dam altda yaşasaq da
Günəş, Ay tək ayrıyıq biz.

Sevgi adlı bir şey varsa,
Bu gün tamam çıxıb yaddan,
Uyuyub hisslər, duyğular, -
Yoğrulmur alovdan, oddan.

Bir göy altda yaşayırıq,
Tanrım, sənə olduq bəndə.
Dərgahından mələk göndər,
Sevgi gətirsin gələndə.

Göy altında, dam altdayıq, -
Göyü-göydə saxlar bu dam.
Damı çiynində  saxlayar,
Bir dam altda iki adam.

## FARS ŞOVİNİSTLƏRİNƏ

*Fars şovinist siyasətçiləri deyirlər:*
*"Biz farslar və siz ermənilər mən –*
*şəcə, bir kökdənik. Hər iki millətin*
*dili pəhləvi dil qrupuna daxildir.*
*Din ayrılığı bizim millətlərin birliyinə*
*əngəl törədə bilməz... Bizim anamız*
*birdir" – Qəzetlərdən. Bununla belə özünü*
*İslam dövləti adlandırır, lakin ermənilərə*
*yanacaq, enerji, silah verilməsinə şərait yaradır,*
*əhalisi İslam olan Azərbaycan xalqını qırdırır.*
*Bərəkəllah belə İslam dövlətinə!*

"İslam", "İslam" deyir dodağın-dilin,
Qəlbinə yol tapmır öz İslam dinin.
İslam - siyasətin, İslam - silahın,
Qılıncın, qalxanın; İslam-pənahın.

Sancılıb bayrağın İslam dağında,
Bu bayraq altından hiyləndir baxan:
Qəzəbin - İslamdır, inacın - İslam,
Yaylağın - İslamdır, yamacın - İslam.
Səni tanımışam, səni tapmışam
İslamı - İslama qırdırmağından.

Farssan, əcdadında "yan" qohumluğun.
Farssan, - hayeslərlə qan qohumluğun
Əməl qohumluğun, can qohumluğun
Axıtdığın İslam qanından bəlli,
Babandan, atandan, anandan bəlli.

Siyasət qılıncın nə "Quran" bilir,

Nə türk, nə tacik, nə əfqan bilir,,
İkiüzlülüyün - mənəvi terror
İslamsan, İslama güc  ver, arxa dur.
İslam ki, ədalət, İslam ki, haqdır.
Bilirsən, müqəddəs ayələrdə  də
İslamın - İslama qəsdi günahdır.

## GÖZLƏRİN NƏ DEYİR, GÖZ VURA-VURA?

Gözlərin nə deyir, göz vura-vura? -
Kimisə baxışla sevir bəlkə də,
Kimisə baxışla söyür bəlkə də,
Kimisə baxışla döyür bəlkə də?
Gözlərin nə deyər, göz vura-vura?

Gözlərin nə deyir, göz vura-vura? -
Gözlərin gözlərə sataşır bəlkə,
Gözlərin get-gedə yadlaşır bəlkə,
Məhəbbət səddini o aşır bəlkə?..
Gözlərin nə deyir göz vura-vura?

Gözlərin nə deyir göz vura-vura? -
O gözlər deməyə sözmü istəyir?
O gözlər baxağa gözmü istəyir?
O gözlər sevməyə üzmü istəyir?
Gözlərin nə deyir göz vura-vura?

Gözlərin nə deyir göz vura-vura? -
Sözünü beləcə deyirmi gözlər?
Kiməsə vurulub, öyürmü gözlər?
Kimsə hirslənib, söyürmü gözlər?
Gözlərin nə deyir göz vura-vura?

Gözlərin nə deyir göz vura-vura? -
Kiməsə ehyamdı baxışlar bəlkə.
Kiməsə ilhamdı, baxışlar bəlkə,
Dartılan kamandı baxışlar bəlkə.
Gözlərin nə deyir göz vura-vura?

Gözlərin nə deyir göz vura-vura? -
Kimə meydan açıb, yaraşıq verir?

Kimə ox atıb, o, acıq verir?
Kiməsə göz vurub, o qıcıq verir?
Gözlərin nə deyir göz vura-vura?

Gözlərin nə deyir göz vura-vura? -
O gözlər həddini aşıbdı, bəlkə?
O gözlər yolunu çaşıbdı bəlkə?
O gözlər kiməsə dolaşır bəlkə?
Gözlərin nə deyir göz vura-vura?

Gözlərin nə deyir göz vura-vura? -
O gözlər gözucu qıyılır birdən,
Elə bil qılıncdır, sıyrılır birdən,
Gözlərdə həyəcan, duyulur birdən…
Gözlərin nə deyir göz vura-vura?

Gözlərin nə deyir göz vura-vura? -
O gözlər köz kimi yandırar, baxma!
O gözlər göz kimi yandırar, baxma!
O gözlər söz kimi yandırar, baxma!
Baxma, baxışında xata var, baxma!
Gözlərin nə deyir göz vura-vura?!
Qorxuram, məni də yandırar, baxma.

**PARILTILAR**

İki  qadın - iki həvəs,
İki qadın - iki nəfəs:
Oturmuşlar üz-üzə,
Göz-gözə.
Birinin varı-yoxu
Şəfəqlənən boy-buxunu,
Parıldayan əli-qolu…
Amma, di gəl,
Ərlilərə, evlilərə
Ürəyində həsəd dolu…
Birininsə saçlarında,
Ər nəfəsi dolaşırdı.
Ər sevgisi, gözlərində,
Dodağında alışırdı…
Bunun başqa istəyi var -
Ürəyinə həsəd olub
Parıltılar, parıltılar.

## GÜL, BELƏ GÜLMƏ

Elə güldün, gülüşün də deyindi,
O səndən də əvvəl danışdı, dindi,
Mənliyin də gülüşünlə bilindi,
Gül, belə gülmə, qız, belə gülmə qız.

Xəbərin olmadı gülüş hönkürdü,
Çiliklənib ayaqlara töküldü,
İlmə-ilmə təməlində söküldü,
Gül, belə gülmə, qız, belə gülmə qız.

Gəl daha danışma, gəl daha dinmə
Belə gülüb, bu gülüşlə öyünmə,
Qaqqıldayıb, şaqqıldayıb sevinmə,
Gül, belə gülmə, qız, belə gülmə qız.

Sən güləndə satmaq üçün gülürsən,
Hamı üçün, yatmaq üçün gülürsən.
Ürəklərə axmaq üçün gülürsən.
Gül, belə gülmə, qız, belə gülmə qız.

Bu gülüşün yoxdu qoruq-qaytanı,
Bu gülüşün yoxdu yüyən-sükanı,
Bu gülüşün yoxa çıxıb məkanı,
Gül, belə gülmə, qız, belə gülmə qız.

Boğazdan yuxarı gələn gülüşdü,
Paylayan gülüşdü, bölən gülüşdü,
Səni, səndən yaxşı bilən gülüşdü,
Gül, belə gülmə, qız, belə gülmə qız.

Sahibsiz-ünvansız olan gülüşdü,
Ürəksiz, ciyərsiz; yalan gülüşdü,
Sevgisiz, istəksiz; talan gülüşdü,
Gül, belə gülmə, qız, belə gülmə qız.

## DÜŞÜB

Söz, - sözdən düşüb, İlahi,
Söz, - gözdən düşüb, İlahi
Sözün söz vaxtı varıdı,
Qızıldan taxtı varıdı,
Güc, güclə aparmayanı,
Söz, söz ilə aparırdı.
"Mən ölüm"ə dağ aşardı,
"Sən öl"ə insan yaşardı, -
Qan da, Qanı bağışlardı.
Sözdə Tanrı hökmü vardı…
Sözü - söz adından saldıq,
Sözü - söz atından saldıq,
Qızıl taxtından saldıq.
Söz, - sözdən düşdü, İlahi,
Söz, - gözdən düşdü, İlahi.

## RUHUN CƏSƏDİNDƏN ASILI QALAR

*Əliəyri ticarətçiyə*

Hələ canında can var,
Zamanın dəstəyi əllərindədir.
İstəsən yuyular bütün günahlar,
Allah dərgahında üzün ağ olar.
Canında can var, yoluna qayıt,
Müqəddəs kitaba, – Qurana qayıt.

Ölüm nədir? - Ölümə nə var?!
Hərə bir cana, - ömrə borcludur.
Ölüm də uludur, ruh da uludur,
Ölüm ömrün son yoludur,
Hər ömrün sonunda var.
Günahların bu dünyaya sığışmaz,
Ruhun-sərgərdan; yerə-göyə uyuşmaz.
Ölü kimi - ölülərə,
Diri kimi dirilərə qovuşmaz.
Canın - can verib, canından çıxar,
Ruhun, - cəsədindən ayrıla bilməz, -
Ruhun cəsədindən asılı qalar.
Can çıxar, - can ixtiyarından,
Ancaq çıxa bilməz günahlarından;
Əyri əllərinin əyri əməli,
Olar neçə min ilan, neçə min zəli,
Asılar cəmdəyindən, yanaqlarından.

Şərəfli həyatlar ömürlər üçün,
Ölüm də uludr, ruh da uludur,
Ölüm - ömrün son yoludur; -
Hər ömrün sonunda var.

## KAĞIZ ÜRƏKLİ DÜNYA

Dünya kağız üstə
Qərar tutub, durub,
Dünya kağız üstə
Bardaş qurub oturub.
Kağızdandı dirəyi,
Kağızdandır ürəyi
Bu dünyanın.
Yazın, çox yazın,
Ağ kağız qalmasın,
Heç kəs bekar dayanmasın.
Ehey… Atam balası,
Axı düz demirsən;
Dünya öküz üstə dura bilməz,
Nə balıq üstə,
Nə də fil üstə otura bilməz.
Dünya kağız-küğuz dünyasıdır,
Dünya kağız  üstə durasıdır.
Yazın, çox yazın.
Ağ kağız qalmasın,
Yazın, yazın heç kəs
Bekar dayanmasın.
Bu dünyanın, kağız ürəyi,
Bu dünyanın kağız dirəyi,
Bərkisin, yoğnasın,
Dünya zəif olmasın.
Bu kağız ürəkli,
Kağız dirəkli
Dünyanı ancaq,
Oddan, alovdan
Möhkəm, möhkəm qoruyun,
Bu kağız-kuğuz dünyası
Birdən-birə od tutub
Yanmasın, alovlanmasın.

* * *

Qurşaq çəkib,
Bağlayıb ətək
Çökmüşəm yenə
Top sinəsinə.
Odlu, alovlu
Duyğuları
Basıram
Lüləsinə:
Snaryad tək.
Atıram, atıram
Duyğuları hədəfə sarı.
Dəyənlər də olur,
Dəyməyənlər də
Lap hədəfə
Düşələr də...
Tənqidçi yoldaş,
Sənət məhkəməsi.
Özu danışacaq bu barədə.

## BAŞLAMISAN BANLAMAĞA

*(Pul adamı banladar - atalar sözü)*

Cahil, nadan,
hələ çox cavan,
pullu bir oğlan,
Yaxınlaşdı dünya görmüş
bir qocaya,
Daxilən yana-yana,
üz tutub dedi ona,
Baba deyirlər ki,
Pul adamı banladır?!
Mən bu işi anlamadım,
Pulum var, ancaq
mən niyə banlamadım?!
Qoca baxdı, baxdı
bu cahilə, nadana,
Belə söylədi ona:
– Səncə banlamaq,
Bəs necə olur?!
Oğul, sən elə
başlamısan banlamağa,
banlamaq - elə
bax belə our.

**ORDAN, BURDAN**

Restorandan, bazardan gen qaçıram,
Çörəklə, su ilə süfrə açıram.

***

Almaq istədiyimi "ver" demirəm,
Deyirəm ki, qiyməti neçəyədir?

***

Əynim-əyinlərdən, utanır
Və görənlər bilir ki, yazıçıyam,
alverçi deyiləm.

***

Əllərim söz çap edir,
Pul çap etmir.

***

Kim deyir ki, kasıbçılıqdır?
Allaha şükür,
Havamız, suyumuz hələlik boldur.

***

Qiymətlərə baxmamış,
əlimi cibimə salmıram.
Baxandan sonra da,
"Küsürəm", almıram.

***

Mən hər gün Allaha yalvarıram,
Yazılarıma sponsor axtarıram.

***

Bostan nəzarətsiz qalanda
Tapılımaz satan da, alan da.

***

Böyüklər, böyüklük etməyəndə,
Gədələr-gədalıq edər.

***

Kobudun evində külək,
Həyətində it ulayar.

## PÜNHAN OLUR

Gözəldə gözəl olan gözəllik pünhan olur.
Gözəlliyi pünhanlar gözəl də insan olur.
Qızlar ki, yad gözdən gözəlliyi pünhan edir.
Ovçulara ovlanmayan, ahu-ceyran olur
Pünhan gözəlliyin pünhandı qurbanları da,
O, elə pünhan-pünhan candan-can alan olur.
– Tanrı mükafatı – gözəllik bir səcdəgahdı.
Ona səcdə, ancaq ki, məhrəmə asan olur.
Qorunmasa gözəllik göz bəbəyindən betər,
Gözündən pünhan keçən aşkarda bir can olur.
Gözəllik çiçək deyil axı, hər yetən dərə,
O, elə möcüzədir aşiqə dərman olur.
Bu bakirəlik qızlarda müqəddəslik tacı,
Ona kim toxunsa, qətlinə fərman olur.
Çoxdur Allahın nemətləri dünyada, vallah,
Bu böyük hikmətə, Qəşəm, şah da heyran olur.

## YAŞINAN GÜL

Əgər ki, yarpaq ilə yaşınsaydı o gül,
Fəğanla aləmə səs salmazdı bülbül.
Soyunub yaşıl tülü, gül ki oldu üryan,
Qəzəbdən, qeyrətdən bülbül qopardı fəğan.
Qızardı həyadan, yandı yanağı gülün,
Çünki, təhqir etmişdi fəğanı bülbülün.
Gərək ki, yarpaq ilə tez yaşınsın o gül,
Bülbül yenə versin, sevib o gülə könül.

## GİZLƏDİN SÖZ KİBRİTİNİ

Möhkəmcə gizlədin söz kibritini,
Sözdən yana bilən insanlar da var.
Gizlədin, gizlədin söz kibritini,
Pis sözdən alışıb yanandı onlar.

## ƏZƏLDİR

Dünya bir xırmandı,
Həyat da sünbülü,
Zaman da üstündə
Fırlanan bir vəldir
"Olum", "Ölüm" üçün
həyati bir təldir.
Alın yazısıdır,
Məxfidir,əzəldir.

## SAFLIQ

İlahi, bu dünyanı bakirə saxla,
Qoyma dünyamıza təcavüz ola.
Bakirə dünyanın insanları da
Bəlkə bu dünyada bakirə qala.
Bizim də bakirə dünyamız olar.
Bakirə torpaqda insan yurd salar.

## DAN ÜZÜ, ANA ÜZÜ

Dan üzü - ana üzü; - çox nurludur,
Dan üzü - ana üzü; - uğurludur.
Dan üzü yola çıxsan uğur olar,
Dan üzü yolçu yola bir nur olar.
Dan ulduzu - dan üzünün çağrışı,
Dan üzünün  yaşıl yanan işığı.
Dan ulduzu - ana qəlbi; hey yanır,
Yolçu oğulların keşiyində dayanır.

## GÖRÜŞÜRÜK

*İndi biz kağızlar  üzərində görüşürük*
***Nurəngiz Gün***

Xəyalən görüşürük
ağ kağız üzərində
Hər üçümüz: -
Sən, mən, bir də ki, qələm.
Ağ kağız bizim üçün -
Həm görüş yeri,
Həm də ki, sirli bir aləm.

* * *

## ÇİÇƏK AÇIBDIR

Bu gəncin
dərdi, qəmi
Yuxusunda qaçıbdır,
Uçur arzuların qanadlarında.
Gözəllik üzündə
çiçək açıbdır.
Uçur, uçur yuxularında,
Arzuların, istəklərin
dalınca.

## KALDI BU

*(Bəziləri yeni dəbdə geyinir, lakin danışığında, davranışığında nəzakət qaydalarını pozur)*

Bu baş-gözü, bu qulağı,
Bu da ağzı, burnu, dodağı.
Bu da iki əli, ayağı.
Baxarsan başdan-ayağa,
Baxarsan ayaqdan-başa,
Deyirsən ki, "adamdı" bu.
Bir az dərinə varsan,
Söhbət edəsi olsan,
Bir neçə "söz" qoparsan.
Görərsən, necə nadandı bu,
Bəlkə də elə maldı bu.
Vallah, billah yetişməyib,
Vallah, billah kaldı bu.

## TOXUNMAYIN MƏNƏ

*20 Yanvar günündə 1990-cı il*

Toxunmayın mənə, dəyməyin mənə,
Boşalmaq istəyən bulud kimiyəm.
Üstündə barmaqlar gəzəndə dinən,
Segahlı, muğamlı  kövrək bir neyəm.
Çaxır gözlərimdə şimşəklər bu gün,
Dolanır başıma küləklər bu gün,
Harda bir kədər var, bağrını sökün,
Məni təkləməsin nə hicran, nə qəm.

**VAR**

Öyənim-yox,
Deyənim-yox,
Sevənim-yox,
Söyənim-yox,
Tışdan-içdən
Köməyim-yox,
Belə həyata
Gülməyim gəlir.
Yaxşı-yaxşıdır
Ürəyimcədir,
Pisi də
Sevməyim gəlir.
Beləcə gülməyim,
Ağlamağım var.
Fəqət ruhdan
Düşmürəm yenə,
Beləcə, belə dünyaya,
Belə də bel
Bağlamağım var.

## LƏNKƏRANDA

Bir yanı dənizdi, bir yanı meşə,
Gözəllik insanı salır təşvişə.
Dənizlə baş-başadır,
Dağla döş-döşə.
Bir yanı mavilik üfüqə qədər,
Bir yanı meşədə səni qərq edər.

## ZƏFƏRƏ SARI

Günəş - kainatın nuru, baxışı,
Günəş - təbiətin gözü, naxışı…
Gecələr - varlığın şirin laylası,
Səhərlər - həyatın qələbə marşı.
Ayılın, çalınır zəfər marşları
İnsanlar!
Yeriyin zəfərə sarı!

## DAĞLARA

Qayalardan qaya qopar,
Gəl qayadan sərtlik apar.
İgid olan arxa tapar,
Gəlsə dağlara, dağlara.

**DAŞ**

Daş - daşdır,
Daşın daş dözümü,
Daş üzü vardır.
Daşın daşlaşmış
"Daş" sözü vardır.
Daşın daşlığı da
Qəbir daşı olmağı da
Onun daşlığındadır.
Daş olmağındadır.

## UZAQ GEDƏ BİLMƏRƏM

Bu sevgimlə, məhəbbətimlə,
hara istəsəydin, gedərdim.
Nə istəsən, nə desəydin, edərdim,
Əvəzində kədər əkdim, dərd dərdim.
Ürəyimə əmr etmək istərdim,
Şıltaq idi, heç nə edə bilmədim.
Taleyimə yazılmışdı bu sevgi,
Taleyimdən uzaq gedə bilmədim.

## MOLLA SƏKSƏNMƏDİ

İnsan ölür!
Səsdən
Əzrayıl diksindi, -
can alırdı.
Dərd diksindi, -
yetim qalırdı.
Torpaq diksindi, -
kimlərsə
sinəsini yarırdı.
Təkcə mola səksənmədi;
Allaha ruh
tapşırırdı.

## GÖRÜNMƏZ YOLLAR

Göydən yerə,
Yerdən göyə,
Gözə görünməz
yollar uzanır.
Yollara
yol uzunda
qollar uzanır.
Mələkkimiləri
Göyə çəkir, -
qaldırır.
Şeytanları
Yerə salır.
Şeytanlar yerdə
ara vurur,
Qisas alır.

## GÜNAHA YER QALMIR DAHA

Hamının taleyi
Tanrı əlindədi,
Hamının əli
Tanrı ətəyindədi.
Şerin taleyi
Şair əlindədi,
Şerin əli
Şair ətəyindədi.
İlahi kəlamlar yazanda
Şairin əli,
İlahi kəlamlar deyəndə
Şairin dili,
Yer göyə yaxınlaşar,
İnsan Allaha,
Arada günaha
yer qalmaz daha.

## BELƏ DƏ OLUR

Böyüklər var, böyüklükdə
Gözümüzdə kiçilir.
Kiçiklər var, kiçik ikən
Kişi olur, böyük olur, -
El-obada,
El içində,
Sevilir, seçilir.

## ALLAH ADİLDİ

Adil Allah, adildi Vallah!
Ağıl paylayanda bəndələrə
Daha həssas, daha dəqiq olur.
Hər kəsin qabına görə,
Hər kəsin qəlbinə görə.
Hər kəsin başına görə,
Hər kəsin yaşına görə
Başına ağıl qoyur.
Ona görə də heç kəs
Ağlının azlığından,
Narazılıq etmir.
Allah dərgahına
Şikayətə getmir.

## DÜNƏN, BU GÜN, SABAH

Dünən bahar idi,
Siz, çiçək idiniz,
Siz, göyçək idiniz.

Bu gün yaydı,
dəyərsiz, dolarsız.
Sabah payızdı,
sovularsız, solarsız.
Qışda necə olarsız?
Ay təzətər çiçəklər,
Ay gözəllər, göyçəklər.

## ÖZÜMDƏN XƏBƏRSİZƏM

Eh, bu gün də maaş vermədilər,
Mədəm, dişlərim istirahət edir.
Ciblərim də rahatlıqdadır,
Əllərim də rahatlıqdadır.
Di gəl məndən xəbərsiz
Nəfsimə, istəyimə qoşulub,
Boş əl, boş ciblə yenə
Maraqlarım bazara gedir,
Ayaqlarım bazara gedir.

## QORXURAM

İldırımlı göydən qorxuram,
Zəlzələli yerdən qorxuram,
Çox davalı evdən qorxuram.
Bir həyasız dildən qorxuram.
Şer yükü şair belində,
Şair taleyi şer əlində,
Bitməmiş şerdən qorxuram.

## TANRILIQ

Günəşdə Tanrı nuru,
Havada pak nəfəsi,
Suda əbədiliyi,
Torpaqda qüdrəti var.
Dörd ünsür vəhdətində
Tanrının hikməti var,
Nə istəsə bitirər,
Nə istəsə yaradar.

## BELƏ-BELƏ İŞLƏR

Yazıçı da, alim də, dahi də
Yazısı, elmi, əməllərilə
Çox uca olubdur, ulu olubdur.
Belə ağır bir dövürdə,
Ağır bir zamanda
Xanın, şahın, Allahın yox,
Bir parça çörəyin qulu olubdur.

*1993*

## FÜRSƏT

Fürsətin əlinə fürsət düşübdür,
Kəsir qılıncının dalı-qabağı,
İmkanın-imkanı talan olubdur,
Bağlanıb qandalla əli-ayağı.

## BİR HİMƏ BƏNDƏM

"Qarabağ" deyəndə
Şerim,
Göyüm,
Yerim -
Bütün dünyam
Qara geyir, ağlayır.
"QARABAĞ" deyəndə
gözlərim nəm çəkir,
Qəm əkir, qəm biçir,
Dərdi, qəmi
şərab kimi içir, -
Dəm oluram, -
Rahatlıqdan kəm oluram,
Ağrılara
Həmdəm oluram.
Gözlərim dolur,
Əsəblərim cilov bilmir,
Bir himə bənd oluram.

*2005.*

## DÜNYANIN

Gözəl çal-çağırı olan dünyanın
Planında qeylü-qal da olurmuş.
Günəşindən sevinc yağan dünyanın,
Buludunda qəmli hal da olurmuş.

## XALQ YAŞADAR

Yüz ildə, min ildə bir dahi bitər,
Ulu bir millətin kökləri üstdə.
Nadanlar əlində o qətlə yetər,
Xalq onu yaşadar döndərib büstə.

* * *

## FİT ÇALA-ÇALA

Hərə bir cür çörək qazanır:
Kimi külüng vurmaqla,
Kimi odun yığmaqla,
Kimi də daş yonmaqla.
Kimi də elə-belə,
Fit çala-çala.

## MÜQƏDDƏS YÜKLƏR

Adamı
yolda yoran,
Evdə bezdirən,
Ağırlı, yüngüllü
Yüklər içində
Səadət gətirən,
Sevgi bitirən,
Həvəslə, vüqarla
gəzdirilən
"Çəkidən yüngül,
vəzndən ağır",
İki müqəddəs
yük də var:
Şer yüküdür,
analıq yüküdür bunlar.
Bu yükün
fərəhini, sevincini,
Şairlər, analar
yaşayır.
Şer yükünü şair gəzdirir,
Analıq yükünü ana daşıyır.

## İNDİ SAYANLARI SAYIRIQ

Bulananda duru sular,
Elin köçü geri döndü.
Bütün arıqlar, axsaqlar,
Birdən öndə göründü.
Vəzifəyə can atıb,
Kürsülərə süründü.
Beləcə bir-birinə
qarışdı aləm,
Kükrədi, daşdı və
yenidən barışdı aləm.

İndi-indi biz
göydə Allahın,
yerdə qanunların
Ətəyindən tutmuşuq.
İndi-indi biz,
qorxunu, qorxaqlığı
unutmuşuq.
İndi-indi biz
Demokratiyaya
Addımlayırıq.
İndi-indi biz
Saydığımızı sayırıq,
Sayanları sayırıq.

## QARA YAXMA GECƏYƏ

*Qarayaxanlıqla məşğul olanlara.*

Gecəyə qara yaxma,
Qara, qara götürməz.
Qara-qarada görünməz.
Qara qatdın hər rəngə,
Qara yaxdın hər şeyə,
Gəl toxunma gecəyə.
Bu sakit, təmiz gecəyə,
Bu romantik, əziz gecəyə
Gəl qara yaxma.
Qara, qara götürməz,
Qara-qaradır elə.
Qaradan qara rəng yoxdur;
Gecəyə qara yaxma,
Qoy gecəmiz sakit,
Qoy gecəmiz saf olsun.
Belə saf-saf gecələrin sonunda
Üfüqdən,
Günəşlə birgə
Saf arzular,
Saf duyğular doğulsun.

## DEYƏ BİLMİRƏM

Fikirlərim  pərən-pərən,
Haralara uçub görəsən?!
İndi səni sevindirən
Bircə söz deyə bilmərəm.

Sözdən bir bağ salaram mən,
Qayğısına qalaram mən,
Barını dərmək istəsən,
Dayan, döz deyə bilmərəm.
Sabahıma inamım var,
Ömrümə gələcək bahar,
Aşar, daşar şux duyğular,
Uzaq gəz deyə bilmərəm.

## SEVGİ HAVASI

Bu gün, bu səhər
Güləndə göylər,
Belində kəmər,
Əlində güllər,
Nazəndə gözəl
Çıxdı qarşıma.
Sevgi havası
Gəldi başıma.

Sakit quzuydum,
Təklikdən doydum,
Sevgini duydum,
Sevgiyə uydum,
Hara getdimsə
Çıxdı qarşıma.
Sevgi havası
Gəldi başıma.

Uçdu xəbərlər,
Qaçdı xəbərlər,
Qalmadı sirrim,
Açdı xəbərlər,
Hara getdimsə,
Çıxdı qarşıma.
Sevgi havası
Gəldi başıma.

## DƏHŞƏTDƏN BETƏR

Qoca bir qadın,
Ucuz bir konfeti,
